

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 271 (8294) CÜMƏ, 6 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham ƏLİYEV: "Biz Şamaxının tarixi simasını qorumaqla onu müasirləşdiririk"

## Prezident Şamaxı rayonuna səfər edib

## Beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarını və "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun 2019-cu il 4 dekabr tarixli Qərarını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 98[1]-ci maddəsinin I hissəsini və 109-cu maddəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi buraxılsın.

2. Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2019-cu il*

## Finlandiya Respublikasının Prezidenti zati-aliləri cənab Sauli Niinistöyə

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə və dost Finlandiya xalqına ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

# Yol infrastrukturu yenidən qurulur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonuna səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101-117-ci kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, ümumi uzunluğu 16 kilometr olan yol yenidən qurularaq 4 zolağa genişləndirilib.

Dövlət başçısına 4 min nəfər əhalinin yaşadığı, 5 məntəqəni birləşdirən Qonaqkənd-Həmyəli-İkinci Çaylı-İkinci Cabanı-Cabanı avtomobil yolunda görülmüş işlər barədə də məlumat verildi.

Sonra Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# "Rossiya-24" telekanalı "Bakutel-2019" sərgisi ilə bağlı reportaj yayımlayıb

## Reportajda Prezident İlham Əliyevin müsahibəsi də yer alıb




Rusiyanın "Rossiya-24" telekanalı dekabrın 5-də XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel-2019"la bağlı reportaj yayımlayıb. Reportajda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi də yer alıb.

AZƏRTAC "Rossiya-24"ün müxbiri Aleksandr Çernetsovun reportajını təqdim edir.

**Aparıcı:** Bakı. Yenə də "Formula-1"in mühərriklərinin gurultusu. Bu dəfə arzu edən hər kəs özünü əsl pilot kimi hiss edə bilər. Yürüş bolidinin super müasir simulyatoru "Bakutel" Beynəlxalq Sərgisinə gətirilib. Yüzlərlə İT şirkətinin 23 ölkədən olan təmsilçisi texnologiyaların inkişafını və bu sahədə parlaq layihələri müzakirə edirlər və əlbəttə, müqavilələr bağlayırlar.


*Ardı 5-ci səh.*


## Heydər Əliyev Fondu Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonuna görə xüsusi mükafata layiq görülüb



СПЕЦИАЛЬНАЯ ПРЕМИЯ

лауреата конкурса

«МОСКОВСКАЯ РЕСТАВРАЦИЯ – 2019»

НАГРАЖДАЕТСЯ

Фонд Гейдара Алиева

за организацию ремонтно-реставрационных работ на павильоне «Азербайджан», ВДНХ по адресу: Мира просп., д. 119, стр. 14

Декабрь 2019 г. Мэр Москвы С.С. Собянин

Heydər Əliyev Fondu Moskva hökumətinin "Moskva restavrasiyası - 2019" müsabiqəsinin xüsusi mükafatına layiq görülüb.

Bu mükafat fonda Rusiya paytaxtındakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun əsaslı bərpa və təmirinin yüksək səviyyədə təşkilinə görə təqdim edilib.


*Ardı 5-ci səh.*


## Müstəqil siyasət yürüdən Azərbaycanın sözü ilə əməli birdir

**İlham ƏLİYEV:** "Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq"

Dövlətin və xalqın inkişafı, yüksəlişi, dünya birliyindəki yerinin müəyyən olunması ona rəhbərlik edən şəxslərdən əhəmiyyətli dərəcədə asılıdır. Tarix bunu hər bir güclü dövlətin təcrübəsində sübut edib. Müstəqil Azərbaycanın da 1993-cü ildən sonra yazılan tarixinə nəzər salsaq, bunu aydın görə bilərik. Məhz Ulu Öndər Heydər Əliyevin başlatdığı və bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs güclü Azərbaycan dövlətinin qurulmasını, onun yerləşdiyi bölgənin liderinə, dünyada isə söz sahibinə çevrilməsini təmin edib.

### Heç kim bizim işimizə müdaxilə edə bilməz

Beynəlxalq münasibətlər sistemində hər bir dövlətin nüfuzunu müəyyən edən bir sıra ənənəvi səbəblər var.


*Ardı 6-cı səh.*


## 200-dən artıq saziş, 5 "yol xəritəsi", 6,1 milyard dollarlıq sərmayə

### Birinci vitse-prezident Mehriban Əliyevanın Rusiyaya, bu ölkənin Xarici İşlər naziri Sergey Lavrovun Azərbaycana səfəri çoxşaxəli münasibətlərin inkişafına dinamizm verdi

Strateji tərəfdaşlıq səviyyəsində inkişaf edən çoxşaxəli Azərbaycan-Rusiya münasibətləri mühüm mərhələyə qədəm qoyub. Bunu şərtləndirən ilk amil hər iki ölkənin dövlət başçıları arasındakı səmimi dostluq münasibətləri, liderlərin mütəmadi xarakter daşıyan qarşılıqlı səfərləri, görüşləri, müxtəlif zirvə toplantıları çərçivəsində təmasları, intensiv dialoqlarıdır. Təkcə ötən ilin əvvəlindən bugünədək cənab İlham Əliyevlə, cənab Vladimir Putinin doqquz dəfə görüşməsi deyilənləri təsdiq edir.


*Ardı 7-ci səh.*


## İslahatların əsas məqsədi əhalinin sosial müdafiəsinin daha davamlı və sürətli gücləndirilməsinə nail olmaqdır

İslahatlar ölkənin dinamik inkişafını təmin edən başlıca vasitədir. Xüsusilə islahatlar dərin elmi təhlillər əsasında həyata keçiriləndə onun səmərəliliyi daha yüksək olur. Prezident İlham Əliyevin ölkənin iqtisadi və sosial sahələrində apardığı islahatların uğuru da bununla bağlıdır.

Bu islahatların dünyanın mötəbər təşkilatları tərəfindən yüksək qiymətləndirilməsi də həmin uğurun mötəbərliyindən xəbər verir. Bu baxımdan Davos Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycanın dünyanın 20 islahatçı ölkə sırasında olması təsadüfi deyil.

Həmin islahatların sayəsində ölkəmizin iqtisadi dinamikası artır, buna paralel yeni iş yerləri açılır, əhalinin məşğulluq səviyyəsi yüksəlir. Bu hal əhalinin sosial müdafiəsini gücləndirən əsas faktordur. Belə ki, işləyən, yüksək əməkhaqqı alan ölkə vətəndaşı dövlətdən sosial yardım almadan yaxşı yaşayır, üstəlik, büdcəyə vergi ödəyir, öz pensiyasını təmin edir.


*Ardı 9-cu səh.*

# İlham ƏLİYEV: "Biz Şamaxının tarixi simasını qorumaqla onu müasirləşdiririk"

## "ASAN xidmət" xarici ölkələrdə də böyük rəğbətlə qarşılanır

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında iştirak edib.*

*AZƏRTAC xəbər verir ki, dövlət başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev kompleks barədə dövlət başçısına məlumat verdilər.*

*Sifarişçisi Dövlət Agentliyi, podratçısı isə "Kristal Abşeron" olan kompleksin tikintisinə 2018-ci ilin iyun ayında başlanılıb. Kompleks Şamaxı, Qobustan, İsmayıllı, Ağsu və Göyçay rayonlarında qeydiyyatda olan 450 minə yaxın vətəndaşa xidmət göstərəcək. "ASAN xidmət" mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət həyata keçiriləcək.*

*Qeyd edək ki, bugünədək ölkə üzrə "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 35 milyona yaxındır. 2019-cu ilin 9 ayı ərzində keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,4 faiz təşkil edib.*

*Sonra Prezident İlham Əliyev kompleksin əməkdaşları ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*








## Prezident İlham Əliyevin çıxışı

- Bu gün Şamaxıda "ASAN Həyat" Mərkəzi açılır. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Əminəm ki, vətəndaşları razı salacaqsınız və "ASAN xidmət" öz yüksək keyfiyyətini saxlayacaq.

Şadam ki, mənim təşəbbüsümlə yaradılmış bu xidmət bu gün nəinki ölkəmizdə, hətta xarici ölkələrdə də böyük rəğbətlə qarşılanır. Şadam ki, "ASAN xidmət"in vətəndaşlar tərəfindən bəyənilmə əmsalı 99,4 faizdir. Yəni, bu, onu göstərir ki, xidmət, doğrudan da, böyük nailiyyətdir, ictimai xidmətlər sahəsində böyük dəyişikliklərə gətirib çıxarıb. Eyni zamanda, "ASAN xidmət" cəmiyyətimizin ictimai şüurunda da inqilabi dəyişikliklərə səbəb olubdur. Çünki ictimai xidmətlər sektoru həmişə çox problemli sektor idi və vətəndaşlar çox əziyyət çəkirdilər. Bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq xidmət sektorunun əsas problemləri idi. "ASAN xidmət"in fəaliyyətə başlamasından sonra artıq bu sahədə tam şəffaflıq təmin edilibdir.




Təsadüfi deyil ki, artıq 34 milyondan çox müraciət daxil olub və bu müraciətlər cavabsız qalmır. "ASAN xidmət" öz coğrafiyasını genişləndirir. Bu, sayca 16-cı mərkəzdir və artıq 4 mərkəzdə tamamlama işləri aparılır. Kürdəmir, Ağcabədi, Tovuz mərkəzləri artıq hazırdır, Balakən mərkəzi isə gələn il istifadəyə veriləcəkdir. Mənə verilən məlumata görə, Bakı mərkəzlərində, - baxmayaraq ki, Bakıda 5 mərkəz fəaliyyət göstərir, - artıq növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, Bakıda əlavə 2 mərkəz açılsın, eyni zamanda, Sumqayıt və Gəncə şəhərlərində ikinci mərkəzlər açılacaqdır. Artıq çoxdandır səyyar xidmət də göstərilir, 10-dan çox avtobus daim ölkəmizi dolaşır, "ASAN qatar" da fəaliyyət göstərir. Demək olar ki, ölkəmizin hər bir yeri belə gözəl xidmətlə əhatə olunub. Xidmətlərin sayı artır, artıq 320-dən çox xidmət göstərilir. ABAD Mərkəzlərinin fəaliyyətini nəzərə alsaq, artıq bu rəqəm 350-yə çatır. Bu da onu göstərir ki, biz son illərdə ASAN-ın funksiyalarını böyük dərəcədə genişləndirə bilmişik və buna ehtiyac var idi. Çünki "ASAN xidmət"də işlər yüksək dərəcədə düzgün qurulur. Problemli sahələrin bir çoxu da "ASAN xidmət"in əhatəsinə daxil edilib. Beləliklə, artan xidmətlər və xidmətlərin keyfiyyəti göstərir ki, biz düzgün yoldayıq. Çünki biz başlayanda xidmətlərin sayı təqribən 20-30 ətrafında idi.

ASAN bizim intellektual məhsulumuzdur. Mən çox şadam ki, Azərbaycan intellektual məhsul icad edir və bunu ixrac edir. İntellektual məhsulun, xidmətlərin ixracı hesab edirəm ki, bizim gələcək fəaliyyətimizdə çox böyük diqqətə layiq olmalıdır. "Bakutel" sərgisində də mənə edilən təqdimatlar göstərir ki, biz artıq xidmətləri, o cümlədən peyk xidmətlərini, innovasiyalarla bağlı olan xidmətləri ixrac edirik. "ASAN xidmət" mərkəzi artıq Əfqanıstanda fəaliyyət göstərir və bir neçə ölkə ilə bizim artıq anlaşma memorandumlarımız və sazişlər imzalanıbdır. ASAN dünyada öz fəaliyyətini genişləndirir və bizim gələcəkdə də bir çox ölkələrlə əməkdaşlığımız mümkündür. Əsas şərtimiz ondan ibarətdir ki, Azərbaycanda göstərilən xidmət orada da göstərilsin, çünki bu, bizim brendimizdir və mərkəzin adı da bütün ölkələrdə ASAN olmalıdır. Təsadüfi deyil ki, ASAN artıq beynəlxalq mükafatlara da layiq görülüb və Azərbaycanın həm intellektual brendidir, həm də bizim siyasətimizi, niyyətimizi əks etdirir. Çünki bizim siyasətimiz ondan ibarətdir ki, hər bir sahədə şəffaflıq, dürüstlük, mədəni xidmət olsun, pozuntulara yol verilməsin. Hesab edirəm ki, "ASAN xidmət" korrupsiyaya, rüşvətxorluğa qarşı ən səmərəli mexanizmlərdən biridir. Bu məsələlərlə bağlı köklü tədbirlər görülür. Azərbaycanda korrupsiyanı, rüşvətxorluğu aradan qaldırmaq, yaxud da ki, əhəmiyyətli dərəcədə azaltmaq üçün əməli tədbirlər görülür. Bu tədbirlər həm nəticə verir, həm də verəcək. Ona görə inzibati tədbirlərlə, cəza tədbirləri ilə yanaşı, institusional tədbirlər də görülməlidir ki, biz korrupsiyanın və rüşvətxorluğun əhatə dairəsini daraldaq və beləliklə, Azərbaycanı müasir, çox sürətli inkişaf yoluna gətirək. Biz buna nail oluruq.

"ASAN xidmət", eyni zamanda, bizim siyasətimizi göstərir ki, bu mərkəzlərdə işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Bu, həm gənclərimizin istedadını, biliklərini göstərir və həm də kadr hazırlığı üçün də çox önəmlidir. Çünki artıq minlərlə ASAN könüllü müxtəlif önəmli vəzifələrdə çalışır. "ASAN xidmət"lərdə təlim keçmiş, yaxud da ki, işləmiş gənclərimiz artıq həyata da vəsiqə alırlar, bilikli kadrlar kimi onlara inam artır və onları işə götürənlər əmin olurlar ki, dürüstlük, keyfiyyət, biliklər və mədəni xidmət olacaq. Onu da bildirməliyəm ki, könüllülər hərəkatı bizdə "ASAN xidmət"dən başlayıb. O vaxta qədər könüllülər hərəkatı yox idi. Bu gün minlərlə könüllü ölkəmizin müxtəlif sahələrində çalışır, işləyir, dövlətə xeyir gətirir. Bizim gənclərimiz məhz belə olmalıdır. Mən bu yaxınlarda Bakı Dövlət Universitetinin 100 illiyinə həsr edilmiş tədbirdə gənclərə öz sözlərimi dedim. Bilikli, savadlı, vətənə bağlı müasir gənclik Azərbaycanın dayanıqlı uğurunun təminatçısıdır. Gənclər biliklərlə yanaşı, vətənə bağlı olmalıdırlar, vətəni və dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar.

"ASAN xidmət", eyni zamanda, xidmət sektorunda yenilikdir. "ASAN xidmət" göstərdi ki, xidmət sektoru necə olmalıdır. Bax, bütün "ASAN xidmət" mərkəzlərinə gələn, müraciət edən vətəndaşlar sizi görürlər, gözəl gənclərimizi, gözəl mədəniyyəti, xoş münasibəti, gülər üzləri görürlər. Doğrudan da böyük sərvətdir və bunu biz özümüz yaratmışıq. Bir daha demək istəyirəm ki, bu, bizim milli brendimizdir və milli sərvətimizdir.

Ona görə ASAN mərkəzlərinin sayının artırılması ilə bağlı mənim tərəfimdən göstərişlər verilir. Eyni zamanda, ASAN mərkəzlərinin funksiyalarının genişləndirilməsi ilə əlaqədar "ASAN xidmət" və onun rəhbərliyi çox fəal işləyir. Hər bir mərkəzin açılışında mən hansısa bir yeniliklə rastlaşıram. Mənə edilən məruzələrdən görürəm ki, ildən-ilə yeni innovasiyaları hərəkətə gətirmək üçün imkan yaradılır və bu innovasiyalar da tətbiq ediləcəkdir. Bu gün mənə məruzə edilən məsələlərdən biri "smart city" layihəsidir. Biz mütləq buna keçməliyik. Artıq müvafiq göstərişlər verildi ki, Bakı şəhərində "smart city" sisteminin tətbiqi üçün əməli addımlar atılsın. O cümlədən digər şəhər və rayonlarımızda da bu istiqamətdə işlər görüləcəkdir.

Şadam ki, bu mərkəz Şamaxı şəhərində açılır. Şamaxı bizim qədim diyarımızdır, tarixi yerimizdir. Şamaxının çox zəngin tarixi, mədəniyyəti var. Şamaxının tarixi abidələri hər birimiz üçün çox əzizdir. Şadam ki, mənim göstərişimlə qədim Şamaxı Cümə məscidi əsaslı təmir olundu. Bu, Azərbaycanın ən qədim məscididir, müsəlman aləminin ən qədim məscidlərindən biridir. 743-cü ildə inşa edilmişdir. Biz Şamaxının tarixi simasını qorumaqla onu müasirləşdiririk. Bu yaxınlarda rayon icra hakimiyyətinə kifayət qədər böyük vəsait ayrıldı ki, infrastrukturla bağlı layihələr icra edilsin. Müasir sərnişin avtobusları, müasir təcili tibb yardımı maşınları, kommunal texnika gətiriləcək. Tapşırıq verilmişdir ki, Şamaxı şəhərinin bütün daxili yolları, kənd yolları əsaslı şəkildə təmir edilsin. Şəhərin içməli su problemi təxminən gələn ilin aprel-may aylarında həllini tapacaq və şamaxılılar təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin ediləcəklər. Şamaxı rayonunda qazlaşdırma 95 faizdir. Baxmayaraq ki, bir çox kəndlər bir-birindən aralıdır və dağ kəndləridir, amma biz qazlaşdırmanı 95 faizə çatdırmışıq. Elektrik enerjisi ilə heç bir problem yoxdur. Bakı-Şamaxı avtomobil yolunu mənim göstərişimlə dörd zolağa genişləndirdik və çox rahat yoldur. O yolun axırıncı hissəsi bu gün rəsmən açıldı. Həmçinin kənd yollarının tikintisi aparılır. Vaxtilə burada Müalicə-Diaqnostika Mərkəzi, Olimpiya Kompleksi inşa olunmuşdur. Şamaxı Rəsədxanası əsaslı təmir edilmişdir. Əlbəttə ki, həm respublika sakinləri, həm də qonaqlar üçün Şamaxı-Lahıc yolu nəinki əsaslı şəkildə təmir olundu, Şamaxı-Dəmirçi, Dəmirçi-Lahıc yolu yenidən çəkildi. Yəni indi Lahıca ən təhlükəsiz yol Şamaxıdan keçir. Biz indi Şamaxını müasir turizm mərkəzi kimi inkişaf etdiririk. Böyük üzüm bağları salınır, üzüm festivalı keçirilir, Şamaxı və Hacıqabul rayonlarının ərazisində ölkəmizin ən böyük aqroparkı salınır. O aqroparkın sahəsi 42 min hektardır və kənd təsərrüfatının inkişafına böyük dərəcədə təkan verəcəkdir. Şamaxı ənənəvi üzümçülük rayonudur. Üzümçülüyün ənənələri bərpa edilir, iş yerləri açılır, o cümlədən ödənişli ictimai işlər yaradılır. Şamaxı Azərbaycan xalqının böyük oğlu İmadəddin Nəsiminin vətənidir. Bilirsiniz ki, mənim sərəncamımla bu il "Nəsimi ili" elan edilibdir. Böyük Nəsiminin xatirəsinə hörmət və ehtiram əlaməti olaraq sabah bütün ölkəmizdə kütləvi ağacəkmə aksiyası keçiriləcək və bütövlükdə 650 min ağac əkiləcəkdir. Nəsimi festivalı ənənəvi xarakter alıbdır. Şamaxının çox qədim tarixi var və çox görkəmli nümayəndələri Azərbaycan xalqının şöhrətini yüksəklərə qaldırırlar.

Siz isə gəncsiniz, müstəqil həyata yenicə qədəm qoyursunuz. Şadam ki, sizin fəaliyyətiniz "ASAN xidmət" mərkəzində başlayır və əminəm ki, burada qazanacağınız təcrübə gələcək həyatınızda sizə kömək edəcək. Siz öz biliklərinizi, bacarığınızı ölkəmizin ümumi işinə bir töhfə kimi qoyacaqsınız. Sizi təbrik edirəm və uğurlar arzulayıram.

**Kompleksin əməkdaşı Jalə Hüseynova** dedi:

- Salam möhtərəm cənab Prezident. Sizi Şamaxıda görməyə çox şadıq. Mən hələ tələbə olarkən Bakı şəhərində "ASAN xidmət" mərkəzində könüllü kimi fəaliyyət göstərirdim. Fevral ayında Siz Gənclər Günü münasibətilə respublika gəncləri ilə görüşmüşdünüz. Həmin görüşdə mən də ASAN könüllüsü kimi iştirak edirdim. Siz həmin görüşdə Azərbaycan gənclərinə öz həyat yolunuzdan da misallar çəkərək tövsiyə vermişdiniz. Orada qeyd etmişdiniz ki, Azərbaycan uzun müddət əsarət altında olmasına baxmayaraq, bu gün müstəqildirsə, öz müstəqilliyini qoruya, inkişaf etdirə bilirsə, öz milli dəyərlərini qorumağa, dilinə sahib çıxmağa borcludur. Gənclərə məsləhət gördünüz ki, hər zaman vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz dillərini, dəyərlərini qorusunlar və hansı sahədə olmaqlarından asılı olmayaraq, öz işlərinin peşəkarı olsunlar.

Həmin görüş mənim həyatımın dönüş nöqtələrindən biri oldu. Mən də qərar verdim ki, bu yolda addımlamalıyam və dövlət qulluğuna hazırlaşdım. Mən çox şadam ki, fevral ayında Sizin qarşınızda könüllü kimi dayanmışdım, bu gün isə dövlət qulluqçusu kimi dayanıram.

Siz hər zaman bildirirsiniz ki, Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlət qulluqçuları hər zaman vətəndaşların xidmətində olmalıdırlar. Siz əmin ola bilərsiniz ki, Şamaxı regional "ASAN xidmət" mərkəzində biz bu prinsipləri hər zaman öndə saxlayacağıq. Şamaxıdan, ətraf rayonlardan bizdən xidmət almaq üçün gələn vətəndaşlar bunu hər zaman görəcəklər, dövlətin dəstəyini hər zaman hiss edəcəklər. Bizim üçün yaratdığınız şəraitə görə bütün gənclər adından Sizə öz təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ ol, təşəkkür edirəm. Sən buraya Bakıdan gəlmisən, yoxsa buralısan?

**Jalə Hüseynova:** Xeyr, mən Bakıdan gəlmişəm.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Burada işləyənlərin əksəriyyəti yəqin ki, Şamaxı rayonunun sakinləridir. Qonşu rayonlardan gələnlər var?

**Kompleksin əməkdaşı:** Bəli, mən İsmayıllıdanam.

**Prezident İlham Əliyev:** Çox gözəl. Sizi təbrik edirəm.

**Jalə Hüseynova:** Çox sağ olun, təşəkkür edirəm.

**Kompleksin əməkdaşı Toğrul Cəfərov:**

- Möhtərəm cənab Prezident, Sizi Şamaxı regional "ASAN xidmət" mərkəzində görməkdən çox qürur duyduq. Mən bugünə kimi ölkəmizdə keçirilən bir çox könüllülük fəaliyyətlərinə qoşulmuşam. İlk könüllülük fəaliyyətim "Bakı-2015" Avropa Oyunlarında oldu. Sonra "Bakı-2017" İslam Həmrəyliyi Oyunları, daha sonra üç il ardarda davam edən "Formula-1" yarışları, 2016-cı ildə təşkil olunan Şahmat Olimpiadasında könüllü kimi çıxış etdim. Ən sonda isə "ASAN xidmət" ailəsinin bir fərdi olaraq "ASAN xidmət" könüllüsü oldum. Mən, sadəcə, Sizə bildirmək istəyirdim ki, bizlər könüllü olan zaman bizim şəxsi inkişafımız üçün bir sıra təlimlərin, seminarların keçirilməsi, ən kiçik ehtiyacımızdan tutmuş ən böyük ehtiyaclarımıza kimi qarşılanması məhz Sizin biz gənclərə, biz könüllülərə göstərdiyiniz qayğı və diqqət nəticəsində olub. Mən bir gənc kimi hər zaman Sizin qayğınızı, diqqətinizi öz üzərimdə hiss etmişəm. Buna görə Sizə öz təşəkkürümü bildirirəm. Bir məqamı qeyd etmək istəyirəm ki, mən bir könüllünün uğuru olaraq bu gün Şamaxı regional "ASAN xidmət" mərkəzinin əməkdaşı kimi Sizin qarşınızda çıxış edirəm. Sonda demək istəyirəm ki, Siz çıxışlarınızın birində qeyd etmişdiniz ki, ölkəmizdə könüllülük fəaliyyəti var və bu könüllülük fəaliyyəti daim yaşayır. Biz də öz növbəmizdə Sizə söz vermək istəyirik ki, bu illər ərzində keçdiyimiz bütün təcrübələri, Sizin bizə olan qayğınızı, diqqətinizi Şamaxı gəncləri ilə bölüşəcəyik. Bu könüllülük fəaliyyətini daim yaşadacağıq.

Onu da demək istəyirəm ki, bu gün 5 dekabr - Beynəlxalq Könüllülər Günüdür. Burada gördüyünüz əksər əməkdaşların müəyyən vaxtlar ərzində könüllülük fəaliyyəti olub. Bu gün də bizim yanımızda olduğunuz üçün Sizə öz minnətdarlığımızı bildiririk. Diqqətiniz üçün çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən çox şadam ki, Azərbaycanda könüllü hərəkatı geniş vüsət alır. Bu, doğrudan da, onu göstərir ki, siyasətimiz həyatda öz əksini tapır. Bir daha təkrar etmək istəyirəm ki, könüllülər hərəkatı "ASAN xidmət"dən başlamışdır. Ondan sonra həmin "ASAN xidmət"də sənin kimi fəaliyyət göstərən gənclər mötəbər beynəlxalq idman yarışlarında da böyük işlər görmüşlər. Bilirsən ki, bütün oyunlarda iştirak etmiş könüllüləri mən şəxsi Fəxri diplomla təltif etmişəm. Çünki, doğrudan da, onların fəaliyyətini mən elə oyunlar gedən vaxt izləyirdim. Görürdüm ki, bizim gənclərimiz nə qədər böyük məhəbbətlə, peşəkarlıqla, nəzakətlə bütün qonaqlara xidmət göstərirlər, yol göstərirlər, kömək edirlər. Bilirsiniz, bu, artıq tərbiyədir. Bu proqramdan keçən gənclər artıq gələcək həyatda da belə olacaqlar. Xalqımıza xas olan, əsrlərboyu yaşatdığımız milli-mənəvi dəyərlər də bu prinsiplər üzərində qurulubdur. Mən bu barədə dəfələrlə demişəm ki, bizim gənclərimiz xalqımızın əsrlərboyu yaratdığı dəyərləri gələcəkdə qorumalıdırlar, necə ki, biz qoruyuruq. Məhz o təqdirdə biz öz milli mənliyimizi, ləyaqətimizi saxlaya bilərik, qoruya bilərik. Ona görə xalqımıza xas olan xüsusiyyətlər könüllülər hərəkatı ilə üst-üstə düşür. Artıq minlərlə, bəlkə də on minlərlə könüllümüz var. Mən onu da bildirməliyəm, nisbətən bu yaxınlarda göstəriş vermişdim ki, dövlət orqanlarında da könüllülər fəaliyyətə başlasın, oraya cəlb olunsunlar. Artıq nazirliklərdə, dövlət şirkətlərində könüllülər qrupları vardır. Özəl şirkətlər könüllüləri işə cəlb etməlidirlər. Çünki bu, həm onlara xeyir gətirəcək, həm ümumi işimizə töhfə verəcəkdir. Ona görə könüllülər qarşısında hesab edirəm ki, bütün imkanlar açıqdır. Sən könüllüdən artıq dövlət qulluqçusu statusuna yüksəlmisən və sənə bundan da uğurlu gələcək arzulayıram.

**Kompleksin əməkdaşı Ülkər Mahmudova:** Möhtərəm cənab Prezident, Sizi Şamaxıda görməyimizə çox şadıq. Bu yaxınlarda 100 illiyini qeyd etdiyimiz Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin məzunuyam. Öncə qeyd edim ki, biz şamaxılılar Sizin diqqət və qayğınızı həmişə hiss etmişik. Siz tez-tez bizim bölgəmizə səfər edirsiniz və daim bizim yanımızda olursunuz. Evlərimizin, məktəblərimizin vəziyyətini diqqətinizdə saxlayırsınız və onların yenilənməsinə bilavasitə özünüz nəzarət edirsiniz. Bildiyimiz kimi, bu ilin fevral ayında Şamaxıda zəlzələ baş vermişdir. Demək olar ki, elə həmin an Siz bizim yanımızda oldunuz. Bu, bir daha təsdiq etdi ki, Siz bizə - vətəndaşlarınıza nə qədər önəm verirsiniz. Sabah ağacəkmə aksiyası olacaq, Şamaxıda 45 minə yaxın ağac əkiləcək. Bu da o deməkdir ki, Şamaxının təbiəti daha da gözəlləşəcək. Bunlar hamısı Sizin sayənizdə baş verir. Ölkəmizin rəhbərliyinin yanımızda olduğunu hiss edirik. Buna görə Sizə dərin təşəkkürümüzü bildiririk və söz veririk ki, vətəndaşlarımızın xidmətində layiqincə dayanacağıq.

**Prezident İlham Əliyev:** Çox sağ ol. Mən, doğrudan da, Şamaxıda tez-tez oluram. Bir tərəfdən ona görə ki, Şamaxıya xüsusi diqqət göstərilir. Çünki bu, doğrudan da, bizim tarixi şəhərimizdir. Ta qədim xəritələrdə Şamaxının adı vardır. Ona görə bunu hər bir Azərbaycan vətəndaşı bilməlidir. Biz Şamaxının tarixini, mədəni irsimizi qorumalıyıq. Digər tərəfdən, son illərdə Şamaxıda bir çox açılışlar olub, mən burada bir çox obyektlərin fəaliyyətə başlamasını qeyd edirdim. Ona görə mən Prezident kimi Şamaxıda 12 dəfə olmuşam. Bu səfər 13-cüdür. Bu il isə 3-cü səfərdir. Birinci səfərlər zəlzələ ilə bağlı idi. Fevral ayında və ondan sonra birinci evlərin, o cümlədən Saray nənənin evinin yenidən tikilməsini qeyd etmək üçün gəlmişdim. Onu da bildirməliyəm ki, zəlzələdən əziyyət çəkmiş vətəndaşların problemləri daim diqqət mərkəzindədir. Mən bu işlə, demək olar ki, müntəzəm maraqlanıram. Bu gün yeni çoxmərtəbəli evin açılışını da qeyd edəcəyik. Əsas yükü təbii ki, dövlət öz üzərinə götürübdür. Amma mənim çağırışımdan sonra özəl sektor da bu işlərə qoşulub. Mən dedim ki, şamaxılıların, zəlzələdən əziyyət çəkmiş bütün vətəndaşların məişət problemləri həll olunmalıdır və həll olunur. Necə ki, İsmayıllı və Ağsu rayonlarında, orada da böyük tikinti işləri aparılır. Bu, bir daha bizim siyasətimizi göstərir. İndi təbii fəlakətlər hər bir ölkədə baş verir. Bu yaxınlarda biz televiziyadan gördük ki, Venesiya kimi tarixi şəhər su altında qalıb. Heç bir kanalizasiya sistemi o yağışların qabağında davam gətirə bilməyib.

*Ardı 3-cü səh.*

# İlham ƏLİYEV: "Biz Şamaxının tarixi simasını qorumaqla onu müasirləşdiririk"

## "ASAN xidmət" xarici ölkələrdə də böyük rəğbətlə qarşılanır

*Əvvəli 2-ci səh.*







Bu yaxınlarda bəzi Avropa ölkələrində böyük daşqınlar baş verib. Düzdür, bizdə də olur. İndi yağış yağanda, özü də leysan yağanda heç bir şəhərin kanalizasiya sistemi onu tam götürə bilməz. Baxmayaraq ki, biz çox çalışırıq və göstəriş verilib ki, yağışların, daşqınların fəsadları aradan qaldırılsın və amma hətta ən inkişaf etmiş ölkələrdə daşqın böyük problemlərə gətirib çıxarır, o cümlədən zəlzələlər. Bir neçə il ərzində bizdə həm daşqın olub, həm də şimal-qərb bölgəsində zəlzələ olub. Hər iki halda dövlət bütün xərcləri öz üzərinə götürüb. Bu da deyə bilərəm ki, nadir bir təcrübədir. Çünki inkişaf etmiş ölkələrdə bu, belə deyil. Orada vətəndaşların evləri sığortalanır və əgər ev hansısa səbəbə görə ziyan çəkibsə, vətəndaş sığorta şirkətinə müraciət edir. Ondan sonra təqribən bir neçə ay ərzində ona vəsait ödəniləcək, ödənilməyəcək hələ bəlli deyil. Bizdə isə belə deyil. Biz başa düşürük ki, bizim vətəndaşlar buna hələ ki öyrəşməyiblər. Evlərin bir çoxu sığortalanmayıb. Ona görə nə etməliyik? İmkan verə bilmərik ki, onlar küçədə qalsınlar. Ona görə dövlət bu işi öz üzərinə götürür. Əlbəttə, bu, böyük məsrəfdir, böyük xərclərdir. Amma biz xalq üçün yaşayırıq, dövlət xalqı qorumalıdır. Ən ağır vəziyyətdə olan vətəndaşları biz daim diqqət mərkəzində saxlamalıyıq. Şamaxı rayonunda baş vermiş zəlzələnin fəsadlarının bir hissəsi aradan qaldırılıb. Bu gün mənə növbəti addımlarla bağlı məruzə ediləcək. Zəlzələdən əziyyət çəkmiş yoldaşlar bilsinlər ki, biz onların yanındayıq. Necə ki, mən zəlzələdən dərhal sonra Şamaxıya gəldim. Bu gün də deməliyəm ki, bu məsələ daim diqqət mərkəzindədir. Təmirə, tikintiyə ehtiyacı olan axırıncı evə qədər bu, daim mənim diqqətimdə olacaqdır.

**Kompleksin əməkdaşı Səbinə Kərimova:** Möhtərəm cənab Prezident, Sizi salamlayırıq. Bizim üçün bu cür önəmli bir gündə yanımızda olduğunuz üçün Sizə təşəkkürümüzü bildiririk. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin məzunuyam. İxtisasıma uyğun olaraq özəl sektorda işləmişəm. Bu gün dövlət qulluqçusu olmağımda ən əsas motivasiyanı Sizdən almışam. Qeyd edim ki, Sizin tərəfinizdən daim müxtəlif sahələrdə islahatlar həyata keçirilir ki, bu da hər zaman izlənilir və diqqət mərkəzindədir. Sosial sahədə həyata keçirilən islahatlardan biri "ASAN xidmət" mərkəzinin yaradılması oldu. "ASAN xidmət" hazırda operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik və rahatlıq prinsipləri əsasında fəaliyyət göstərir və bu prinsiplərə sadiqdir. Qeyd etmək istəyirəm ki, bu prinsiplər məhz Sizin tərəfinizdən irəli sürülmüşdür. Bu prinsiplərə əməl olunduğuna görə də "ASAN xidmət" vətəndaşlar tərəfindən sevildi.

Möhtərəm Prezident, əmin ola bilərsiniz ki, biz gənclər daim Sizin siyasətinizi və islahatlarınızı dəstəkləyirik və daim Sizin yanınızdayıq. Qeyd etmək istəyirəm ki, son dövrlərdə hakimiyyətin hər üç qolunda apardığınız islahatlar, yəni, qanunvericilik, icra, məhkəmə sahələrində həyata keçirdiyiniz islahatlar həm gənclər tərəfindən, həm də bütövlükdə xalq tərəfindən çox böyük rəğbətlə qarşılandı. Xüsusilə də qeyd etmək istəyirəm ki, son dövrlərdə əksər rəhbər vəzifələrə gəncləri təyin edirsiniz. Bu da təbii ki, gəncləri dövlət qulluğunda çalışmağa ruhlandırır.

Möhtərəm Prezident, həm gənclər olaraq, həm də dövlət qulluqçuları olaraq Sizi əmin edirik ki, regional səviyyədə Sizin dövlət müstəvisində korrupsiyanın qarşısının alınması və şəffaflığın artırılması sahəsində apardığınız islahatlar vətəndaşlara aşılanacaqdır və bunun nəticəsində vətəndaşlar hiss edəcəklər ki, dövlət onların yanındadır və dövlət qulluqçuları onların xidmətindədir. Diqqətiniz üçün təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox sağ ol, sən çox önəmli məsələyə toxundun. Mən də bir-iki kəlmə demək istəyirəm. Bilirsiniz, korrupsiya və rüşvətxorluq bizə qalan mirasdır. Ona görə bundan canımızı qurtarmaq üçün, əlbəttə ki, həm maarifləndirmə işləri aparılmalıdır, düzgün siyasət aparılmalıdır və nəsillər dəyişməlidir. Mənim ümidim gənclərədir. Çünki gənclər yeni mühitdə, müstəqillik dövründə formalaşır. Əlbəttə, indi bizim dövrümüzdə də pozuntular, çatışmamazlıqlar var. Amma məsələ ondadır ki, biz bunlarla necə mübarizə aparırıq. Mən bir daha demək istəyirəm ki, biz bu mübarizədə təkcə inzibati, yaxud da ki, cəza tədbirləri ilə məqsədə müvəffəq ola bilmərik. Bütün bu tədbirlərlə yanaşı, institusional, sistem xarakterli islahatlar aparılmalıdır. İslahatların yeni dövrü keçən il prezident seçkilərindən sonra başlamışdır. Mən andiçmə mərasimindəki çıxışımda bizim əsas strateji inkişaf parametrlərini xalqın diqqətinə çatdırdım və hazırda biz ardıcıllıqla bu yolla gedirik. Baxın, Prezident Administrasiyası tamamilə yenidən formalaşıb, gənclər cəlb olunubdur. Nazirlər Kabineti yenidən formalaşıb, gənc nəsil cəlb olunur. İndi artıq növbədənkənar parlament seçkiləri elan olunub. Ümid edirəm ki, gənclər də bu seçkilərə çox fəal qoşulacaqlar. Çünki yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır. Eyni zamanda, mən onu da bildirməliyəm ki, biz nəsillər arasında ziddiyyətlərə yol verə bilmərik. Çünki bu, hər bir cəmiyyətdə var. Yaşlı nəsildən olan bir çoxları həmişə gənc nəsildən narazıdır. Ona görə biz bunu başa düşməliyik. Nəsillər arasındakı anlaşılmazlıq hər bir cəmiyyətdə var. Amma bizim cəmiyyət mühafizəkar cəmiyyətdir, konservativ cəmiyyətdir və ənənəvi dəyərlər üzərində qurulmuş cəmiyyətdir. Biz, əlbəttə, imkan verə bilmərik ki, bu təbii ziddiyyətlər hansısa böyük bir problemə çevrilsin. Ona görə mən demişəm və mən gəncləri işə fəal cəlb etməyə başlayanda, gördüm ki, yaşlı nəslə qarşı elə bil hansısa bir kampaniya aparılır. Onu da mən dayandırdım. Çünki yaşlıların təcrübəsi, gənclərin müasirliyi və bunun vəhdəti bizə xeyir gətirəcək. Siz və "ASAN xidmət"də çalışanların mütləq əksəriyyəti cavanlardır. Amma yaslı nəslə xidmət edirsiniz. Çünki bu xidməti almaq üçün daha çox yaşlı nəslin nümayəndələri gəlirlər. Bax, bu nəzakətli davranış, bu mehribanlıq, xoş sözlər bizim cəmiyyətimizi də saflaşdırır və irəliyə aparır. Ona görə bir daha sizi təbrik edirəm və sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

Görüşdən sonra xatirə şəkli çəkdirildi.

* * *

Daha sonra Prezident İlham Əliyev "ASAN Həyat" kompleksinin tərkibindəki "ABAD Food Hall"un fəaliyyəti ilə tanış oldu.

Dövlət başçısı burada yaradılmış iaşə mərkəzi və istirahət-əyləncə guşəsinə də baxdı.

## Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı şəhərinin mərkəzindəki Heydər Əliyev mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

AZƏRTAC xəbər verir ki, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov rayonda görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Dövlət başçısı müvafiq tapşırıqlarını verdi.

## Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır

Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov dövlət başçısına aparılan tikinti və təmir işləri barədə məlumat verdi.

Prezident İlham Əliyev Fərdar Həsənovun mənzilində yaradılan şəraitlə maraqlandı.

Dövlət başçısı çay süfrəsi arxasında Fərdar Həsənov və anası Xuraman Həsənova ilə söhbət etdi.

**Xuraman Həsənova:** Xoş gəlmisiniz. Allah ən arzuladığım günü mənə qismət edib.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Sizi təbrik edirəm. Yeni mənzilə köçmüsünüz.

**Xuraman Həsənova:** Sənə qurban olum, gözəl insan, gözəl ailə başçısı. Azərbaycanımızın fəxrisən. Bayrağımızı ucaldan, ölkəmizi hər cür təmin edən canına mən özüm qurban. Çox sağ olun. Allah Sizdən razı olsun. Mənim bir əhdim olub. Heç vaxt özümə heç nə arzu etməmişəm. Ancaq həyatda uşaqlar üçün arzulamışam.



Bu evlər belə olanda ancaq bir arzum olub, demişəm ki, ya Rəbbim, əgər mənə belə bir şey qismət olsa, Prezidentlə görüşüm olsun. Bugünkü gün Allah mənə onu qismət edib. Çox sağ olun. Allah Sizdən razı olsun. Sizə dəstək verənlərdən də Allah razı olsun, əziyyət çəkənlərdən də. Belə bir günü bizə qismət etmisiniz. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən bu il üçüncü dəfədir ki, Şamaxıdayam. Birinci dəfə o bədbəxt hadisə ilə əlaqədar gəlmişdim, fevral ayında, zəlzələ baş verəndən sonra. Müvafiq təlimatlar verildi. Bütün qüvvələr səfərbər olundu. İkinci dəfə mart ayında gəlmişdim. Artıq birinci evlərin tikintisini də qeyd etdik. Göstəriş verdim ki, maksimum çalışmalıyıq ilin sonuna qədər bütün evlər tikilsin. Şadam ki, buna nail olmuşuq. Bu da əslində misli görünməmiş məsələdir. Çünki 10 ay ərzində bütün fərdi evlər tikildi, təmir olundu. İndi düzdür, bəzilərinin tikintisi davam edir. Hündürmərtəbəli, 174 mənzilli üç bina, o cümlədən bu bina. Təkcə Şamaxı rayonunda yox, Ağsuda, İsmayıllıda da böyük işlər görülübdür. Bütün bunları biz dövlətin vəsaiti hesabına etdik. Bir daha göstərdik ki, Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır.

Biz evsiz-eşiksiz qalmış insanların problemlərini həll etməli idik, bu, bizim borcumuzdur. Amma onu da bildirməliyəm ki, inkişaf etmiş ölkələrdə belə deyil. Orada əgər zəlzələ, daşqın baş verirsə, evlər uçursa vətəndaş getməlidir sığorta şirkətinə, əgər evi sığortalayıbsa. Onda sığorta şirkəti baxır, ölçüb-biçir, vaxt gedir, vətəndaş isə haradasa yaşamalıdır. Bəzilərinin məsələsi heç həll olunmur. Amma bizdə belə deyil. Əvvəlki dövrdə də zəlzələ baş verən zaman eyni yanaşma olub, bu gün də belədir. Bu, dövlətimizin niyyətini, gücünü göstərir. Bir də onu göstərir ki, vətəndaşların problemləri diqqət mərkəzindədir. Bu ev yəqin ki, əvvəlki evdən də fərqlənir.

**Xuraman Həsənova:** Bəli, əlbəttə, çox fərqlənir. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Siz hansı şəraitdə yaşayırdınız.

**Fərdar Həsənov:** Acınacaqlı vəziyyətdə. Allah köməyiniz olsun.

*Ardı 4-cü səh.*

# İlham ƏLİYEV: “Biz Şamaxının tarixi simasını qorumaqla onu müasirləşdiririk”

## Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır





*Əvvəli 3-cü səh.*

**Xuraman Həsənova:** Allah Ulu Öndərimizə rəhmət eləsin, bizə Sizin kimi Prezident bəxş edib. Allah Zərifə xanıma da rəhmət eləsin. Mehriban xanımı təbrik edirəm, Rusiya Prezidenti Putinin ona verdiyi ordenə görə. O da gözəl insan, gözəl xanımdır, hamının qeydinə qalır. Bizim Prezidentimizdən heç bir yerdə yoxdur, bir dənədir, xanımı da, özü də. Allah övladlarının canını sağ eləsin, o bir oğlunu gözünə çıraq eləsin.

Mənim atam əsl şamaxılı olub, Rəcəb kişi. O, bizə zəlzələlərdən danışardı. O vaxt heç insanlar bir-birinə kömək də etmirdilər. Şamaxı dümdüz yer olub. Zəlzələlərdən sonra bu cür olub. Allaha şükür ki, Siz bu insanlara yardım edirsiniz, belə şərait yaradırsınız. Çox sağ olun, Allah Sizdən razı olsun. Ömrünüz uzun olsun, Sizə qurban olum. Mən bu sözləri bu evə görə demirəm. Siz gözəl insansınız. Belə Prezident heç bir yerdə yoxdur.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Şamaxı seysmik zonada yerləşir, ona görə burada zəlzələlər tez-tez baş verir, özü də dağıntılar törətmiş zəlzələlər. İnsanlar da həlak olmuşlar. Bu dəfə xoşbəxtlikdən heç bir bədbəxt hadisə baş verməmişdir, hər kəs sağ-salamatdır. Amma siz də qeyd etdiyiniz kimi, əvvəlki dövrlərdə bütün binalar uçub-dağılmışdı, təkcə məscid qalmışdı. Məscidi elə tikmişdilər ki, həm zəlzələ, həm erməni vandallığı heç bir təsir edə bilmədi. İndi mən dəfələrlə bütün mötəbər tədbirlərdə bu məscidin adını çəkirəm.

**Xuraman Həsənova:** Allah Ulu Öndərimizə qəni-qəni rəhmət eləsin, məscidləri insanlara qaytardı. Mənim rəhmətlik atam o məscidə görə Moskvaya kimi yazdı, şəkilləri çəkdi göndərdi ki, bu məscidi insanlara qaytarsınlar. Sonradan bu işlər görüldü, o görmədi, yaşlı adam idi, rəhmətə getdi. Allah ölənlərinizə rəhmət eləsin. Hər bir şey gözəldir.





**Prezident İlham Əliyev:** Biz onu yenidən qurduq. Bu gün bu, Azərbaycanın və müsəlman aləminin ən qədim məscidlərindən biridir. Mən şəxsən onun təmiri ilə məşğul oldum. Mehriban xanım da böyük əziyyət çəkmişdir. Xaricdən də qonaqlar dəvət olundu, onu böyük təntənə ilə açdıq. Şamaxıda zəlzələ tez-tez baş verir. Bu dəfə də bir çox, yəni, yüzlərlə evə ziyan dəymişdir.

**Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov:** Möhtərəm cənab Prezident, Şamaxı rayonu üzrə 580 fərdi ev, 44, 20 və 110 mənzildən ibarət hündürmərtəbəli üç bina tikilmişdir. Bundan başqa, çoxlu bərpa işləri də görülmüşdür. Təkcə Şamaxı rayonu üzrə 1175 evdə bərpa işləri aparılmışdır. Demək olar ki, yenidən tikilmiş evlərə bərabərdir.

**Prezident İlham Əliyev:** Şamaxı rayonunun kompleks inkişaf planı artıq təsdiqlənib. Mənim bir neçə sərəncamım olmuşdur, həm yolların tikintisi, həm də kommunal texnikanın alınması ilə bağlı. Burada qar yağanda bəzi yollar keçilməz olur. Ona görə kommunal texnika, müasir sərnişin avtobusları, müasir təcili tibbi yardım maşınları alınacaq. Ondan sonra dayanacaqlar, şəhər təsərrüfatı tamamilə yenilənəcək. İstəyirəm biləsiniz ki, təxminən 4-5 aydan sonra şəhərin su problemi də tamamilə öz həllini tapacaq. Şamaxıda su problemi artıq həll olunur.

**Xuraman Həsənova:** Bizdə su ilə bağlı çox narahatlıq olub, indi Allaha şükür ki, hər evdə su axır.

**Prezident İlham Əliyev:** Amma daha yaxşı olacaq.

**Xuraman Həsənova:** Qazımız, işığımız, hər bir şeyimiz var. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Şəhərdaxili yollara yenidən asfalt salınacaq. Şamaxı qədim tarixi yerdir. Qədim xəritələrdə Şamaxının adı var. Adı əsrlərboyu xəritələrdə öz əksini tapan şəhərlər o qədər də çox deyil. Şamaxı o şəhərlərdəndir, tarixi şəhərdir, Şirvanın mərkəzidir. Elə zəlzələdən sonra Şirvanşahlar buradan Bakıya köçüblər, Bakıda saray tikiblər. Amma onların yeri buradır. Nəsiminin vətəni buradır. Biz bunu, əlbəttə ki, qiymətləndirməliyik.

**Xuraman Həsənova:** Allah köməyiniz olsun. Deyir cənnət görmək istəyən Azərbaycana gəlsin. Yaxşı olacaq, inşallah. Turistlər gəlirlər, ölkəmizi bəyənirlər, hər şeydən razı gedirlər. Yeni məktəbləri, bağçaları, yolları görəndə adamın ürəyi açılır.

**Prezident İlham Əliyev:** Mən televizorda gördüm ki, uşaqlar narahatdırlar, deyirlər ki, bu məktəb başımıza uçur. Dərhal göstəriş verdim, komissiya göndərdim, Baş Naziri, sonra Prezident Administrasiyasının digər vəzifəli şəxslərini göndərdim, dedim gedin baxın nədir. Gəldilər, sonra qayıtdılar, mənə dedilər ki, bərpa ediləsi deyil, sökək. Sökdük, indi yenidən tikilir.

**Xuraman Həsənova:** Allah razı olsun, Sizin sayənizdə.

**Prezident İlham Əliyev:** Şamaxıya yeni icra başçısı təyin etmişəm, eşitmişəm ki, vətəndaşlar onu yaxşı qəbul edir, çox fəal işləyir. Biz gərək gənc kadrlara üstünlük verək. Bu gün “ASAN xidmət”in açılışında idim. İndi gedib baxarsınız, elə bil saraydır. Orada bütün xidmətlər avtomatik olacaq, daha o arayış sənin, bu arayış mənim yox. Gəldin, nömrəni götürdün, səni heç kim incitməyəcək. Bütün uşaqlar da gülərüzdür.

**Xuraman Həsənova:** Allah köməyiniz olsun. Allah Mehriban xanımdan da razı olsun.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizi bir daha təbrik edirəm. Burada xoşbəxt yaşayın.

**Xuraman Həsənova:** Çox sağ olun.

## Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 11,8 milyon (on bir milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2019-cu il*

## Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsinin və bu sahəyə özəl investisiyaların cəlb edilməsinin təşviqi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələri (külək və günəş) üzrə elektrik stansiyalarının tikintisi ilə bağlı pilot layihələrin (bundan sonra - layihələr) həyata keçirilməsi və icrasının əlaqələndirilməsi məqsədilə aşağıdakı tərkibdə komissiya yaradılsın:

**Komissiyanın sədri**

Azərbaycan Respublikasının Energetika naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası Maliyyə nazirinin müavini

Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti

“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri

1.2. Komissiyaya tapşırılsın:

1.2.1. layihələrin həyata keçirilməsi üçün torpaq sahələrinin ayrılması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2.2. investorlara verilməsi nəzərdə tutulan dövlət təminatlarına dair və bu Sərəncamın 1.2.3-cü yarımbəndində göstərilən müqavilələr üzrə investorlar qarşısında götürüləcək öhdəliklərin icrasına dövlət zəmanətinin verilməsi ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2.3. beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, elektrik enerjisinin satınalınması müqaviləsinin, elektrik stansiyalarının elektrik enerjisi şəbəkəsinə qoşulması müqaviləsinin, layihələrin icrası ilə bağlı dövlət zəmanəti müqaviləsinin və tələb olunan digər müqavilələrin dörd ay müddətində hazırlanmasını təmin etsin;

1.2.4. layihələrin müqavilələrdə nəzərdə tutulmuş müddətdə və şərtlər çərçivəsində icrasının təmin edilməsi üçün zəruri tədbirlər görsün;

1.2.5. layihələr üzrə elektrik stansiyasının elektrik enerjisi şəbəkəsinə qoşulması, bərpa olunan enerji mənbələrinin elektrik enerjisi şəbəkəsinə inteqrasiyası ilə əlaqədar şəbəkənin gücləndirilməsinə dair təkliflərini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

2.1. beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə maliyyə vəsaitinin ayrılmasını təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2019-cu il*

## Məhəmməd Hadinin 140 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair və publisist Məhəmməd Hadinin (Ağaməhəmməd Hacı Əbdülsəlim oğlunun) anadan olmasının 140 illiyi tamam olur.

Məhəmməd Hadi XX əsr Azərbaycan poeziyasında romantizmin ədəbi cərəyan kimi təşəkkülü və inkişafında mühüm xidmətlər göstərmişdir. Şərq bədii-estetik fikir tarixinin dərin bilicisi olan bu qüdrətli qələm sahibi bütün istedadını doğma vətəninin mədəni tərəqqisi uğrunda mübarizəyə həsr etmişdir. Şairin dövrün mürəkkəb sosial-siyasi mənzərəsini dolğun əks etdirən, ictimai həyat hadisələrini fəlsəfi mövqedən işıqlandıran və eyni zamanda, özünün bənzərsiz sənətkarlıq xüsusiyyətləri ilə seçilən, maarifçilik ideyaları ilə zəngin əsərlərində elmin və mədəniyyətin təbliği başlıca yer tuturdu. Xalqları oyanışa və istiqlaliyyət uğrunda mübarizəyə səsləyən Məhəmməd Hadi azadlığı cəmiyyətin və şəxsiyyətin həyatının mənası sayaraq onu daim romantik vüsətlə tərənnüm etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq böyük söz ustası Məhəmməd Hadinin anadan olmasının 140-cı ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, mütəfəkkir şair Məhəmməd Hadinin 140 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2019-cu il*

## Əlibaba Məmmədovun 90 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin fevral ayında Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Balaəhməd oğlu Məmmədovun anadan olmasının 90 illiyi tamam olur.

Dərin tarixi köklərə malik Azərbaycan xanəndəlik məktəbinin layiqli davamçısı kimi Əlibaba Məmmədov milli musiqi xəzinəsini daha da zənginləşdirmiş böyük sənətkardır. Klassik muğam irsinin saflığının qorunub saxlanmasını yaradıcılığının başlıca qayəsinə çevirən ustad xanəndənin repertuarındakı muğamlar ifaçılıq sənətinin kamil nümunələri səviyyəsinə yüksəlmiş və musiqi mədəniyyətimizin qızıl fonduna daxil olmuşdur. Özünəməxsus ifa üslubu, məlahətli səsi və yüksək səhnə mədəniyyəti Əlibaba Məmmədova xalqın sevgisini qazandırmışdır. Sənətkarın mahir ifaçısı olduğu rəngarəng muğam və təsniflərlə yanaşı, müəllifi olduğu mahnılar dinləyicilərin qəlbində silinməz izlər qoymuşdur. Muğamın tədrisi sahəsində uzun illər uğurla çalışan tanınmış pedaqoq Əlibaba Məmmədovun yaradıcılıq yolu gənc xanəndələr nəsli üçün bir sənət məktəbidir. Muğamla bağlı gerçəkləşdirilən müxtəlif layihələrdə daimi və səmərəli iştirakı onun muğam ifaçılığı ənənələrinin yaşadılması istiqamətində fəaliyyətinin mühüm mərhələsi hesab edilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğində xüsusi xidmətlər göstərmiş Əlibaba Məmmədovun anadan olmasının 90-cı ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Xalq artisti Əlibaba Məmmədovun 90 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2019-cu il*

# "Rossiya-24" telekanalı "Bakutel-2019" sərgisi ilə bağlı reportaj yayımlayıb

## Reportajda Prezident İlham Əliyevin müsahibəsi də yer alıb

Əvvəli 1-ci səh.

Məsələn, "Azərkosmos" və Rusiyanın peyk rabitəsi arasında əməkdaşlıq müqaviləsi imzalandı. Aleksandr Çernetsov razılaşmaların nədən ibarət olduğunu öyrənib.

**Müxbir:** Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel-2019" mahiyyətcə ən qabaqcıl İT texnologiyalarının nümayişi üçün arenadır. Hər il Bakıya, Azərbaycan paytaxtına dünyanın 50 ölkəsinin telekommunikasiya bazarının aparıcı oyunçuları gəlir. Bu il "Bakutel"də nəinki rekord sayda iştirakçı, həm də bağlanacaq müqavilələrin rekord sayı gözlənilir. Axı, bu gün Azərbaycan Xəzəryanı regionda İT texnologiyaları sahəsində aparıcı ölkədir.

Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi **Haulin Jaon** deyir:

- Təxminən 10 il əvvəl, Prezident İlham Əliyevlə görüşəndə o dedi ki, Azərbaycan neftlə zəngindir. Lakin biz anlayırdıq ki, bu ehtiyat gec-tez tükənəcək. Buna görə hələ o vaxt biz fikirləşdik ki, digər ehtiyat istiqamətlərini inkişaf etdirmək lazımdır. Təbii ki, bu mənada İKT - İnformasiya-Kommunikasiya Texnologiyaları sektoru ən mühüm idi.

**Müxbir:** "Bakutel-2019" yubiley sərgidir. Düz 25 il bu məkan həm aparıcı İT şirkətlərinə, həm də gənc tədqiqatçılara öz nailiyyətlərini göstərmək imkanı verir. Yeni iştirakçılar arasında İrandan olan qonaqlar var. Tərəfdaşlar kiber hücumlara qarşı İT sahəsindəki işlərini sərgidə təqdim edirlər. Digər iki qonşu stenddə isə jurnalistlərin videokameraları həqiqətən tarixi anı qeyd edir: "Azərkosmos" və Rusiyanın peyk rabitəsi ilk tərəfdaşlıq sazişini imzaladılar.

Rusiyanın "Federal Dövlət Unitar Müəssisəsi" şirkətinin biznesi inkişafı baş direktorunun müavini **Kseniya Drozdova** deyir:

- Kosmik imkanlarımızı birləşdirərək, biz Yaxın Şərq, Xəzər və Cənubi Afrika regionunda teleradio yayımları şirkətlərinə, rabitə operatorları şirkətlərinə daha geniş imkanlar təqdim etməyi nəzərdə tuturuq.

**Müxbir:** Yeri gəlmişkən, "Bakutel" təkcə biznes və strateji vəzifələr haqqında deyil. Bu, həm də əyləncədir.

Yəqin ki, bu sərginin istənilən qonağı özü üçün, öz maraqları üçün nəsə tapa bilər. Məsələn, bu "Formula-1"in maksimal olaraq reallığa yaxın bolididir. Bu, əlbəttə ki, virtual olaraq trasda özbaşınalıq etmək və özünüzü Alonso kimi hiss etmək üçün nadir imkandır.

Yaxud İT robotexnika. Məsələn, dünyaca məşhur robot - Almaniyadan olan rəssam, bu isə teatronikadır - tamaşaçıların sevimlisi pianoçu robot.

İnnovasiyalar Agentliyinin idarə heyətinin sədri **Tural Kərimli** deyir:

- Bilirsiniz, 30-cu ilədək artıq 54 peşə süni intellekt və robotexnika ilə əvəz olunacaq. Buna görə bizim üçün gənc nəslə yaxın gələcəkdə gözlənilənləri nümayiş etdirmək vacibdir.

**Müxbir:** Sərginin iştirakçılarını və qonaqlarını şəxsən salamlamaq üçün bu gün Prezident və birinci xanım da gəliblər. Kanalımıza eksklüziv müsahibədə söhbət, ilk növbədə, İlham Əliyevin fikrinə görə, bu gün ən yüksək səviyyədə olan Rusiya-Azərbaycan münasibətlərindən getdi.

**Prezident İlham Əliyev deyir:**

- Azərbaycan müasir texnologiyaların idxalçısı, daha artıq dərəcədə idxalçısı və istehlakçısıdır. Rusiya isə inkişaf etmiş elmi potensialı və Rusiya rəhbərliyinin bu sahəyə göstərdiyi böyük diqqət sayəsində istehsalçıya çevrilir. Buna görə də ölkələrimiz arasında dostluq münasibətlərini əsas götürərək bu istiqamətdə Rusiya qurumları ilə işləmək bizim üçün çox maraqlı olardı. Çünki heç kəs üçün sirr deyil ki, bu, həm təhlükəsizlik, həm texnologiya, həm də biznes deməkdir, ümumiyyətlə, bu, ölkələrin potensialı deməkdir.

**Müxbir:** Bu ilin sonunadək iki ölkənin prezidentləri növbəti dəfə Moskvada görüşəcəklər. Planda, həmçinin İT texnologiyaları sahəsində ikitərəfli münasibətlərə dair məsələlərin müzakirəsi var.

# Heydər Əliyev Fondu Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonuna görə xüsusi mükafata layiq görülüb





Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, mükafatı Moskva şəhərinin meri Sergey Sobyanin təqdim edib.

"Moskva restavrasiyası - 2019" mədəni irs obyektlərinin qorunması və təbliği sahəsində ən yaxşı layihə müsabiqəsi artıq 9-cu dəfədir keçirilir. Bu il təşkilatçıya 48 obyekt üzrə 96 ərizə daxil olub.

Qeyd edək ki, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonu 1939-cu ildə inşa olunub. Moskva hökuməti keçmiş sovet respublikalarına milli pavilyonların bərpası təklifini irəli sürdükdən sonra 2017-ci ildə pavilyon rəsmi olaraq Azərbaycan tərəfinə təhvil verilib və burada Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa işlərinə



başlanılıb. Noyabrın 23-də pavilyonun bərpa işlərindən sonra açılış mərasimi keçirilib.

Milli pavilyonumuzda bərpa işləri onun binasının tarixi görünüşü, memarlıq-etnik özünəməxsusluğu saxlanılmaqla həyata keçirilib. Azərbaycan və Rusiya tərəfindən peşəkar memar, bərpaçı-rəssamların iştirakı ilə həyata keçirilən işlər divarlar, mərmər döşəmə, tavan, pəncərə və qapılar, fənərlər və mərmər sütunlar, dekorativ elementlər və digər detallar daxil olmaqla eksteryer və interyeri, bütün sərgi zallarını əhatə edib.

Burada yeddi zalda xalqımızın qədim tarixini, mədəniyyətini, ənənələrini əks etdirən eksponatlarla yanaşı, müstəqil Azərbaycanın tarixi, ölkəmizin iqtisadi-siyasi, humanitar sahələrdəki nailiyyətləri, turizm potensialı barədə məlumatlar əldə etmək mümkündür.

Daimi ekspozisiya zalında milli musiqi, xalçaçılıq, sənətkarlıq nümunələri sərgilənir. Həmçinin pavilyonda Azərbaycanın məşhur rəssamlarının əsərləri təqdim edilir. Pavilyonun ekspozisiya zalında, eyni zamanda, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev, Azərbaycan-Rusiya əlaqələrinin genişlənməsində vacib rol oynamış ölkə ziyalıları barədə məlumatlar təqdim olunur. Burada ayrı-ayrı zallarda müxtəlif mövzularda mühazirə və konfransların keçirilməsi, musiqi proqramlarının, eləcə də turizm zonasında Azərbaycanın turizm imkanları barədə məlumatların təqdimatı nəzərdə tutulur.

"Ticarət evi" zonasında Azərbaycan istehsalı olan məhsullar təqdim edilir.

Kitabxana və oxu zalında müxtəlif kitablar, o cümlədən Heydər Əliyev Fondunun nəşrləri ilə tanış olmaq mümkündür.

# Azərbaycan ilə Pakistan arasında hərbi sahədə əməkdaşlıq uğurla inkişaf edir

Dekabrın 5-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov diplomatik fəaliyyəti başa çatan Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Said Xan Mohmand ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan ilə Pakistan arasında bütün sahələrdə olduğu kimi hərbi sahədə də əməkdaşlığın inkişaf etdiyini vurğulayan Müdafiə naziri bunun gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə edib.

Görüşdə hərbi əməkdaşlığın hər iki ölkənin maraqlarına cavab verdiyi əsas gətirilərək bu istiqamətdə səylərin daha da artırılmasının zəruriliyi vacib hesab edilib. Ölkələrimizin yerləşdiyi regionda baş verən son hadisələrin müzakirəsi zamanı Azərbaycan Ordusu ilə Pakistan Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin, o cümlədən xüsusi təyinatlı qüvvələrin cəlb edilməsi ilə birgə hərbi təlimlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə hərbi qulluqçuların qarşılıqlı səfərlərinin təşkili və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Pakistanın ölkəmizin ədalətli mövqeyini beynəlxalq təşkilatlarda dəstəklədiyinə görə minnətdarlığını bildirərək vurğulayıb ki, Azərbaycan da Pakistan İslam Respublikasının ərazi bütövlüyünü dəstəkləyir.

Ölkəmizdə diplomatik fəaliyyəti müddətində Azərbaycan-Pakistan arasında hərbi və hərbi-texniki sahələrdə əlaqələrin genişləndirilməsində göstərdiyi səylərə görə səfirə təşəkkürünü bildirən general-polkovnik Z.Həsənov ona gələcək işlərində də uğurlar arzulayıb.

Diplomat isə öz növbəsində ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycan dövlətinin və xalqının daim səmimi dostu olaraq qalacağını bildirib. Səfir qeyd edib ki, ölkələrimizin coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, xalqlarımız arasında tarixən dostluq münasibətləri mövcuddur. Müxtəlif sahələrdə münasibətlərin genişlənərək xeyli gücləndiyini qeyd edən pakistanlı səfir iki ölkənin hərbi sahədə əməkdaşlığının böyük potensialının olduğunu bildirib.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb, iki ölkə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu və tərəflər üçün qarşılıqlı faydalı olduğu vurğulanıb.

# Müdafiə naziri cəbhəboyu zonada artilleriyaçıların döyüş hazırlığını yoxlayıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhə bölgəsində olan Müdafiə Nazirliyinin rəhbərliyi artilleriyaçıların döyüş hazırlığını yoxlamaq məqsədilə ön xətdə yerləşən artilleriya hərbi hissəsində olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Raket və Artilleriya Qoşunları bölmələrinin şəxsi heyəti ilə görüşən nazirliyin rəhbərliyi vəziyyətlə yerində tanış olaraq onların döyüş hazırlığını, döyüş vəziyyətində tətbiqini, idarəetmə fəaliyyətini və şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini yoxlayıb, silahlanmada olan silah və texnikaya baxış keçirib.

Müdafiə naziri Raket və Artilleriya Qoşunlarının döyüşə hazırlıq səviyyəsinin daha da artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# Nazir Zakir Həsənov cəbhəboyu zonadakı hərbi hissələrdə aparılan tikinti işlərinin gedişi ilə tanış olub

Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığının icrası ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada tikintisi davam edən bir neçə hərbi obyektdə olublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Müdafiə nazirinə məruzə edilib ki, istifadəyə verilməsi planlaşdırılan bu hərbi şəhərciklər su, qaz, istilik və digər kommunikasiya sistemləri ilə tam təmin olunacaq, hərbi obyektlərdə ən müasir qurğular quraşdırılacaq.

Bildirilib ki, bu hərbi şəhərciklərdə qərargahlar, hərbi qulluqçular üçün xidməti mənzillər, əsgər yataqxanaları, yeməkxanalar, döyüş texnikası üçün saxlanclar, digər inzibati bina və qurğular inşa ediləcək. Eyni zamanda, burada hərbi polisin xidməti fəaliyyətinin təşkili üçün otaqlar, müvafiq məişət və ictimai iaşə obyektləri, o cümlədən qazanxana, hamam-camaşırxana kompleksləri, tibb məntəqələri və digər infrastruktur obyektlərinin tikilməsi də nəzərdə tutulub.

Hərbi obyektlərdə aparılan tikinti işlərinin gedişini yoxlayan Müdafiə naziri bu işlərin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# Bratislavada Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirlərinin görüşü keçirilib

Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə, ATƏT nazirlərinin Bratislavada keçirilən iclası çərçivəsində baş tutan və üç saat yarımdan çox davam edən görüşü zamanı tərəflər geniş müzakirələr apardılar.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Məlumatda qeyd olunur ki, görüşdə tərəflər münaqişənin həlli ilə bağlı mövcud vəziyyəti və onun gələcəkdə sülh yolu ilə həlli istiqamətləri ətrafında müzakirələr aparıblar. Nazirlər danışıqların davam etdirilməsi və gələn ilin əvvəllərində növbəti görüşün keçirilməsi barədə razılığa gəldilər.

# Daxili İşlər Nazirliyi ilə Kolumbiyanın Milli Polisi arasındakı əməkdaşlıq məsələləri müzakirə olunub

Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov dekabrın 5-də Kolumbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Luis Antonio Dimate Kardenas ilə görüşüb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir iki dövlət arasında siyasi, mədəni və humanitar sahələrdə əməkdaşlığın mövcudluğunu, qarşılıqlı səfərlərin bu əlaqələrin genişləndirilməsinə və inkişafına təkan verdiyini, beynəlxalq arenada Kolumbiya hökumətinin Azərbaycanın mövqeyini hər zaman dəstəklədiyini məmnunluqla diqqətə çatdırıb.

Daxili İşlər Nazirliyi ilə Kolumbiyanın Milli Polisi arasındakı əlaqələrdən söz açan general-polkovnik V.Eyvazov transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlığın yaradılması və təcrübə mübadiləsi məqsədilə bu ölkənin asayiş keşikçilərindən ibarət nümayəndə heyətinin dörd il öncə Azərbaycanda olduğunu, səfər çərçivəsində nümayəndə heyəti ilə DİN-də görüş keçirildiyini, onların "102" Zəng Mərkəzi Sistemi, "Təhlükəsiz Şəhər" Avtomatlaşdırılmış İdarəetmə Mərkəzi, habelə Əlahiddə Çevik Polis Alayının fəaliyyəti ilə yaxından tanış olduqlarını xatırladıb.



Problemlərə toxunularkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərinin, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin diqqət mərkəzində dayandığı və belə qlobal xarakterli təhlükəli cinayətlərlə səmərəli mübarizədə səylərin birləşdirilməsinin zəruriliyi nəzərə çatdırılıb.

Səfir Luis Antonio Dimate Kardenas paytaxt da daxil olmaqla ölkəmizin bütün bölgələrində yaradılmış təhlükəsiz və əmin-amanlıq şəraitindən məmnunluq duyduğunu, respublikamızdakı diplomatik fəaliyyəti dövründə ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verəcəyini bildirib.

# Əlahiddə Ümumqoşun Orduda mühəndis texnikalarının növbəti hissəsi silahlanmaya daxil edilib

Əlahiddə Ümumqoşun Orduda mühəndis təminatı işinin daha da yaxşılaşdırılması məqsədilə Türkiyə Respublikasının istehsalı olan mühəndis texnikalarının növbəti hissəsi silahlanmaya daxil edilib.

Ordunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Türkiyə Respublikasının HİDROMEK şirkətinin istehsalı olan təkərli və tırtıllı yükləyici, ekskavator və qreyderlər, eləcə də onların ehtiyat hissələri Naxçıvan Muxtar Respublikasına Araz çayı üzərindəki "Ümid" körpüsündən xüsusi daşıma vasitələri ilə gətirilib.

Mühəndis texnikalarının silahlanmaya daxil edilməsi münasibətilə Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində mərasim keçirilib.

Mərasimdə hərbi hissənin zabiti Ramil Dadaşov və HİDROMEK şirkətinin nümayəndəsi Murad Armağan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mövcud olan yüksəksəviyyəli hərbi əməkdaşlıqdan danışıblar. Bildirilib ki, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş"ə əsasən yeni texnikaların silahlanmaya qəbul edilməsi mühəndis təminatı bölmələrinin texniki imkanlarının Türkiyənin milli istehsalı olan texnikalarla gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.



Çıxışların ardından texnikaları gətirmiş heyətə Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən qiymətli hədiyyələr təqdim edilib.

Qeyd edək ki, qardaş Türkiyənin HİDROMEK şirkətinin mühəndisləri tərəfindən hazırlanmış təkərli və tırtıllı yükləyici, ekskavator və qreyderlər bir çox üstünlüklərə malikdir. 40 ildən artıq istehsal təcrübəsi olan HİDROMEK şirkətinin istehsal etdiyi mühəndis texnikaları davamlılığı, yanacağa qənaəti və rahatlığı ilə seçilir. Müasir dizayn və texnologiyalı HİDROMEK maşınları fərqli iş şəraitlərində operatorun rahat və təhlükəsiz işləməsini təmin edir.

Beynəlxalq nüfuzlu dizayn mükafatlarına layiq görülmüş HİDROMEK texnikaları inşaat maşınları bazarında özünəməxsusluğu ilə seçilir. Təkərli və tırtıllı ekskavatorlar ağır tikinti işlərində fasiləsiz işləyə bilir. Qabaqcıl texnologiya ilə istehsal olunan arxa yükləyicilər çətin şəraitdə ildə 2000 saatdan artıq istifadə üçün nəzərdə tutulub. Bu yükləyicilər geniş görüntü bucağı və operator üçün rahat iş mühiti ilə ən çətin şəraitdə belə görülən işi asanlaşdırır. HİDROMEK şirkətinin istehsal etdiyi qreyderlər qazma, kəsmə və kürümə ilə bərabər müxtəlif işlər üçün təyin olunub.

# ATƏT-in Minsk qrupuna daxil olan həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri bəyanat yayıblar

ATƏT-in Minsk qrupuna daxil olan həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ATƏT Nazirlər Şurasının 26-cı iclası ərəfəsində Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Bratislavada keçirilən görüşləri ilə bağlı birgə bəyanat yayıblar.

Nümayəndə heyətlərinin rəhbərləri təmas xətti və beynəlxalq sərhədlərdə güc tətbiqinin nisbətən azalmasını müsbət məqam kimi qəbul edərək, tərəflərin gərginlik riskinin qarşısını almaq üçün birbaşa kommunikasiya imkanından istifadə etmələrini yüksək qiymətləndiriblər. Onlar gərginliyin azaldılması və əhalinin sülhə hazırlanması üçün ötən il atılan konkret addımları alqışlayıblar.

Həmsədr ölkələrin təmsilçiləri münaqişə tərəflərinin Xarici İşlər nazirlərinin Minsk qrupunun himayəsi altında gələn ilin əvvəlində yenidən görüşə dair razılığa gəlmələrini yüksək qiymətləndiriblər.

Bəyanatda vurğulanıb ki, hazırkı status-kvo qəbuledilməzdir. Onlar tərəfləri şərtlər yaratmadan substantiv danışıqlar aparmağa çağırıblar.

Yekunda qeyd edilib ki, ATƏT-in Minsk qrupu formatı münaqişənin davamlı həlli üçün səylərlə bağlı imtinaedilməz format olaraq qalır.

# Elmar Məmmədyarov: “Azərbaycan ərazilərinin hərbi işğalı həll yolu deyil və heç vaxt Ermənistanın istədiyi siyasi nəticəni verməyəcək”



Slovakiyanın paytaxtı Bratislava şəhərində ATƏT Nazirlər Şurasının 26-cı iclası keçirilir. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov iclasda çıxış edib.

İclasın yüksək səviyyədə təşkilinə görə hazırda sədrliyi həyata keçirən Slovakiyanın Xarici İşlər naziri Miroslav Layçakı təbrik edən E.Məmmədyarov, həmçinin ATƏT-in sədrliyi vəzifələrini üzərinə götürən alban həmkarına da uğurlar arzulayıb.

Nazir, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasını ATƏT Nazirlər Toplantısına qonaq qismində dəvət etdiklərinə görə Slovakiya sədrliyinə minnətdarlıq edib, əminliklə bildirib ki, hərtərəfli regional əməkdaşlıq mexanizmi kimi Türk Şurasının ATƏT-in işində fəal iştirakı hər iki təşkilatın ortaq məqsədlərinə nail olmağa öz töhfəsini verəcək.

ATƏT-in fəaliyyəti ilə bağlı mühüm məsələlərə toxunan nazir qeyd edib ki, iştirakçı ölkələr kollektiv şəkildə etiraf etdilər ki, beynəlxalq hüquq normalarına və ATƏT-in norma və prinsiplərinə əməl olunmaması Ümum-Avropa təhlükəsizlik arxitekturasında davam edən böhranın birbaşa səbəblərinin arxasında dayanır. O deyib: “Bu xüsusda, mən fəaliyyətdə olan sədr Layçakın ATƏT-in prinsipləri və öhdəliklərinin yenidən müzakirələrə açıq olmadığı və ATƏT məkanı boyunca insanlar üçün sabitliyi möhkəmləndirmək və münaqişələrin qarşısını almaq istiqamətində işimizin əsasını təşkil etməkdə qalmalı olduğu barəsində müraciətinə qoşuluram. Helsinki Yekun Aktından başlayaraq ATƏT-in əsas sənədlərində təsbit olunmuş prinsiplərə şərtsiz hörmət heç bir istisna, ikili standart, coğrafi və ya digər imtiyazlar olmadan bərpa edilməlidir. Bu ikili standartlar mövcud olana qədər, ATƏT münaqişələrin qarşısının alınması və həlli üçün təsirli bir mexanizm olmaqdan uzaq qalacaq. Gələcək ATƏT sədrliyini ATƏT məkanında bütün silahlı münaqişələrə dair ATƏT prinsipləri və öhdəliklərini bərabər şəkildə tətbiq etmək üçün iştirakçı dövlətlərlə işləməyə çağırıram. Azərbaycan vasitəçilərdən münaqişənin həlli üçün əsas kimi bu məqsədə dəstək vermələrini və öz mandatlarına uyğun olaraq ciddi şəkildə fəaliyyət göstərmələrini gözləyir”.

Münaqişələrlə bağlı qeyd edilib ki, Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna ərazilərində həll olunmamış münaqişələr sülhə və təhlükəsizliyə ciddi təhlükə yaradır. Bütün bu münaqişələr, istisnasız olaraq müvafiq dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə tam hörmət əsasında, onların beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində, Helsinki Yekun Aktında təsbit edilmiş beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilməlidir. Təəssüf ki, Milanda keçirilən son Nazirlər toplantısından bəri, Şuraya Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində hər hansı bir konkret irəliləyiş barədə məlumat verə bilmirəm. Cəbhə xəttindəki nisbətən sakit vəziyyət, Minsk qrupu həmsədrlərinin özləri tərəfindən qeyri-sabit və qəbuledilməz adlandırılan işğala əsaslanan mövcud status-kvo vəziyyətinin hüdudlarından kənara çıxmağa imkan verə biləcək, münaqişənin həllində irəliləyiş yaratmadı.

Nazir qeyd edib ki, Azərbaycan ərazilərinin işğalı nəticəsində yüz minlərlə məcburi köçkün etnik təmizləmə siyasəti səbəbindən evlərindən didərgin düşüb. Bu xüsusda, Ermənistan tərəfindən girov götürülən və işgəncələrə və digər alçaldıcı rəftara məruz qalan Dilqəm Əsgərov və Şahbaz Quliyevin işini xüsusi qeyd etmək istərdim. Ermənistan, hətta “hamının hamıya” prinsipi əsasında da onları azad etməkdən inadla imtina edir. E.Məmmədyarov deyib: “Son bir ildə Ermənistan rəhbərliyinin təxribatçı bəyanat və hərəkətlərə əl ataraq sülh prosesini pozmaq üçün ardıcıl cəhdlərinin şahidi olduq. Ermənistanın baş nazirinin “Qarabağ Ermənistandır və nöqtə” kimi bəyanatı sülh yolu ilə həlletmə anlayışına ziddir və qəti şəkildə pislənilməlidir.

Ermənistanın birgə razılaşdırılmış ATƏT sənədləri ilə, xüsusən də ATƏM Şurasının 1992-ci il 24 mart tarixli Birinci Əlavə Yığıncağının Qərarı ilə əsası qoyulmuş danışıqların formatını dəyişdirmək cəhdi sülh prosesi üçün açıq təhdid olaraq qalır. Bu sənədlər birmənalı şəkildə göstərir ki, Ermənistan və Azərbaycan münaqişənin iki tərəfidir, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki azərbaycanlı və erməni icmaları isə iki maraqlı tərəfdir. Erməni icmasını “Dağlıq Qarabağ xalqı” kimi təqdim etmək cəhdləri bölgənin yerli azərbaycanlı icmasının mövcudluğunu inkar edir və onların bölgənin gələcəyi üzrə qərar qəbulu prosesinin tərkib hissəsi olmaq hüququnu şübhə altına alır. Belə bir mövqe etnik təmizləmənin nəticələrini qanuniləşdirmək məqsədi güdür və beynəlxalq insan hüquqları fəlsəfəsinə, - yəni bütün insan hüquqları universal, bölünməz, qarşılıqlıdır və heç kim başqalarının hüquq və azadlıqları hesabına fərdi və ya kollektiv hüquq tələb edə bilməz yanaşmasına, - açıq şəkildə ziddir”.

Qeyd edilib ki, Ermənistan işğal olunmuş torpaqlarda bu ərazilərin fiziki, mədəni və demoqrafik xarakterinin dəyişdirilməsinə yönəlmiş qeyri-qanuni iqtisadi və digər fəaliyyətlə məşğul olmağa davam edir. Qlobal Militarizasiya İndeksinə görə, Ermənistan ATƏT məkanında ən hərbiləşdirilmiş dövlətdir və dünya miqyasında üçüncü yeri tutur. Ermənistan Azərbaycan ərazilərini işğal altında saxlamaq üçün öz ÜDM-dən hərbi məqsədlər üçün ATƏT-in iştirakçı ölkələrinin hər hansı birindən daha çox pul xərcləyir. Onun Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz hərbi fəaliyyəti və hərbi quruculuğu münaqişənin həllinə maneədir və bölgədəki qeyri-sabitlik mənbəyi olaraq qalır.

“Son Nazirlər Şurasından bəri, biz yalnız iki həftə bundan öncə Ermənistan və Azərbaycandan olan jurnalistlərin qarşılıqlı səfərləri kimi, humanitar sahədə müəyyən tədbirləri razılaşdıra və həyata keçirə bildik. Bununla belə, siyasi proses durğunluq vəziyyətində qalarsa, bu cür addımlar heç bir nəticə verə bilməz. Onlar əsaslı danışıqlar prosesini əvəz edə bilməzlər.

Münaqişənin həllinə dair Azərbaycanın mövqeyi tutarlıdır və o, Nazirlər Şurasında iştirak edən dövlətlər arasında paylanan Memorandumda əksini tapmışdır (SEC.DEL / 575/19). Xatırladım ki, münaqişənin həlli prosesi mərhələli yanaşmaya əsaslanır. Bu yanaşmanın alternativi yoxdur, çünki bu, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və ATƏT-in qərarlarına, xüsusən münaqişənin siyasi həlli üçün yeganə hüquqi çərçivəni təşkil edən 1994-cü ildə Budapeşt Sammitinin qərarına əsaslanır.

İlk addım münaqişənin əsas nəticələrinin aradan qaldırılmasıdır, bununla da ilk növbədə, Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ regionundan və Azərbaycanın işğal edilmiş digər ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması təmin olunmalıdır. Ardınca məcburi köçkünlərin təhlükəsiz və ləyaqətlə öz evlərinə, mülklərinə, o cümlədən Dağlıq Qarabağ regionuna qayıtması, həmin ərazilərin qarşılıqlı istifadəsi, bərpası və iqtisadi inkişafı üçün regionda bütün kommunikasiyaların açılması təmin olunmalıdır.

Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılması, Azərbaycanın Konstitusiyasına və qanunvericiliyinə uyğun olaraq, Azərbaycanın daxilində Dağlıq Qarabağ bölgəsinin əhalisi üçün özünüidarəetmə statusu hazırlamaq və müəyyənləşdirmək üçün yaxşı bir fürsət təmin edəcək. Belə bir status bölgədəki erməni və azərbaycanlı icmalarının dinc yanaşı yaşamasını təmin etməli və hər kəsə bərabərhüquqlu və ayrı-seçkilik edilmədən insan hüquqlarının və əsas azadlıqların tam şəkildə həyata keçirilməsini təmin etməlidir.

Statusun müəyyən edilməsi hüquqi proses çərçivəsində dinc şəraitdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi əhalisinin, yəni erməni və azərbaycanlı icmalarının birbaşa, tam və bərabər iştirakı ilə və yalnız Azərbaycan Respublikası Konstitusiyası çərçivəsində Azərbaycan hökuməti ilə qarşılıqlı əlaqədə həyata keçirilməlidir.

Ermənistanın status məsələsini ön plana çıxarmaq üçün səy göstərməsi BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə qəbul edilmiş ATƏT-in qərarlarına ziddir və əslində sülh prosesinə və Minsk qrupu həmsədrlərinin mandatına zərbədir.

Münaqişənin həlli yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür. Azərbaycan ərazilərinin hərbi işğalı həll yolu deyil və heç vaxt Ermənistanın istədiyi siyasi nəticəni verməyəcək.

Azərbaycan bu məntiqi yanaşmaya əsaslanaraq münaqişənin həlli prosesinə sadiqdir”, - deyə nazir vurğulayıb.

# “Əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı: ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi” mövzusunda seminar keçirilib





Dekabrın 5-də Bakıda Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı ilə “Əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı: ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi” mövzusunda seminar işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov və ÜƏMT-nin Hüquq İnstitutunun nümayəndəsi xanım Nahal Zebarcadi açıb.

Kamran İmanov tədbirin mövzusunun aktuallığını qeyd edib, seminarın Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemindəki islahatları ilə bağlı olduğunu, bir tərəfdən dövlət başçısının məhkəmə-hüquq sistemində, digər tərəfdən isə əqli mülkiyyət (ƏM) sahəsində apardığı islahatların dəstəklənməsi məqsədini daşıdığını bildirib. O, müstəqil inkişaf yollarını daim arayan və buna nail olan Azərbaycanın bu gün ölkə rəhbərliyinin təşəbbüsü ilə başlanmış və müsbət inkişaf üçün bütün imkanları optimallaşdırmağa yönələn islahatların yeni mərhələsindən keçdiyini, cəmiyyətin həyatının bütün sahələrini əhatə etdiyini vurğulayıb.

Qeyd edilib ki, islahatçı ölkələrin avanqardına daxil olan Azərbaycan “Doing Business - 2020” hesabatında islahatçı 20 ölkə sırasına daxil edilib. Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətqabiliyyətlilik İndeksi - 2019” hesabatında Azərbaycan “qanunvericiliyin effektivliyi”nə görə 13-cü, “hökumətin dəyişikliklərə olan reaksiyası”na görə 5-ci və “hökumətin gələcəyə yönəlmiş fəaliyyətə, uzaqgörənliyə” görə isə 10-cu yerləri tutur.

Agentliyin rəhbəri bu cür kardinal dəyişikliklərin Azərbaycanın yeniləşməsinin növbəti, dördüncü sənaye inqilabının fəal iştirakçısı, sosial-iqtisadi islahatların reallaşdırılmasına malik olmasının, innovativ inkişaf yolunun tərkib hissəsi kimi əqli mülkiyyət sahəsinin inkişafında və əqli mülkiyyətin qorunmasında da öz əksini tapdığını bildirib. Belə ki, son “Rəqabətqabiliyyətlilik İndeksi”nə əsasən, Azərbaycan 141 ölkə arasında “mülkiyyət hüquqlarının qorunması” üzrə 37-ci və “əqli mülkiyyətin qorunması” göstəricisinə görə isə 30-cu yerdə qərarlaşıb. Burada diqqəti cəlb edən odur ki, 2015-2016-cı illərdən, yeni islahatların yeni mərhələsindən başlayaraq, bu göstərici ardıcıl olaraq yaxşılaşır. “Rəqabətqabiliyyətlilik İndeksi”ndə 92-ci yerdən 2016-2017-ci illərdə 71-ci, 2017-2018-ci illərdə 37-ci, sonra 36-cı və nəhayət 2019-cu ildə 30-cu yerdə qərarlaşıb.

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin islahatlarının dərinləşdirilməsinin qiymətləndirilməsidir, islahatların davamlılığına verilən beynəlxalq dəyərdir, bir tərəfdən dövlət başçımızın iqtisadi strategiyasının doğru yolda olmasıdır, digər tərəfdən institusional islahatların həyata keçirilməsinin nəticəsidir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov seminarın aktual mövzuya - əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı, ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsinə həsr olunduğunu söyləyib.

Gündüz Kərimov deyib: “Məhkəmə-hüquq islahatlarının vacib tərkib hissəsi olan ixtisaslaşdırılmış məhkəmələrin yaradılması, məhkəməyə müraciət hüquqlarının genişləndirilməsi, hüquq vasitələrinin təminatı, məhkəmə iştirakçılarının hüquqlarının genişləndirilməsi, qanunvericilik tərəfindən verilmiş hüquqlardan, o cümlədən sübutların təminatı, iddiaların təmin tədbirləri, ekspertiza keçirmək imkanları və digər vasitələr Azərbaycan Respublikası Prezidentinin “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanında qeyd olunub. Əqli mülkiyyət dünyada ən qiymətli dəyərdir. Çünki bu, insanın əqli nəticəsində yaranmış mülkiyyətdir. Dünyada mübahisələr, o cümlədən xüsusi hüquqda mübahisələrin bir çoxu mülkiyyətlə bağlı olub. Onun bir hissəsi isə əqli mülkiyyətlə bağlı olub. İqtisadiyyatın inkişafının təminatı, innovasiyaların cəlb edilməsi, innovativ inkişaf, dördüncü sənaye inqilabı, rəqabətqabiliyyətlilik anlayışları məhkəmə-hüquq islahatlarının məqsədlərindən biridir. Ölkədə investisiyanın təşviqi sahibkarların hüquqlarının müdafiələrinin genişləndirilməsi təminatına və məhkəmə prosesinin ədalətinə yönəlib. İqtisadiyyatın artımı, xarici investisiyaların təşviqi üçün məhkəmədə hüquqların təminatı ən vacib vasitələrdən biridir. İnnovasiya, əqli mülkiyyət iqtisadiyyatın vacib və tərkib hissəsi olduğuna görə mütləq sahibkar öz əqli mülkiyyətinin pozulması vasitələrini bilməlidir. Həmçinin onlardan əmin olmalı və məhkəmə vasitəsilə pozulmanın qarşısının alınması və vurulmuş zərərin ödənilməsinin təmin edilməsinə əmin olmalıdır. Məhz bu məqsədlə də dövlət başçısının tapşırığı ilə ölkədə bu sahədə aparılan islahatlarda iki paralel məhkəmə vasitəsi sistemi - kommersiya və inzibati məhkəmələr yaradılıb. Həm kommersiya, həm də inzibati məhkəmələr əqli mülkiyyət işlərinə baxmaq mandatına malik olacaq. Ona görə bu məhkəmələrdə ixtisaslaşmış hakimlərin olması çox vacibdir. Ölkədə bütün sahələrdə, o cümlədən məhkəmə sahəsində davamlı islahatlar aparılır”.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva bildirib ki, dövlət başçısının “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanının icrası ölkəmizdə insan hüquq və azadlıqlarının səmərəli təmin olunmasına mühüm töhfələr verəcək. Azərbaycan Respublikasının Konstitusiyasının 30-cu maddəsində təsbit edilən əqli mülkiyyət hüququnun ölkəmizdə təmin olunması məqsədilə həm qanunvericilikdə, həm də onların icrası istiqamətində mühüm işlər görülür. Əqli mülkiyyət hüququnun müdafiəsi, o cümlədən əqli mülkiyyət sahiblərinin hüquqlarının qorunması, hüquq pozuntularının qarşısının alınması ombudsman fəaliyyətində prioritet istiqamətdir. Çünki bu hüquqların pozulması əqli mülkiyyət sahiblərinin hüquqlarının pozulması ilə yanaşı, cəmiyyətin inkişafına da öz mənfi təsirini göstərir.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev qeyd edib ki, əqli mülkiyyət sahəsində Azərbaycan Respublikasının milli qanunvericiliyi özünün sistemli xarakteri ilə səciyyələnir. Ölkəmizdə əqli mülkiyyətin, yaradıcılıq məhsulunun konstitusional səviyyədə qorunması bu fikri bir daha təsdiqləyir. O qeyd edib ki, Azərbaycan bu sahədə mühüm beynəlxalq konvensiyaların iştirakçısıdır. Azərbaycan Respublikası Ümumdünya Əqli Mülkiyyət Təşkilatına üzv olmaqla bu təşkilatın əsas əqli mülkiyyət tələblərini milli hüquqa geniş şəkildə tətbiq edir. Beynəlxalq və milli səviyyədə əqli mülkiyyət sahəsi üzrə qanunvericilik normalarının əhəmiyyətli hissəsi bu istiqamətdə elmi tədqiqatların dərinləşməsinə, eyni zamanda, təhsilin və tədrisin sistemləşdirilməsinə təsir edir. Əqli mülkiyyət hüququ sahəsində təlim və tədrisin təşkili, elmi-praktik araşdırmaların aparılması üzrə bu tip öhdəliklər həm dövlət orqanları, həm də vətəndaş cəmiyyəti qurumlarının üzərinə qoyulub.

Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov bildirib ki, elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar əqli mülkiyyət məhsulları cəmiyyətin bütün sahələrində tətbiq olunur. Bu gün süni intellektin tətbiqi geniş yayılıb. O qeyd edib ki, ölkəmizdə bir neçə ildir elektron məhkəmə, elektron icra fəaliyyət göstərir. Prezident İlham Əliyevin “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” müvafiq Fərmanında da göstərilir ki, bu sahədə də elektron informasiya sistemi tətbiq olunmalıdır. Cəmiyyət yeni inkişaf mərhələsinə qədəm qoyub. Hüquq sahəsində aparılan islahatlar, məhkəmə sistemində çalışan hakimlərin bilik səviyyəsi bu inkişafın tələblərinə cavab verməlidir.

Daha sonra Kamran İmanov əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı sahəsində ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi, məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi haqqında geniş məruzə ilə çıxış edib.

Seminarda Haaqa Məhkəməsinin baş hakimi Edqer Brinkmanın “Əqli Mülkiyyət mübahisələri üzrə ixtisaslaşmış məhkəmə orqanlarının yeni formaları”, ÜƏMT-nin nümayəndəsi Nahal Zebarcadinin “ÜƏMT-nin fəaliyyəti və ÜƏMT-nin məhkəmələrlə işinin təşkili ilə tanışlıq” və “Beynəlxalq xüsusi hüquqda əqli mülkiyyət sahəsinə aid mübahisələr”, Apelyasiya Şurasının sədri Günel Sevdimalıyevanın “Azərbaycanda Əqli Mülkiyyət Agentliyinin Apelyasiya Şurasının və əlaqədar olan məhkəmə qərarlarının icmalı və beynəlxalq təcrübə”, Əqli Mülkiyyət Agentliyinin Hüquq, apelyasiya və daxili nəzarət şöbəsinin müdiri İqbal Əsgərovun “Əqli mülkiyyət hüquqlarının pozuntularına qarşı hüquqi müdafiə vasitələri”, Əqli Mülkiyyət Agentliyinin Hüquq, apelyasiya və daxili nəzarət şöbəsinin müdiri İqbal Əsgərovun “Əqli mülkiyyət hüquqlarının pozuntularına qarşı hüquqi müdafiə vasitələri” mövzularında məruzələri dinlənilib.

Seminar işini dekabrın 6-da davam etdirəcək.

## Azərbaycanın Xarici İşlər naziri Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in Bratislavada keçirilən 26-cı Nazirlər Şurası çərçivəsində Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə dair ətraflı fikir mübadiləsi aparıblar.

Nazir Elmar Məmmədyarov həmsöhbətini ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri arasında baş tutmuş son görüş barəsində məlumatlandırıb. O, münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq həll edilməsinin və bu xüsusda, Azərbaycanın işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin çıxardılmasının və azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına geri qayıtmasının vacibliyini vurğulayıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Müstəqil siyasət yürüdən Azərbaycanın sözü ilə əməli birdir

*Əvvəli 1-ci səh.*

Bunların arasında ən mühümü təbii ki, dövlətin yeritdiyi siyasətin məzmunu və mahiyyətidir. Çağdaş dövrümüzdə isə dövlətin nüfuzu ilə yanaşı, həm də ona göstərilən beynəlxalq etimadı da məhz bu səbəb meydana çıxarır. Bütün dövlətlər dünya birliyinin fəal subyekti olmaq istəyir, milli maraqlarına cavab verən siyasət həyata keçirməyə çalışır. Lakin reallıq ondan ibarətdir ki, hər dövlət bu kimi qlobal nüfuz qazandıran siyasi keyfiyyətlərə nail ola bilmir. Çox uzağa getmədən, elə Ermənistanın timsalında bunu görmək mümkündür. Hələ S.Sarkisyanın dövründə bu ölkə iqtisadiyyatın aparıcı sahələrinə görə kənar dövlətlərdən asılı vəziyyətə salınıb. Bölgədəki təcavüzkar siyasəti səbəbindən həm də siyasi sferada, o cümlədən xarici siyasətdə kənar diktələri qəbul etməyə məcbur olub. N.Paşinyanın baş nazirliyi dövründə ölkənin xarici siyasi müdaxilələrdən xilası üçün təşəbbüslər göstərilsə də, bu mümkün olmadı. Məhz işğalçı siyasəti, qonşulara qarşı sərsəm ərazi iddialarından əl çəkə bilməməsi səbəbindən bu ölkə yenə də vassal kimi qalmağı qəbul etdi.

Azərbaycan isə tamamilə fərqli siyasi və iqtisadi reallıqlar şəraitində inkişaf edir. Prezident İlham Əliyev tamamilə müstəqil, ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yürüdür. Elə bir beynəlxalq müzakirə mövzusu yoxdur ki, Azərbaycan həmin vaxt atdığı addımı hansısa dövlətin siyasi və ya iqtisadi maraqlarına uyğunlaşdırsın. Enerji məsələlərindən başlamış, xarici siyasi əməkdaşlığa, beynəlxalq təşkilatlarda iştiraka, qlobal terrorizmlə mübarizəyə qədər Azərbaycan tamamilə müstəqil siyasət həyata keçirir. Bəli, Azərbaycan o dövlətdir ki, Xəzərin karbohidrogen ehtiyatlarını ilk dəfə alternativ marşrutlarla dünya bazarlarına çıxarmağa müvəffəq oldu. Bu günlərdə TANAP kəmərinin Avropa ilə sərhəddə TAP kəmərinə birləşdirilməsi bu siyasətin növbəti təntənəsi oldu.

Rəsmi Bakı milli maraqlarına uyğun olmayan heç bir təşkilatın üzvü olmur. Amma başqa bir reallıq odur ki, Azərbaycan dünyanın müxtəlif qütblərində dayanan, beynəlxalq siyasi-hərbi arenalarda çəkisi ilə fərqlənən bütün dövlətlərdə qarşılıqlı və bərabərhüquqlu münasibətlərə malikdir. Rusiya, ABŞ, Çin kimi dövlətlərlə əlaqələr hər bir detalına qədər respublikamızın milli maraqlarını təmin etməklə formalaşıb. Bu siyasətin nəticəsidir ki, dünya birliyi Azərbaycana böyük hörmət və rəğbətlə yanaşır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi heç kim bizim işimizə müdaxilə edə bilməz: *“Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar yapışmır bizə”.*

## Unikal əməkdaşlıq məkanı

Bu siyasət sayəsində Azərbaycan ətrafında əlverişli xarici mühit formalaşdırılıb, xaricdən olan təzyiqlər, hədə və təhdidlər zərərsizləşdirilib. Respublikamız öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün unikal əməkdaşlıq məkanına çevrilib. Təkcə son aylarda baş verən bir neçə beynəlxalq siyasi hadisənin fonunda bunu görmək mümkündür. Məsələn, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə görüşü ölkəmizin beynəlxalq imicinə mühüm təsir göstərən bir tədbir oldu. Hərəkata üzv olduğu nisbətən qısa müddət ərzində Azərbaycan Respublikası özünün uğurlu xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb. Buna görə, 3 il əvvəl Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə qəbul olunan qərarla növbəti sammit Bakıda keçirildi. Ən mühümü odur ki, Azərbaycan həm də BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkətinin sədridir. Ölkəmizin bu missiyası 2022-ci ilə qədər davam edəcək.

Azərbaycanın nüfuz göstəricisi kimi başqa bir mühüm hadisə isə Bakıda Dünya dini liderlərinin II Sammitinin keçirilməsi oldu. Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində keçirilən sammitdə dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi iştirak etdi.

İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində Azərbaycan ötən 16 ildə həm NATO, həm də Rusiya ilə qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq əlaqələrini inkişaf etdirib. Üstəlik Azərbaycan Prezidentinin həm NATO üzvü olan dövlətlərin rəhbərləri, həm də Rusiya Prezidenti Vladimir Putinlə qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətləri var. İlham Əliyev Amerikada və Avropada etibarlı tərəfdaş, dünya səviyyəli siyasi lider kimi qəbul edilir. Bu mənada Rusiya və NATO arasında yüksək səviyyəli danışıqların aparılması üçün məkan olaraq Bakının seçilməsi Prezident İlham Əliyevə olan etimadın, eyni zamanda Azərbaycanın dünya miqyaslı nüfuzlu ölkə olmasının və ona böyük hörmətlə yanaşıldığının təzahürüdür.

Bu tədbirlərin hər biri respublikamıza beynəlxalq səviyyədə göstərilən ehtiramın ayrı-ayrı nümunələridir. Eyni zamanda bu cür hadisələr təsdiq edir ki, Azərbaycan dünya miqyasında önəmli, xüsusi çəkisi və yeri olan dövlətə çevrilmişdir. Bu gün ölkəmizi dünyanın bütün siyasi, hərbi, dini mərkəzlərində tanıyırlar və bilirlər ki, müstəqil siyasət yürüdən Azərbaycanın sözü ilə əməli birdir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Bakıda "Nəsimi 650: haqqın carçısı" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib



Dekabrın 5-də Bakıda "Nəsimi 650: haqqın carçısı" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti akademik İsa Həbibbəylinin moderatorluğu ilə tədbir Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə reallaşıb.

"Qurani-Kərim"in tilavəti ilə başlayan konfransda çıxış edən QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, 2019-cu ilin "Nəsimi ili" elan edilməsi Prezident İlham Əliyevin milli mədəniyyətimizə, xalqımızın tarixi dəyərlərinə göstərdiyi böyük diqqətin təzahürüdür. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Suriyaya səfəri zamanı Nəsiminin qəbrini ziyarət etdi. Bununla da Nəsimiyə və onun yaradıcılığına baxış dəyişdi. Nəsimi haqqında çoxlu əsərlər yazılıb. Lakin onun yaradıcılığının tədqiqi istiqamətində hələ də böyük işlər görülməlidir.

Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar dahi şair İmadəddin Nəsiminin yaradıcılığı ilə bağlı ətraflı məlumat verib. Bildirib ki, keçmiş Sovetlər İttifaqı dövründə Nəsiminin ateist kimi təqdim olunması tamamilə yanlış idi. Böyük şair öz əsərlərində dəfələrlə müsəlman olması ilə qürur duyduğunu dilə gətirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki Prezident İlham Əliyevin 2019-cu ili "Nəsimi ili" elan etməsi təkcə Nəsiminin deyil, eyni zamanda, digər böyük mütəfəkkirlərimizin də yaradıcılığının araşdırılması baxımından əhəmiyyətlidir. Bu gün biz tariximizə qayıdırıq. Bu, böyük bir qayıdışdır. Çünki uzun illər tariximizi araşdırmaq bizim öz əlimizdə olmayıb. Bu gün biz tariximizə yenidən baxır və böyük şəxsiyyətlərimizə lazım olan qiyməti veririk.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Prezident İlham Əliyevin müvafiq sərəncamının Nəsiminin yaradıcılığına yenidən baxılması istiqamətində böyük əhəmiyyət daşıdığını bildirib. V.Əliyev deyib ki, Nəsimi öz düşüncəsinə, əqidəsinə sadiq mütəfəkkir olub. Nəsimi gənclərimiz üçün böyük örnəkdir. Ulu Öndər Heydər Əliyev də böyük şairin yaradıcılığının araşdırılmasına xüsusi diqqət yetirirdi.

Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun əməkdaşı, "Nəsiminin şeirləri nə deyir?" kitabının müəllifi Vüsal Hətəmov, Tehran Ali məktəblərinin türk və fars dilləri üzrə müəllimi Hüseyn Məhəmmədzadə Sədiğ, Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun direktoru Möhsün Nağısoylu, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu və digər çıxış edənlər Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalan və bədii söz sənətinin son dərəcə qiymətli incilərini yaradan dahi mütəfəkkirin yaradıcılığının müxtəlif məqamlarına toxunublar. Bildirilib ki, Nəsimi sufilik cərəyanına yaxın olsa da, sonradan hürufiliyin aparıcı simalarından olub, hürufilik təlimini təbliğ etməkdən dönməyib.

# 200-dən artıq saziş, 5 "yol xəritəsi", 6,1 milyard dollarlıq sərmayə

*Əvvəli 1-ci səh.*

Birinci vitse-prezident Mehriban Əliyevanın noyabrın 20-25-də Rusiyaya rəsmi səfəri, keçirdiyi görüşlər və Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun bugünlərdə Azərbaycana gəlişi də çoxşaxəli münasibətlərin inkişafına böyük töhfə verdi.

## Rusiya hökuməti Mehriban xanım Əliyevanın təşəbbüslərini həyata keçirəcək

Bu səfərlər əlaqələrin daha da dərinləşməsinə yeni dinamizm verdi, desək yanılmarıq. Çünki Mehriban xanım Əliyevanın Rusiya-Azərbaycan münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərinə görə Prezident Putin tərəfindən "Dostluq" ordeni ilə təltif olunması, Baş Nazir Medvedevlə, Federasiya Şurasının sədri Matviyenko ilə görüşləri, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun çox mühüm açılış mərasimi, Regionlararası Forumda iştirakı yüksək qiymətləndirildi.

Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov Prezident İlham Əliyevlə görüşü zamanı da bu səfərin əhəmiyyətini dəyərləndirərkən dedi ki, Mehriban xanımın Rusiyaya səfərinin gedişində müzakirə edilən təşəbbüslər Rusiya hökuməti tərəfindən hökmən həyata keçiriləcək: "Bu təşəbbüslər, o cümlədən bizim hökumətlərarası iqtisadi əməkdaşlığımıza yeni bir mövzu - innovasiyalar və yüksək texnologiyalar mövzusu əlavə edilməsinə aiddir, xüsusi yol xəritəsi yaradılacaq. Artıq bir neçə gündən sonra Hökumətlərarası Komissiya bu sahədə işlərin vəziyyətini nəzərdən keçirəcək".

S.Lavrovun fikrincə, Birinci vitse-prezidentin Rusiyaya səfərinin daha bir maraqlı və çox vacib nəticəsi Rusiya-Azərbaycan Gənclər Forumunun daha müntəzəm keçirilməsi barədə razılaşma oldu. Bu, varislik baxımından, tarixi yaddaşın qorunub saxlanması və həm Rusiyada, həm də Azərbaycanda gənc nəslin münasibətlərə həmişə xas olmuş dostluq, mehriban qonşuluq ruhunda tərbiyəsi baxımından prinsipial əhəmiyyət kəsb edir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesinə gəlincə isə S.Lavrov dedi ki, ölkəsi bundan sonra da ortaq mövqelərin dəstəklənməsinə, Azərbaycan və Rusiya üçün xüsusi maraq doğuran mühüm məsələlərin həllinə kömək edəcək: "Bu, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına aiddir. Biz həm Vyana sammitində, həm sonradan nazirlərin Moskva görüşündə etimad tədbirləri, humanitar əlaqələrin, kütləvi informasiya vasitələri xətti ilə əlaqələrin nizamlanması barədə əldə edilmiş razılaşmaların bu il təsdiqlənməsində və həyata keçirilməsində maraqlıyıq. Onlar tədricən reallaşır və ümidvaram ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu həftə keçiriləcək görüşü bu prosesləri əlaqələndirməyə imkan verəcək".

S.Lavrov ölkəsinin münaqişənin dinc yolla nizama salınması üzrə vasitəçilik səylərinin davam etdirilməsini vacib hesab etdiyini və bu istiqamətdə fəal olmaq niyyətində olduğunu bildirdi.

## 200-dən çox dövlətlərarası və hökumətlərarası müqavilə

Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji olmaqla yanaşı, qarşılıqlı inama və etibara əsaslanır. Göründüyü kimi, bütün sahələr üzrə əlaqələr inkişaf etməkdədir. Son illər iqtisadi-ticari, humanitar əlaqələrin dərinləşdirilməsi üzrə çox böyük işlər görülüb.

Hazırda iki dost ölkə arasında 200-dən çox dövlətlərarası və hökumətlərarası müqavilə və saziş qüvvədədir. Ötən il isə 2024-cü ilədək olan dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə plan imzalanıb. Bu proqram sənədi özündə 5 "yol xəritəsi"ni ehtiva edir. Onlar ticarətin və qarşılıqlı sərmayələrin həcminin artırılmasına, nəqliyyat potensialının inkişafına, birgə müəssisələrin yaradılmasına, rəqəmsallaşma sahəsində, büdcə-vergi sektorunda təcrübə mübadiləsinə, həmçinin humanitar əlaqələrə istiqamətlənib.

Noyabrın 23-də Birinci vitse-prezident Mehriban Əliyeva Moskvada X Azərbaycan-Rusiya Regionlararası Forumundakı çıxışında regionlararası əməkdaşlığı ikitərəfli münasibətlərin mühüm tərkib hissəsi adlandıraraq Azərbaycanın Rusiya Federasiyasının 70-dən çox subyekti ilə iqtisadi əlaqə saxladığını vurğuladı.

Sevindirici haldır ki, son vaxtlar neft sektorunda ənənəvi qarşılıqlı fəaliyyətlə bərabər, qeyri-neft sektorunda, maşınqayırma, istehsal avadanlığı, kimya sənayesi, əczaçılıq, energetika, nəqliyyat kimi sahələrdə çoxsaylı müştərək layihələr inkişaf etdirilir.

Mehriban xanım Əliyeva konkret nümunələr kimi "SOCAR Polymer" müəssisəsinin, "Azərikimya" müəssisələrinin modernləşdirilməsi, "KamAZ" yük avtomobillərinin yığılması və istehsalı, "P-Farm" dərman preparatları zavodunun birinci növbəsinin tikintisini göstərdi.

## Yeni magistral yol, Samur çayı üzərindən birgə tikilən körpü

Tranzit-nəqliyyat sistemi də qarşılıqlı fəaliyyətdə çox mühüm və perspektivli istiqamətdir. Burada Qərbi Avropa bazarlarını asiyalı istehlakçılarla birləşdirəcək "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin yaradılması ən mühüm müştərək layihələrdən biridir.

Mehriban xanım vurğuladı: "Nəqliyyat-tranzit sahəsi bizim əməkdaşlığımızın mühüm istiqamətlərindən biridir. "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" layihəsi bu sahədə mühüm layihədir. Həmin layihənin həyata keçirilməsi nəticəsində ötən il bu marşrut üzrə tranzit daşımalarının həcmi 8 dəfə, bu ilin birinci yarısında isə 60 faizdən çox artıb. 2020-ci ildə yeni Bakı-Rusiya Federasiyası sərhədi avtomagistralının tikintisinin başa çatdırılması, habelə Samur çayı üzərindən avtomobil körpüsünün birgə tikintisi planlaşdırılır. "Şimal-Qərb beynəlxalq nəqliyyat dəhlizi" də uğurla fəaliyyətə başlayıb".

Birinci vitse-prezident diqqətə çatdırdı ki, bu layihənin reallaşdırılması başlayandan bəri ötən il uzunluğu yeddi min kilometrdən çox olan bu marşrut üzrə yükdaşımaların həcmi səkkiz dəfə, bu ilin altı ayı ərzində isə 60 faiz artıb. Gələn il həmin layihə çərçivəsində Bakıdan Rusiya Federasiyası ilə sərhədə qədər yeni dördzolaqlı magistral yol istifadəyə veriləcək. Bu ilin sonuna qədər sərhədyanı Samur çayı üzərindən birgə tikilən körpünün inşası başa çatacaq və o, istifadəyə veriləcək.

## Rusiya kapitallı 700-ə yaxın müəssisə, 3 milyard dollarlıq ticarət dövriyyəsi

Göründüyü kimi, Azərbaycan Rusiyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Ölkəmizin Rusiyaya qoyduğu investisiya 1,2 milyard dolları keçib, Rusiya isə Azərbaycana 4,9 milyard dollar investisiya yatırıb.

Ticarət dövriyyəsinin həcmi 3 milyard dollara yaxındır. Rusiya Federasiyasının ölkəmizin iqtisadiyyatına birbaşa investisiyalarının həcmi 1,5 milyard dollar olub. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın müəssisə qeydə alınıb. Rusiyada da Azərbaycan kapitalı öz mövqelərini getdikcə möhkəmlədir.

Rusiya Federasiyası ölkəmizdən ixrac edilən kənd təsərrüfatı məhsullarının əsas istehlakçısıdır. Azərbaycan da öz növbəsində, Rusiyadan kənd təsərrüfatı texnikası və mineral gübrələr alır. Yaxın gələcəkdə 2020-2022-ci illər üçün aqrar sənaye kompleksində əməkdaşlıq proqramının imzalanması planlaşdırılır.

Turizm sahəsində əməkdaşlıq da dinamik şəkildə inkişaf edir. 2018-ci ildə Azərbaycana səfər etmiş rusiyalıların sayı 900 minə yaxın olub. Azərbaycana gələn turistlərin sayına görə Rusiya birinci yeri tutur. Azərbaycan da öz növbəsində, Rusiyanın Şimali Qafqaz regionunun turizm infrastrukturu üçün əsas investorlardan biridir.

Son illərdə humanitar əməkdaşlıq da əhəmiyyətli dərəcədə fəallaşıb. Ölkəmizin 338 məktəbində tədris rus dilində aparılır, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi üzrə pilot layihəsi həyata keçirilir, Azərbaycanın 14 dövlət ali məktəbində rus bölmələri var. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır.

## Əməkdaşlığın daha da genişləndirilməsi üçün potensial imkanlar mövcuddur

Göründüyü kimi, iki ölkə arasındakı çoxtərəfli əməkdaşlıq getdikcə inkişaf edir, daha da dərinləşir. Mehriban xanım Əliyeva da bu əməkdaşlığın daha da genişləndirilməsi üçün potensial imkanların olduğunu deyərək əminliklə vurğuladı ki, birgə əməkdaşlıqla yeni qarşılıqlı faydalı layihələr reallaşacaq. Bu, iki ölkə arasında dostluq münasibətlərinin və strateji tərəfdaşlığın ruhuna uyğundur. Çünki münasibətlər əsl tərəfdaşlıq və qarşılıqlı faydalı xarakter daşıyır, mehriban qonşuluq, bir-birinin maraqlarına hörmət prinsiplərinə əsaslanır.

Əminliklə demək olar ki, cənab İlham Əliyevlə Vladimir Putinin siyasi iradəsi, liderlər arasında etimada əsaslanan dostluq münasibətləri sayəsində iki ölkə arasında əlaqələr durmadan inkişaf edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Vacib seçki sənədi

## Seçici siyahıları ilə iş seçki prosesinin mühüm mərhələsidir

Vətəndaşların seçki hüquqlarının təmin olunması üçün seçici siyahıları vacib əhəmiyyət kəsb edən əsas sənədlərdəndir. Məlumdur ki, istər Azərbaycan Respublikasının Konstitusiyası, istərsə də seçki qanunvericiliyi ilə aktiv və passiv seçki hüququ subyektlərinə münasibətdə geniş hüquqlar nəzərdə tutulur. Bu hüquqların reallaşdırılmasının ən ilkin mərhələsi məhz seçici siyahılarının tərtib olunması mərhələsidir. Seçki Məcəlləsində seçici siyahılarının tərtibi və həmin siyahılar üzərində müvafiq işlərin aparılması ilə əlaqədar geniş normaların təsbit edilməsi seçicilərin seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqlarının həyata keçirilməsində bir bünövrə rolunu oynayır desək, yanılmarıq.



Beləliklə, biz bir daha seçici siyahılarının nə qədər vacib olduğunun fərqinə varırıq.

Seçici siyahıları müvafiq seçki dairəsinin seçki məntəqəsi ərazisində yaşayan və aktiv seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşlarının siyahılarıdır. Seçki komissiyaları tərəfindən seçici siyahılarının tərtib edilməsi, dəqiqiləşdirilməsi və ictimailəşdirilməsi Azərbaycan Respublikası Seçki Məcəlləsinin 45 və 48-ci maddələri, həmçinin Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi "Seçki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında" Təlimatla tənzimlənir. Seçici siyahıları rəsmi seçki sənədlərindən biri sayılır, daimi və müvəqqəti seçici siyahıları formasında tərtib olunur.

Seçki Məcəlləsində seçici siyahılarına məlumatların daxil edilməsi ilə əlaqədar mənbələr çox dəqiqliklə müəyyən edilib. Məhz bunun sayəsində ölkəmizdə keçirilən seçkilərdə istər beynəlxalq, istərsə də yerli müşahidəçilər və mütəxəssislər tərəfindən seçici siyahıları ilə bağlı çox müsbət rəylər bildirilir.

Seçki Məcəlləsinin 46-cı maddəsində göstərilir ki, daimi seçici siyahısına müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumları başçılarının, hərbi hissələrin komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar daxil edilir. Seçicilərin daimi siyahısı seçki məntəqəsi üzrə məntəqə seçki komissiyası tərəfindən hər il mayın 30-dək təsdiq edilir və səsvermə gününə azı 25 gün qalmış dəqiqləşdirilir. Göründüyü kimi, qanunda seçici siyahılarının tək tərtibindən söhbət getmir, həmçinin dəqiqləşmənin aparılması da müəyyən olunur. Məhz qanunun verdiyi bu imkan sayəsində seçki komissiyaları tərəfindən müəyyən olunmuş müddətdə belə dəqiqləşmələrin aparılması seçicinin seçiçi siyahısından kənarda qalması halını minimuma endirir.

Seçki qanunvericiliyi səsvermə günü bu və ya digər səbəblərdən daimi seçici siyahıları üzrə səsvermə imkanı olmayan seçicilərə münasibətdə onların öz hüquqlarını reallaşdırmaları üçün də imkanlar yaradır. Bu halda seçicilər müvəqqəti seçici siyahıları vasitəsilə səsvermə hüquqlarından istifadə edirlər. Müvəqqəti seçici siyahısına konsul idarələri rəhbərlərinin və ya diplomatik nümayəndəliklərin, habelə seçicilərin müvəqqəti olduqları müəssisələrin rəhbərlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar daxil edilir. Vahid seçicilər siyahısı seçki məntəqələri, seçki dairələri və bütövlükdə Azərbaycan Respublikası üzrə Mərkəzi Seçki Komissiyası tərəfindən aparılır. Müvəqqəti seçici siyahıları vahid seçicilər siyahısına əlavə edilir.

Hər bir vətəndaşın sorğusuna əsasən müvafiq seçki komissiyası onun seçicilər siyahısına daxil olub-olmaması haqqında məlumat verməlidir.

Səsvermə gününə 25 gün qalmışdan səsvermə gününədək seçici siyahısına seçici Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada yalnız məntəqə seçki komissiyası tərəfindən əlavə edilə bilər. Səsvermə günü qeydiyyatdan çıxma vəsiqəsi ilə səs verən seçicilərin vəsiqələri seçicilər siyahısına əlavə edilir. Səsvermə günü seçicilər siyahısına heç bir əlavə və dəyişiklik edilə bilməz. Seçici siyahıları mətbuatda dərc edilə bilməz. Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada seçici siyahıları Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilir.

Seçici siyahıları 2 nüsxədə tərtib edilir. Seçici siyahısına daxil edilmiş seçicilər haqqında məlumatlar siyahıda əlifba qaydasında və ya yaşayış məntəqələri, küçələr, evlər, mənzillər üzrə yerləşdirilir. Siyahılarda seçicinin soyadı, adı, atasının adı, doğulduğu il (18 yaşı tamam olmuşlar üçün ay və gün), daimi yaşadığı yerin ünvanı və seçki məntəqəsinin nömrəsi göstərilir. Seçki məntəqəsi üzrə tərtib olunmuş ilkin seçici siyahılarının birinci nüsxəsi müvafiq akt tərtib edilməklə məntəqə seçki komissiyasında saxlanılır, ikinci nüsxəsi isə hər il fevralın 5-dən gec olmayaraq, lakin səsvermə gününə azı 25 gün qalmış dairə seçki komissiyasına verilir. Seçki məntəqələri üzrə seçici siyahıları məntəqə seçki komissiyasının sədri və katibləri tərəfindən imzalanır və komissiyanın möhürü ilə təsdiq edilir.

Seçki dairəsi üzrə tərtib olunmuş ilkin seçici siyahıları hər il martın 5-dən gec olmayaraq iki nüsxədə tərtib edilir, dairə seçki komissiyasının sədri və katibləri tərəfindən imzalanır, komissiyanın möhürü ilə təsdiqlənir və aprelin 5-dək Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Mərkəzi Seçki Komissiyası seçici siyahılarında uyğunsuzluqlar aşkar etdikdə, onlara düzəlişlər olunur və sonradan mayın 25-dək məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq edilir.

Hərbi hissələrin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin siyahıları hərbi hissə komandirlərinin, istintaq təcridxanaları və cəzaçəkmə müəssisələri rəhbərlərinin seçicilər haqqında məlumatı əsasında səsvermə gününə azı 20 gün qalmış məntəqə seçki komissiyaları tərəfindən dəqiqləşdirilir.

Hərbi hissədə seçki məntəqəsi yaradılmayıbsa, hərbi hissənin komandiri, istintaq təcridxanalarının rəhbərləri və müvafiq cəzaçəkmə müəssisələrinin rəhbərləri Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi qaydada seçicilər haqqında məlumatları toplayıb dəqiqləşdirir və səsvermə gününə azı 35 gün qalmış müvafiq məntəqə seçki komissiyalarına təqdim edirlər. İstintaq zamanı barələrində həbs qəti imkan tədbiri seçilən və inzibati qaydada saxlanılan vətəndaşlar məntəqə seçki komissiyaları tərəfindən ayrıca seçici siyahılarına daxil edilirlər. Bu cür məlumatlar səsvermə gününə ən azı 2 gün qalmış vətəndaşın həbsi haqqında qərar çıxarmış müvafiq məhkəmələr və ya vətəndaşın inzibati qaydada saxlanılması haqqında qərar qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı tərəfindən məntəqə seçki komissiyalarına təqdim edilir. Həmin məlumatda şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin tam göstəriciləri əks edilməlidir.

Xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində səsvermə günü üzən gəmilərdə yaradılmış seçki məntəqələri üzrə seçici siyahıları seçicinin müvəqqəti olduğu müəssisənin rəhbərinin, gəmi kapitanının seçicilər haqqında təqdim etdiyi və məntəqə seçki komissiyasında yoxlanılmış məlumatlar əsasında məntəqə seçki komissiyası tərəfindən səsvermə gününə azı 5 gün qalmış təsdiq edilir.

Yolu çətin və ya ucqar yerlərdə yaradılan seçki məntəqələri üzrə seçici siyahıları məntəqə seçki komissiyaları tərəfindən müvafiq icra hakimiyyəti orqanı və bələdiyyə qurumu başçılarının seçicilər haqqında verdikləri məlumatlar əsasında səsvermə gününə ən azı 25 gün qalmış, müstəsna hallarda isə məntəqə seçki komissiyasının yaradılmasından 2 gün sonra dəqiqləşdirilir.

Vətəndaşların daimi seçici siyahılarına daxil edilməsinin və çıxarılmasının əsasları ilə bağlı qeyd etmək lazımdır ki, aktiv seçki hüququna malik olan Azərbaycan Respublikasının vətəndaşları seçici siyahılarına qeydiyyatda olduğu yer üzrə və ya müvafiq seçki məntəqəsi ərazisində seçkilərin elan olunması günündən əvvəlki 12 ayın 6 ayı ərzində seçki məntəqəsinin ərazisində yaşaması faktı əsasında daxil edilir. Seçici yalnız bir seçki məntəqəsi üzrə seçici siyahısına daxil edilə bilər. Seçki komissiyası seçicinin birdən çox məntəqədə seçici siyahısına daxil edilməsini aşkar etdikdə, bunun səbəblərini araşdırıb seçicinin bir siyahıda saxlanmasını təmin etməlidir. Seçicinin bilərəkdən birdən çox seçici siyahısına daxil edilməsi Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati məsuliyyət doğurur.

Azərbaycan Respublikası qanunvericiliyinə əsasən, vətəndaşların seçici siyahılarından çıxarılması üçün əsas kimi vətəndaşın daimi yaşayış yerini dəyişməsi və vətəndaşın müvəqqəti olduğu yer üzrə seçici siyahılarına daxil olunması göstərilməlidir. Sadalanan əsaslar istisna olmaqla vətəndaşların adlarının qeydiyyatda olduqları yer üzrə seçici siyahılarından çıxarılması yolverilməzdir. Vətəndaş seçici siyahısından rəsmi sənədlər əsasında çıxarılır və bu haqda seçiciyə məktubla məlumat verilir, eyni zamanda seçici siyahısında vətəndaşın siyahıdan çıxarılmasının tarixi və səbəbi göstərilir. Bu fakt məntəqə seçki komissiyası sədrinin və katiblərinin imzası ilə təsdiq edilir. Seçici siyahıları ümumi tanışlıq üçün təqdim edildikdən sonra seçki məntəqəsinin ərazisində məskunlaşmış və hər hansı səbəbdən siyahıya daxil edilməmiş seçici adının seçicilər siyahısına daxil edilməsi barədə məntəqə seçki komissiyasına müraciət edə bilər. Bu müraciət ərizə ilə rəsmiləşdirilir, 3 gün müddətində komissiyanın iclasında baxılır və onun təmin edilib-edilməməsi barədə qərar qəbul olunur. Müraciət təmin edildikdə seçicinin adı seçicilər siyahısına daxil edilir.

Səsvermə günü adının siyahıya düşmədiyini müəyyən edən seçici müvafiq məntəqə seçki komissiyasına müraciət edə bilər. Müraciətdə göstərilən əsaslar qanuni olduqda vətəndaşın adının seçicilər siyahısına daxil edilməsi barədə qərar qəbul olunur və səsvermə günü şəxsin səsvermədə iştirakı təmin olunur. Bu barədə isə müvafiq dairə seçki komissiyasına məlumat verilir. Şəxsin adının seçicilər siyahısına daxil edilməsi üçün qanuni əsaslar olmadığı müəyyən edildikdə, vətəndaşın müraciəti təmin olunmur və ona yuxarı seçki komissiyasına şikayət vermək hüququ izah edilir.

Hərəkət edə bilməyən Azərbaycan Respublikası vətəndaşları yaxın qohumlarının və ya onlarla əlaqəsi olan digər şəxslərin məlumatları əsasında seçici siyahılarına daxil edilə bilərlər. Bu halda hərəkət edə bilməyən vətəndaşın şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd təqdim edilməlidir.

Xarici dövlətlərdə olan aktiv seçki hüququna malik Azərbaycan Respublikası vətəndaşları seçki məntəqəsinə gəldikdə xarici pasport və ya onu əvəz edən sənəd əsasında seçici siyahılarına daxil edilirlər.

Seçicilərin seçici siyahıları ilə tanış edilməsi qaydaları Mərkəzi Seçki Komissiyasının müvafiq Təlimatında öz əksini tapıb. Belə ki, məntəqə seçki komissiyası seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçici siyahılarını, seçicilərə bu barədə məlumat verməklə, səsvermə gününə azı 35 gün qalmış təqdim edir və bunun üçün müvafiq şərait yaradır. Seçici siyahıları seçicilərin yaxşı görə biləcəyi və gediş-gəliş üçün asan olan yerlərdə məlumat lövhələrində yerləşdirilməlidir.

Seçicilər haqqında məlumatları təqdim edən icra orqanlarının rəhbərləri məlumatların düzgünlüyünə, tamlığına və vaxtında verilməsinə görə qanunvericiliklə müəyyənləşdirilmiş məsuliyyət daşıyırlar.

Seçki prosesinin mühüm mərhələsi kimi seçici siyahıları ilə işin aparılması zamanı Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemindən (DAİS) istifadə olunur. DAİS-dən istifadə qaydaları Seçki Məcəlləsinin 110-cu maddəsi və Mərkəzi Seçki Komissiyasının "Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemindən seçkilərdə (referendumda) istifadə edilməsi qaydaları haqqında" Təlimatla tənzimlənir.

Azərbaycan Respublikası üzrə seçicilərin vahid siyahısı Mərkəzi Seçki Komissiyası tərəfindən DAİS-dən geniş istifadə edilməklə tərtib olunaraq çap edilir. Seçkilər Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin yeni şəbəkə variantının çoxsaylı imkanları bu işi yüksək keyfiyyətlə, tez bir zamanda görməyə imkan verir. Burada məlumatlar avtomatlaşdırılmış qaydada yoxlanılır, daxiledilmə anında təkrarçılığın qarşısı alınır, məlumatlar operativ və təhlükəsiz toplanır. DAİS-in seçici siyahılarının əhali reyestrinin məlumatları ilə "üzləşdirilməsi", məlumatlarda olan subyektiv səhvlərin avtomatlaşdırılmış qaydada yoxlanılması imkanları da vardır.

DAİS-dən istifadə etməklə Azərbaycan Respublikası üzrə seçici siyahıları Mərkəzi Seçki Komissiyası tərəfindən maksimum yüksək dəqiqliklə tərtib edilir, bu iş Seçki Məcəlləsi və müvafiq Təlimatın tələblərinə uyğun olaraq daimi aparılır.

Seçki qanunvericiliyində seçici siyahıları ilə bağlı mühüm normaların təsbit olunması və seçici siyahıları ilə innovativ iş prinsipinin təmin edilməsi seçki hüququ olan vətəndaşlarımızın öz iradələrini azad, sərbəst və şəffaf qaydada ifadə etmələrinə təminat verir.

***Qabil ORUCOV,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***

# Həqiqət ləkə götürmür

## Xarici anti-Azərbaycan dairələr və daxili antimilli ünsürlərin gəncləri yoldan çıxarmaq cəhdləri həmişə iflasa uğrayıb

Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində Azərbaycan sürətlə inkişaf edərək dünyanın nüfuzlu ölkələrindən birinə çevrilib. Müxtəlif xalqların və millətlərin mehriban şəraitdə yaşadığı ölkəmizdəki multikulturalizm və tolerantlıq dünyaya nümunə göstərilir. Azərbaycan mötəbər beynəlxalq siyasi, iqtisadi, humanitar tədbirlərin, o cümlədən idman oyunlarının keçirildiyi bir məkan kimi də tanınır. Əlbəttə, bütünlüklə ölkənin hərtərəfli inkişafının əsasında Ulu Öndər Heydər Əliyevin uğurla davam etdirilən siyasəti dayanır.

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt şəhərinin 70, BDU-nun 100 illik yubiley tədbirlərində bu inkişafın dayanıqlı olması ilə yanaşı, ona mane olmağa çalışan antimilli düşüncəlilərin riyakarlığına da diqqət ayırdı. Respublikamızın müstəqillik tarixinə qısa ekskursiya edən dövlət başçısı gənc nəslin vətənpərvər ruhda böyüməsi üçün ideya-tərbiyə işlərinin mühümlüyü ilə yanaşı, keçmişin acı həqiqətlərindən nəticə çıxarmağın vacibliyini də xüsusi qeyd etdi.

Bəli, tarix heç nəyi unutmur. Son yüz ildə iki dəfə müstəqilliyini əldə edən Azərbaycanın təbii sərvətlərlə zənginliyi bütün hallarda onun taleyində mühüm rol oynasa da, inkişafı, qüdrətli dövlətə çevrilməsi heç də bəzi bədxahların, imperiya xislətli, qonşu torpaqlarında gözü olan riyakarların istəkləri ilə üst-üstə düşməyib. Müxtəlif siyasi gedişlərlə ərazilərimizin bir hissəsi işğal edilib. Bu məğlubiyyətlərdə, təəssüf ki, "sapı özümüzdən olan baltalar" dolayısı ilə iştirakçı olub, yaxud "böyük oyunların kiçik peşkaları"na çevriliblər.

Ötən əsrin 90-cı illərində Azərbaycan 70 illik imperiyanın caynaqlarından qan və can bahasına qurtulsa da, o zaman respublikada milli azadlıq hərəkatı adı ilə hakimiyyəti bolşeviksayağı ələ keçirən AXC-Müsavat cütlüyünün birillik yarıtmaz fəaliyyəti ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən işğalına, bir milyondan artıq insanın isə məcburi köçkünə çevrilməsinə səbəb oldu. Bu, az imiş kimi, dövlət müstəqilliyi də əldən gedirdi. Xalq o zaman ayıldı və özünün xilaskarını - Heydər Əliyevi təkidli tələblə ölkəyə rəhbərliyə dəvət etdi.

Hələ keçmiş sovetlər birliyi dövründə daim xalqı ilə bir olan, onun gənc övladlarının müstəqil Azərbaycanın gələcək mütəxəssisləri kimi yetişməsinə çalışan, aqrar bir məmləkəti ittifaq miqyasında "Keçici Qırmızı Bayraq"lar respublikasına çevirən Heydər Əliyev bu dəfə də özünün xilaskarlıq missiyasını şərəflə yerinə yetirdi. Xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Ulu Öndər, ilk növbədə, respublikada AXC-Müsavat cütlüyünün yaratdığı vətəndaş qarşıdurmasının qarşısını aldı. Əsgər və zabitlərimizlə birgə Ali Baş Komandan kimi ön cəbhədə, səngərlərdə düşmənə layiqli yerini göstərib, havadarlarının hərtərəfli dəstəyi ilə Azərbaycanı məğlubiyyətə düçar edən erməni daşnaklarına tutarlı cavab verdi. Düşmən məhz bundan sonra atəşkəs üçün "ağ bayraq" qaldırdı.

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt şəhərinin 70 illik yubiley tədbirində tariximizin həmin səhifələrinə bir daha aydınlıq gətirərək bildirdi ki, hazırkı reallıqlara düzgün qiymət vermək üçün biz o acı dövrü yaddan çıxarmamalıyıq. Gənclərin bunu bilməsinin vacibliyini qeyd edən dövlət başçısı vurğuladı ki, bugünkü inkişaf, tərəqqi göydən düşməyib. Qoy gənclərimiz bilsinlər ki, biz bunu qanımız, canımız bahasına qazanmışıq. Ona görə də tariximizin ən rüsvayçı səhifələrini də vərəqləməliyik ki, o dövr bir daha təkrarlanmasın: "Bunu deyəndə, əlbəttə ki, mən, ilk növbədə, AXC-Müsavat dövrünü qeyd edirəm. 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş o antimilli dəstə Azərbaycanı uçuruma apardı. Azərbaycan əldən gedirdi. Yenicə bərpa edilmiş müstəqillik əldən gedirdi, ölkədə xaos, anarxiya, talançılıq, oğurluq, özbaşınalıq, böhran hökm sürürdü. Ermənilər orada torpaqlarımızı işğal edirdi, Xalq Cəbhəsi isə vətəndaş müharibəsinə start vermiş və Gəncə şəhərini bombalamağa başlamışdı. Vətəndaş müharibəsi ən ağır müharibədir. Çünki qardaş qanı axıdılır. Ona da getdilər ki, öz laxlamış hakimiyyətlərini qoruya bilsinlər. Görəndə ki, qoruya bilmirlər, Heydər Əliyevə müraciət etdilər ki, gəl, bizi xilas elə. Yalvarırdılar, mən bunun şahidiyəm. Üç dəfə təyyarə göndərmişdilər ki, bizi xilas elə, çünki artıq gəlirdilər bunları öldürməyə, yaxud da ki, yıxmağa. Qaçıb gizləndilər, bəziləri, guya, vəzifələrini dondurdular. O vaxt belə cəfəng ifadələr işlədilirdi. Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də o antimilli AXC-Müsavat dəstəsi öz cəzasını alacaqdı. Yəni Heydər Əliyevin humanistliyi onları layiq olduqları bu cəzadan xilas etdi..."

Həqiqət ləkə götürmür. Azərbaycan Prezidentinin xatırlatdığı o dövrün acı reallıqları da bir daha bunu təsdiqləyir. Ölkəni idarə edənlərin nəinki səriştəsizliyi, sərvətə, xalqın malına hərisliyi də milli fəlakət səviyyəsinə qalxmışdı. Dövlət başçısı da bir daha həmin qandonduran illəri xatırlatdı ki, bundan nəticə çıxarılsın. Dünənki həmin antimillilərin bugünkü şər-böhtan, iftira dolu qarayaxmalarına inanılmasın. Onlar milli birlik yox, milləti uçuruma aparan, dövlətin daha da inkişaf etməsinin əleyhinə olanlarla - Azərbaycanın düşmənləri ilə bir cəbhədədirlər: "...Çünki baxın, bizi kimlər idarə edirdi. İndi bu tarix yaddan çıxır, amma çıxmamalıdır. Baxın, Azərbaycan xalqı hansı rəzil dövrdə yaşayırdı. Baxın, kimlər idi. Mən bir daha deməliyəm ki, yaddan çıxmasın, gənclər də bilsin. Prezident elmi işçi, zəif, iradəsiz bir adam idi. Heç vaxt heç bir idarəyə rəhbərlik etməmişdi. Hətta kiçik bir idarənin rəhbəri olmamışdı. Sadəcə, küçələrdə, orada-burada çığırıb bağırmaqla gəldi prezident oldu və ölkəni rüsvay elədi..."

Gizli deyil ki, 11 il aspirant kimi qalan elmi işçi Milli Məclisin sədri, tramvay xətlərini kəsdirib İrana satmağa başlayan baş nazir, heç bir xarici dil bilməyən xarici işlər naziri, yaxud da adi silahdan belə başı çıxmayan müdafiə naziri təyin edilmişdi. Milli Məclisin iclasları o zamanlar ironiya ilə el arasında "kolxoz yığıncağı" adlanırdı: "kurilka"ya da oxşayırdı: "toz-duman" içində boğulan iclas salonunda bir deputatın üzünü görmək, səsini ayırca eşitmək mümkün deyildi.

Azərbaycan Prezidentinin o zaman dövlət katibi vəzifəsini daşıyan, bu gün isə gəncliyi dövlətə, xalqa, millətə qarşı qoymağa çalışan, onları təxribata sürükləyən, AXC-ni parçalayan, Ə. Elçibəyin xəstə yatan vaxtlarında daha çox "fəallıq" və "canfəşanlıq" göstərən (AXCP-yə sahib çıxmaq arzusunda və iddiasında olduğu üçün) Əli Kərimlinin son hərəkətləri üzərində bir qədər geniş dayanması və əməllərini açıbağartması təsadüfi deyildir: "...Onun bütün tarixi satqınlıq tarixidir. Komsomolçuları satıb, öz partiya himayədarlarını satıb, ondan sonra qoşulub Xalq Cəbhəsinə, orada da Əbülfəz Elçibəyi satıb. Bunu cəbhəçilər yaxşı bilirlər. Əbülfəz Elçibəy xəstələnəndə ən çox sevinən elə o idi. Mən bunu dəqiq bilirəm, bu məlumat var. Sevinirdi ki, xəstələnib öləcəkdir, bu da keçəcəkdir onun yerinə. İndi son hadisələr də göstərdi ki, o, hansı hünərə sahibdir. Yəni, bu isterika, bu paranoya, bu qorxaqlıq, - özünü lider sayan hansı adam özünə rəva bilər ki, bunu nümayiş etdirsin və ondan sonra bütün millətə bəyan etsin ki, mənə qarşı zor tətbiq ediblər. Bu, yalandır. Özünə hörmət edən, ləyaqəti üstün tutan hansı adam belə söz deyər? Bax, bu adam prezidentlik iddiasında olub və bu gün vaxtilə xalq hərəkatı tərəfindən yaradılmış Xalq Cəbhəsinə rəhbərlik etməyə çalışır..."

Müstəqil dövlətimizin və azadlıqsevər xalqımızın xoş, firavan gələcəyi naminə ölkə rəhbərinin həyata keçirdiyi məqsədyönlü fəaliyyətə kölgə salmağa cəhd edən ünsürlərin də (əlbəttə, onlar xaraktercə zəif olduqları kimi, say etibarı ilə də azdırlar), məntiqsiz, hədyan dolu iftira və qarayaxmaları sadə insanlarda birmənalı şəkildə hiddət doğurur. Azərbaycandan üz döndərib, "avropalaşan" bəzi nadanların hərəkətlərini nə doğmaları, nə dostları, nə də xaricdə yaşayan həmvətənlərimiz qəbul etmirlər. Nədir bəs onları "havalandıran"?! Ölkəmizdəki sabit ictimai-siyasi abhavamı? Azərbaycanın regionda söz sahibinə çevrilməsimi? Ermənistanın isə bundan xoflanması və havadarlarına bir az da sığınmasımı?!

Qeyd etdiyimiz kimi, bu idi özlərini xalqın cəbhəçiləri adlandıranların hakimiyyəti. Əlbəttə, buna görə xalq fəciələrlə üzləşmişdi. Əgər Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ildə Azərbaycana gəlməsəydi, ölkə dağılacaq, müstəqillik müstəmləkə ilə əvəz olunacaqdı. Beləliklə, bizim müstəqilliyimiz XX əsrin əvvəllərində olduğu kimi, yenə də yarımçıq qalacaqdı. Ayıqlıq bu gün hər bir Azərbaycan vətəndaşının borcudur, müstəqilliyimizin qorunub saxlanması hər bir arzu və istəkdən öndə olmalıdır.

Bu gün özlərini radikal müxalifət düşərgəsinin təmsilçiləri adlandırmağa çalışanların kimliyinə və atdıqları hər addımın nəyə hesablandığına gəlincə, düşünürsən: görəsən, onlar bu qədərmi ya savadsız, səviyyəsiz-düşüncəsiz, milli hisslərdən uzaqdırlar, yoxsa bütün bunları dərk edərək müstəqil Azərbaycanın inkişafını görmək istəməyən xarici havadarlarının qullarına çevrilməyi özlərinə şərəf bilirlər?! Hər iki halda, bunun bir adı var: bədbəxt bədxahlar!

Azərbaycan Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində gəncliyi ayıq-sayıq olmağa səsləyərkən bu məsələyə diqqət ayırması təsadüfi deyildi. BDU həmişə milli hərəkatın ön sıralarında olmuşdur: "İndi anti-Azərbaycan dairələr, xaricdəki dairələr artıq açıq deyirlər ki, bizdə ənənəvi müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr var ki, onların da kitabı bağlanıb, onlara ümid bəsləmək olmaz. Ona görə onlara pul təminatı da azalıbdır, ona görə çapalayırlar. Əsas hədəf gənclər olmalıdır. Onlar gəncləri əsas hədəf seçiblər və gəncləri yoldan çıxarmaq istəyirlər, onların beyinlərini zəhərləmək istəyirlər, onları xalqa qarşı, vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər. Alınmır və alınmayacaq. Çünki Azərbaycan gəncləri vətənpərvərdir, vətəni sevəndirlər, vətənə bağlıdırlar. Ancaq o niyyət var və biz bunu bilməliyik, müəllimlər də bilməlidirlər. Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər..."

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndələri Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin XII Assambleyasında iştirak ediblər

3-4 dekabrda Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin12-ci Assambleyasının növbədənkənar iclası keçirilmişdir. Tədbirdə ölkəmizi Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.



Müxtəlif ölkələrdə 7 nümayəndəliyi olan Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresi fəaliyyət göstərdiyi 27 il ərzində 28 ölkədə olan milli birliklərlə, eləcə də 32 ölkənin sahibkarlar birliyi və 200-ə yaxın partnyor təşkilatlarla əlaqələr qurmuşdur.

Assambleyanın iclasından əvvəl 3 dekabr 2019-cu ildə Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresi Şurasının iclası keçirilmişdir. Şura iclasında 12-ci Assambleyanın gündəliyində duran məsələlərə dair fikirlər bildirilmiş və müzakirələr aparılmışdır.

25-dən çox ölkənin rəsmi şəxslərinin, sahibkarlar birliklərinin və biznes icması nümayəndələrinin iştirak etdiyi bu tədbirdə Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin Şura sədri Vasile Tarlev iclası açıq elan etdi. Konqresin 11-ci Assambleyasının iclasından sonra görülmüş işlər barədə hesabat dinlənilərək qəbul edildi və Beynəlxalq Konqresə yeni üzvlərin seçilməsi məsələsinə baxıldı.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresi 12-ci Assambleyasının iclasında çıxış edərək Beynəlxalq Konqresin üzv ölkələr arasında iqtisadi əlaqələrin möhkəmlənməsi istiqamətində gördüyü işləri yüksək qiymətləndirdi. O qeyd etdi ki, bu tədbirlərin bir qismi Azərbaycan Respublikası rəhbərliyinin dəstəyi ilə Bakıda keçirilmiş və bu işlərdə təşkilatın üzvü kimi Azərbaycan Sahibkarlar Konfederasiyası təşkilatçı qismində yaxından iştirak etmişdir.

M.Musayev iclas iştirakçılarının diqqətinə çatdırdı ki, Azərbaycan Sahibkarlar Konfederasiyası uzun müddətdir ki, Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresi ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq təşkilata daxil olan ölkələr arasında iqtisadi əlaqələrin inkişafında, yeni tərəfdaşların axtarışında öz bəhrəsini verir.

Rusiya ilə Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafı Cənubi Qafqazda və Xəzər bölgəsində sabitliyə və təhlükəsizliyə şərait yaradır. Bu gün Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq kimi xarakterizə edilir. Son illərdə Rusiya ilə Azərbaycan arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Azərbaycan və Rusiya prezidentləri arasında mütəmadi görüşlər münasibətlərin çoxvektorlu xarakterini müəyyənləşdirir və demək olar ki, bütün sahələrdə əlaqələrin inkişafına təkan verir.

21-24 noyabr 2019-cu il tarixlərində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Moskvaya rəsmi səfəri çərçivəsində keçirilən görüşlər, X Azərbaycan-Rusiya Regionlararası Forumunda Azərbaycan pavilyonunun açılışı göstərdi ki, ölkələrimiz arasında münasibətlər strateji tərəfdaşlıq, mehriban qonşuluq və səmimi dostluğun nəticəsində mümkün olmuşdur.

Həmin səfər zamanı baş verən ən xoş hadisə ikitərəfli əməkdaşlığın inkişafındakı xidmətlərinə görə Mehriban Əliyevaya "Dostluq" ordeninin təqdimatı oldu. Rusiya Prezidenti Vladimir Putin tərəfindən təqdim olunan bu mükafat Birinci vitse-prezidentin Azərbaycan və Rusiya arasındakı əməkdaşlığa verdiyi böyük töhfələrə görədir.

M.Musayev əminliklə ifadə etdi ki, X Rusiya-Azərbaycan forumunda əldə olunan razılaşmalar iki ölkə arasında dostluğu və qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirəcəkdir. Əlavə etdi ki, Azərbaycan Rusiya Federasiyasının 70-dən çox regionu ilə iqtisadi əlaqələr qurmuşdur. Hazırda Azərbaycanda Rusiya kapitalı ilə 700-ə yaxın müəssisə qeydiyyata alınıb. Rusiya ilə Azərbaycan arasında 140-a yaxın dövlətlərarası və hökumətlərarası saziş mövcuddur. Kimya sənayesi, əczaçılıq, nəqliyyat və digər sahələrdə ortaq layihələr həyata keçirilir. SOCAR Polymer zavodu tikildi, Aqrokimya müəssisəsi modernləşdirilir, Gəncə Avtomobil Zavodunda KamAZ yük avtomobilləri və Ural avtomobilləri yığılır. Rusiya şirkətləri neft-qaz və enerji sektorlarında iştirak edirlər.

M.Musayev bildirdi ki, Rusiya Azərbaycanın ixrac etdiyi kənd təsərrüfatı məhsullarının əsas istehlakçısıdır. Öz növbəmizdə Rusiyadan kənd təsərrüfatı texnikası və mineral gübrələr alırıq.

Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresi Assambleyasının 12-ci iclasında Rusiya Sənayeçilər və Sahibkarlar birliyinin Prezidenti Aleksandr Şoxin çıxış edərək bu təşkilatın üzv ölkələri ilə Rusiya Federasiyasının iş birlikləri arasında olan qarşılıqlı faydalı əməkdaşlığın perspektivlərindən danışdı.

Daha sonra konqresdə təmsil olunan Rusiya Federasiyasının Uzaq Şərq regionu üzrə nümayəndəsi Yevgeniy Rusetckiy çıxış edərək Uzaq Şərq və Asiya-Sakit Okean regionunda fəaliyyət göstərən sahibkarlar birliyi ilə əlaqələrin genişləndirilməsi istiqamətində aparılan işlərin əhəmiyyətindən danışdı.

Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin Prezidenti Artem Çayka çıxış edərək Beynəlxalq Konqresin fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar görüləcək işlərdən, bununla bağlı Beynəlxalq Konqresin Nizamnaməsinə bir sıra dəyişikliklər edilməsinin zəruriliyindən danışdı və Nizamnamə yeni redaksiyada qəbul edildi.

Tədbir zamanı Azərbaycan Sahibkarlar Konfederasiyasının Prezidenti Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin üzvü olan nümayəndə heyətləri və digər ölkələrdən olan ticarət palataları, işəgötürənlər təşkilatlarının rəhbərləri ilə işgüzar görüşlər keçirmişdir.

Tədbirin əsas nəticəsi kimi Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin nəzdində fəaliyyət göstərən üzv qurumlar arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə müxtəlif formada işbirliyi platformasının yaradılması, vaxtaşırı görüşlərin və məsləhətləşmələrin keçirilməsi barədə razılıq əldə edilmiş, sonda müzakirə edilən məsələlər üzrə birgə bəyanat qəbul edilmişdir.

*"Azərbaycan"*

# *Argentina səfiri:* "AZƏRTAC-ın ispan dilində xəbər yayması təqdirəlayiqdir"

Azərbaycan ilə Argentina arasında informasiya mübadiləsi sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.



AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun Argentinanın Azərbaycandakı səfiri Sergio Perez Gunella ilə görüşündə bununla bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Səfir Sergio Perez Gunella AZƏRTAC-ın dünyanın ən çox danışılan ikinci dili olan ispan dilində xəbər yaymasının təqdirəlayiq olduğunu qeyd edib. Bildirib ki, bu, ispandilli ölkələrdə Azərbaycan haqqında geniş məlumatın əldə edilməsinə və region dövlətlərinin agentlikləri ilə əlaqələrin dərinləşməsinə təkan verir. O, AZƏRTAC ilə Argentinanın TELAM milli xəbər agentliyi arasında informasiya mübadiləsi sahəsində əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb, əlaqələrin daha da genişləndirilməsi üçün hər cür dəstək göstərməyə hazır olduğunu bildirib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov Azərbaycan ilə Latın Amerikası ölkələri, o cümlədən Argentina arasında əlaqələrin ildən-ilə genişləndiyini qeyd edib, xüsusilə informasiya mübadiləsi sahəsində əməkdaşlığın önəmini vurğulayıb.

Agentliyin beynəlxalq əlaqələri barədə məlumat verən İdarə Heyətinin sədri AZƏRTAC-ın ispan dilində xəbər yaymasının informasiya mübadiləsi üçün geniş imkanlar açdığını söyləyib. Qeyd edib ki, AZƏRTAC ilə TELAM arasında əməkdaşlıq Azərbaycan haqqında məlumatların böyük auditoriyaya, Argentina və digər ispandilli ölkələr barədə xəbərlərin isə Azərbaycan oxucularına çatdırılması baxımından mühüm önəmə malikdir.

Görüşdə AZƏRTAC ilə Argentina səfirliyinin gələcəkdə birgə layihələr həyata keçirməsi, müasir medianın inkişaf meyilləri ilə bağlı müzakirələr aparılıb.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova dekabrın 5-də Abşeron rayonunda vətəndaşları qəbul edib.

Qəbulda Abşeron, Zəngilan, Sumqayıt, Qubadlı və Şuşadan olan sakinlər iştirak ediblər. Qəbulda sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmalardan yaranan problemlərə, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və s. kimi məsələlərə baxılıb.

Vətəndaşların müraciətləri dinlənilərək qeydə alınıb, suallar cavablandırılıb. Qəbulda vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərə dair müraciətləri Komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva dekabrın 5-də İmişli rayonunda vətəndaşların qəbulunu keçirib.

Qəbulda İmişli, Saatlı, Sabirabad rayonlarından olan sakinlər iştirak ediblər. Qəbulda sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmalardan yaranan problemlərə, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və s. kimi məsələlərə baxılıb.

Qəbulda vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərə dair müraciətləri Komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb.

* * *

Dekabrın 5-də "Azəriqaz" İB-nin baş direktoru Ruslan Əliyev Tərtər rayonunda sakinlərlə görüşüb. Qəbulda Bərdə rayonunun sakinləri də iştirak edib.

Birliyin baş direktorunun müavinləri Ramil İsgəndərov Füzuli, Ceyhun Şıxəliyev isə Ağdam rayonunun sakinlərinin problemlərini dinləyiblər. Qəbula gələn sakinlərin əksəriyyəti yaşayış məntəqələrinin qazlaşdırılması, qaz xətlərinin yerinin dəyişdirilməsi, işə qəbul və müxtəlif məsələlərlə bağlı fikirlər səsləndiriblər. Hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib. Qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib. Birliyin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə müvafiq orqanlara çatdırılması üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

*AZƏRTAC*

# *Baş Prokurorluq:* "Korrupsiyaya yol vermiş vəzifəli şəxslərə qarşı kompleks mübarizə tədbirləri davam etdirilir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar çərçivəsində sahibkarlıq subyektlərinin inkişaf etdirilməsinə dövlət səviyyəsində geniş imkanların yaradılması, habelə bu istiqamətdə qanunvericilik aktlarının qəbul edilməsi və uzunmüddətli dövlət layihələrinin uğurla həyata keçirilməsi ölkəmizdə formalaşmış əlverişli biznes və investisiya mühitinin daha da güclənməsinə böyük təkan verib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla yanaşı, bəzi sahibkarlıq subyektləri tərəfindən dövlətin iqtisadiyyatın inkişafı sahəsindəki siyasətinə kölgə salan korrupsiya və rüşvətxorluq hallarına yol verilməsinə qarşı mübarizə istiqamətində kompleks, sistemli və ardıcıl tədbirlər davam etdirilməkdədir.

Belə ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə "UNİMARK SYSTEMS" MMC-nin təsisçisi və direktoru Rövşən Əhmədovun öz qulluq səlahiyyətlərindən sui-istifadə etməklə həmin cəmiyyətin baş mühasibi Rauf Xəlilov ilə qabaqcadan əlbir olub, MMC-nin 2012-ci il üçün fəaliyyəti ilə bağlı Vergilər Nazirliyinə təqdim etdiyi mənfəət vergisinə dair bəyannamənin məzmununa bilə-bilə şişirdilmiş yalan məlumatlar daxil etdiyi kredit sifarişini öz imzası və cəmiyyətin möhürü ilə təsdiq edib, 2013-cü ildə hazırda ləğvetmə prosesində olan "Texnikabank" ASC-nin "Muğan" filialına təqdim edərək bankla aralarında bağlanmış kredit müqaviləsi əsasında 447 min manat məbləğində kredit vəsaitini götürüb "Texnikabank" ASC-yə külli miqdarda ziyan vurub qanunsuz kredit almasına, həmin kredit vəsaiti üzrə 266 min manat məbləğində pul vəsaitini qəsdən ödəməyərək "Texnikabank" ASC-nin bank fəaliyyətinin və kredit siyasətinin stabilliyinə mənfi təsir göstərib bankın normal fəaliyyətinin pozulmasında ifadə olunan hüquqlarına və qanuni mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmalarına əsaslı şübhələr müəyyən edilib.

R.Əhmədov və R.Xəlilov Cinayət Məcəlləsinin 195.2-ci (qanunsuz kredit alma külli miqdarda ziyan vurduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə, R.Əhmədovun 808 min manat məbləğində əmlakı üzərinə həbs qoyulub və cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilib.

Azərbaycan Respublikasının Prokurorluğu bu kateqoriyadan olan cinayətlərin törədilməsinə şərait yaradan halların müəyyən edilərək aradan qaldırılması və bu sahədə baş verəcək neqativ halların qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində zəruri tədbirlərin davam etdirilməsini təmin edəcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## “Dövlət idarəetmə islahatları Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun aparılır”

Bu barədə danışan İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı bildirib ki, Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun olaraq qanunverici, icraedici və məhkəmə hakimiyyətinin, habelə yerli özünüidarəetmə və maliyyə xidmətləri üzrə tənzimləmə və nəzarət sisteminin islahatları dövlət idarəetməsinin səmərəliliyini artırmaqla, ilk növbədə, vətəndaşların və biznesin maraqlarına xidmət edir.

“Strateji yol xəritələrinə uyğun olaraq xarici şokların mənfi təsirindən uzaqlaşandan və yeni hərəkətverici iqtisadi drayverlər hesabına inkişaf xətti bərpa edildikdən sonra Prezident İlham Əliyev tərəfindən dövlət idarəetmə islahatlarının yeni səhifəsinin açılması tarixi qanunauyğunluq idi. Dövlət idarəetmə islahatlarının məqsədi dövlət müstəqilliyinin daha da gücləndirilməsi, vətəndaş məmnunluğunun artırılması, dövlət və bazar tənzimləmələri arasında optimal nisbətin qurulması və Azərbaycanın yerli, regional və qlobal çağırışlara daha yaxşı cavab verməsidir” deyən V.Qasımlı daha sonra bildirib ki, Prezident Administrasiyasının və Nazirlər Kabinetinin yeni strukturu təsdiqlənmiş, mərkəzi icra hakimiyyəti orqanlarında struktur islahatları aparılmış, yerli icra hakimiyyəti qurumları qarşısında yeni tələblər qoyulmuşdur: “Prezident İlham Əliyevin rəhbərliyi ilə icraedici hakimiyyətdə aparılan islahatlar elektron hökumətin inkişafını, “One-stop-shop”dan “non-stop-shop”a və reaktiv xidmətlərdən proaktiv xidmətlərə keçidləri, “Only one entry” prinsipinin yığcam, mobil və məqsədyönlü fəaliyyətini stimullaşdıracaq. Eyni zamanda, dövlət idarəetmə islahatları məcburetmədən könüllü riayətə, imperativ idarəetmədən tənzimlənməyə, yoxlamadan monitorinq və qiymətləndirməyə, məmur-sahibkar təmaslarından rəqəmsal həllərə və gizli iqtisadiyyatdan leqallaşmaya keçidi təmin edir. Dövlət idarəetmə aparatının islahatları dövlət-özəl dialoqunu və dövlət-vətəndaş dialoqunu daha da irəli aparacaq. Bu çərçivədə dövlət müəssisələrində və özəl sektorda idarəetmə islahatları, o cümlədən korporativ standartların tətbiqi üçün yeni imkanlar yaranıb”.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə effektiv dövlət idarəetmə sistemi qurulduğunu deyən V.Qasımlı bildirmişdir ki, Azərbaycan Dünya Bankının hesabladığı “Hökumətin səmərəliliyi” sub-indikatoru üzrə 2007-2018-ci illərdə regionda ən çox irəliləyiş edib: “Belə ki, müqayisə olunan dövrdə Azərbaycan 7, Qazaxıstan 6, Özbəkistan 5, Gürcüstan 5 və Qırğızıstan 2 pillə irəliləyə bilib. Azərbaycan “Qlobal Rəqabətlilik hesabatı”nda 140 ölkənin arasında məhkəmənin müstəqilliyi meyarına görə 39-cu, hökumət tənzimlənməsinin yükü meyarına görə 3-cü, hökumətin siyasətin davamlılığını təmin etməsi meyarına görə 11-ci, hökumətin dəyişikliklərə reaksiyası meyarına görə 5-ci, hökumətin uzunmüddətli vizyonu meyarına görə 10-cu pillədə qərarlaşıb. ASAN, DOST, ABAD, “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi, Şəbəkə və s. xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 100 faizə yaxındır”.



## İslahatların əsas məqsədi əhalinin sosial müdafiəsinin daha davamlı və sürətli gücləndirilməsinə nail olmaqdır

*Əvvəli 1-ci səh.*

Aparılan islahatların əsas məqsədi də bu yolla ölkə vətəndaşlarının rifah halını yaxşılaşdırmaqdır.

Məlumdur ki, müasir dövrün tələblərinə uyğun dinamik islahatların keçirilməsi köhnə təfəkkürlü kadrlarla mümkün deyil. Elə Prezident İlham Əliyevin bu sahədə apardığı islahatların əsas məqsədi də yeni düşüncəli, müasir dövrün tələblərini mükəmməl bilən kadrlara üstünlük verməkdir. Artıq bu islahatlar öz nəticəsini verir və cəmiyyət tərəfindən müsbət qəbul olunur.

Prezident İlham Əliyev yeni təyin olunan Hacıqabul rayon və Naftalan şəhər icra hakimiyyətləri başçılarını qəbul edərkən əhalinin məşğulluğuna xüsusi önəm verərək vurğulamışdır: “Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın... İşsizliklə bağlı problemlər bütövlükdə Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edir. Ancaq mən bunu dəfələrlə demişəm, bəzi qonşu ölkələrdən fərqli olaraq bizim əhalimiz artır... Bütün bunlar, əlbəttə, tələb edir ki, yeni iş yerləri yaradılsın. İş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə də icra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyaları cəlb etməlidirlər ki, yerli istehsal artsın və işsizlik daim aşağı səviyyədə olsun”.

Göründüyü kimi, istər iqtisadi, istərsə də kadr islahatlarının əsas məqsədi ölkənin iqtisadi cəhətdən dinamik inkişafını təmin etməklə yanaşı, əhalinin sosial müdafiəsinin gücləndirilməsidir. Bu istiqamətdə dövlət tərəfindən verilən dəstək, aparılan iqtisadi islahatlar, iş adamlarına ayrılan güzəştli kreditlər də dolayısı ilə bu məqsədə xidmət edir. Bunun nəticəsidir ki, ildən-ilə yeni iş yerlərinin açılmasının dinamikası yüksəlir. Çünki sosial müdafiənin ən səmərəli forması elə əhalinin məşğulluğudur.

Dövlət başçısı yeni təyin edilən icra başçılarını qəbul edərkən onu da vurğulamışdır ki, regionlarda işsizliyin aradan qaldırılması üçün texnopark və sənaye parklarının yaradılmasına üstünlük verilir. Sumqayıtda, Neftçalada, Masallıda, Mingəçevirdə və digər yerlərdə belə müəssisələr artıq fəaliyyət göstərir və bu proses davam edir. Belə yanaşma sahibkarlara böyük dəstəkdir. Çünki yeni yaradılan sənaye zonalarında və texnoparklarda bütün infrastruktur dövlətin vəsaiti hesabına yaradılır. Yəni bunların yaradılması üçün sahibkarlar pul xərcləmir, yalnız istehsal, emal və xidmət sahələrinin yaradılmasına investisiya qoyur.

Sözügedən məsələ ilə bağlı son rəqəmlərə nəzər salaq: Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin 9 ayı ərzində ölkədə 164,4 min yeni iş yeri açılıb. İş yerlərinin 24,1 faizi yeni yaradılan qeyri-dövlət sektorunda açılıb ki, bu da sahibkarlığın inkişafı ilə bağlıdır. Yəni dövlətdən dəstək alan sahibkarlar yeni istehsal, emal və xidmət müəssisələri yaradaraq əlavə iş yerlərinin açılmasını təmin edirlər.

Aparılan islahatlar, iş adamlarına verilən dəstək sayəsində kiçik və orta sahibkarlıq özünün yeni inkişaf dövrünə qədəm qoyub. Hesabat dövründə hüquqi və fiziki şəxslər tərəfindən açılan müəssisələrin çox hissəsi məhz bu kateqoriyadandır. Bu səbəbdən yeni açılan iş yerlərinin 51 faizi həmin müəssisələrin payına düşür. Əhalinin məşğulluğunun artması əməkhaqqı və gəlirlərinin də yüksəlməsinə səbəb olur. Belə ki, cari ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 11,7 faiz artaraq 603,5 manat olub. Əməkhaqqı özəl sektorda daha yüksəkdir. Hesabat dövründə dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 494,8 manat olduğu halda, özəl sektorda bu rəqəm 742,3 manata çatıb.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## İslahat İcmalı “Vergi islahatı 2020”yə həsr olunub




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İslahat İcmalı”nın xüsusi buraxılışı “Vergi islahatı 2020”yə həsr edilib. İcmalda “Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında” qanun layihəsi şərh olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqindəki fikirlərə geniş yer verilən icmalda bildirilir ki, aparılan islahatlar nəticəsində vergilər sistemində şəffaflıq təmin olunur, biznes dairələri üçün vahid qaydalar tətbiq edilir.

Qeyd edək ki, “İslahat icmalı”nda vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri, vergi nəzarəti, maliyyə sanksiyaları, elektron qaimə-faktura, mənfəət vergisi, əlavə dəyər vergisi, aksiz vergisi, sadələşdirilmiş vergi, riskli vergi ödəyiciləri, transmilli şirkətlər qrupu və digər dəyişikliklər barədə məlumatlar verilib.

## Bu gün TRASEKA Hökumətlərarası Komissiyasının növbəti iclası və beynəlxalq konfrans işə başlayır

Bu gün Bakıda “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş”in imzalanmasının 20 illiyinə həsr olunmuş beynəlxalq konfrans və TRASEKA Hökumətlərarası Komissiyasının XIV iclası işə başlayır.

TRASEKA-ya 13 üzv və 2 müşahidəçi ölkə rəsmilərinin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak edəcəyi tədbirlərdə ötən dövrdə görülmüş işlər, üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə ediləcək, Bakı Bəyannaməsi qəbul olunacaq.

## “Bakutel” beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platformasını möhkəmləndirir

Son illər Azərbaycan mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi də şöhrət tapıb. Təkcə ötən iki ayda Bakıda keçirilmiş üç Zirvə görüşü - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, Qoşulmama Hərəkatının və Dünya dini liderlərinin Zirvə görüşləri ölkəmizin beynəlxalq nüfuzunu bir daha təsdiq etdi.




Azərbaycanda hər il bir sıra ənənəvi beynəlxalq sərgilər də keçirilir. Onlar iqtisadiyyatın ən müxtəlif sahələrini əhatə edir, ölkələr arasında əməkdaşlığı genişləndirir, tərəfdaşlıq platformasını möhkəmləndirir və inkişafa yeni təkan verir. Bu qəbildən olan sərgilərin açılışında Prezident İlham Əliyevin iştirak və çıxış etməsi, yaxud sərgi ilə yaxından tanış olması həmin tədbirlərin mühüm əhəmiyyət daşıdığını göstərir.

Bu il dekabrın 4-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Bakı Ekspo Mərkəzində keçirilən “Bakutel-2019” - XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi ilə tanış olublar.

Bu dəfə “Bakutel” sərgisi 25 illiyini qeyd edir. Dövlət başçısına verilən məlumatda da bildirilib ki, tədbirdə iştirak edən 238 şirkət tərəfindən 23 ölkə təmsil olunur. Sərgidə Türkiyə, Rusiya, ABŞ, Belarus, BƏƏ, Fransa, İran, İsrail, İtaliya, Sloveniya, Xorvatiya və digər ölkələrin ticarət palataları və səfirliklərinin dəstəyi ilə aparıcı İT şirkətlərindən ibarət milli qruplar fəaliyyət göstərir.

Keçən illərdə olduğu kimi, sərginin stendlərində maraqlı layihələr təqdim edilir. Bu səbəbdən də “Bakutel” Xəzər bölgəsində innovasiya və yüksək texnologiyalar sahəsinin mühüm tədbirinə çevrilib və işgüzar əlaqələrin inkişafına öz töhfəsini verir.

Məsələn, İnnovasiyalar Agentliyi bütün regional startaplara Azərbaycanda öz şirkət nümayəndəliklərini qeydiyyatdan keçirməyə, yerli mütəxəssislərdən ibarət komanda formalaşdırmağa, məhsullarını adaptasiya etməyə və kommersiyalaşdırmağa dəstək verir. Agentlik regional investorları cəlb etmək üçün beynəlxalq ekspertlərin iştirakı ilə Fondlar Fondunun yaradılması üzərində iş aparır, beynəlxalq təcrübəni öyrənir.

İnnovasiyalar Agentliyi və “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin yardımı ilə şəhid balaları üçün təşkil edilən təmənnasız STEM üzrə kursların iştirakçıları qazandıqları nailiyyətləri sərginin tamaşaçıları ilə bölüşüblər. Onlar hazırladıqları modelləri nümayiş etdiriblər.

Dövlət başçısı və birinci xanım sərgidə təmsil olunan digər ölkələrin stendlərinə də baxıblar. Prezident İlham Əliyev Belarus stendinin sahəsində bu ölkə ilə Azərbaycanın birgə buraxılışı olan markanı möhürləyib. Qeyd edək ki, builki “Bakutel”də Belarusun 6 şirkəti iştirak edir. Onlar İKT-nin ən son nailiyyətlərini nümayiş etdirirlər.

Sərgi iştirakçıları arasında eləcə də Türkiyə şirkətləri fəaliyyət göstərir. Onlar peyk, İT, informasiya təhlükəsizliyi ilə bağlı innovativ məhsullarını təqdim edirlər.

Rusiya Federasiyası tədbirdə Elm və Ali Təhsil Nazirliyinin elmi-tədqiqat institut və universitetlərinin layihələri, eləcə də ölkənin 2 şirkətinin məhsulları ilə təmsil olunur.

Tədbirdə İran İslam Respublikasının, ABŞ-ın, Xorvatiyanın, Fransanın, İtaliyanın, İsrailin və digər ölkələrin stendləri də tamaşaçılar tərəfindən maraqla qarşılanır. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva bu stendlərlə də yaxından tanış olublar. Onlara “ASAN ödəniş”, “ASAN Viza”, “ASAN Finans” sistemləri və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Elektron Hökumətin İnkişafı Mərkəzinin idarə etdiyi digər layihələr haqqında geniş məlumat verilib.

Sərgi ziyarətçilərində vətəndaşlara qeydiyyat prinsipi olmadan xidmət göstərən DOST Mərkəzinin sosial sahədə innovativ yenilikləri də maraq doğurur. Hazırda DOST vətəndaşlara 132 xidmət göstərir. Bu ilin may ayında açılışı keçiriləndən bəri DOST-un “Çağrı mərkəzi” 2 mindən çox zəng qəbul edib.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya həm DOST, həm də Qafqazda ilk və yeganə peyk operatoru olan “Azərkosmos”un təqdim etdiyi telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksək keyfiyyətli peyk xidmətləri haqqında da məlumat verilib. Dövlət başçısı şoranlaşma ilə bağlı peyk vasitəsi ilə aparılan müşahidələrlə də tanış olub.

Təbii ki, “Bakutel”də müxtəlif robotlar da nümayiş etdirilir. Dövlət başçısı və birinci xanım robotların danışığına qulaq asıblar, rəqsinə tamaşa ediblər və pianoda ifasını dinləyiblər. Robotların bu “çıxış”ı tədbirin gedişinə daha bir xoş ovqat gətirib.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Bakıda Gənc Sahibkarlar Forumu keçiriləcək

Dekabrın 10-da Bakı Konqres Mərkəzində gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviqi, kiçik və orta biznesə dəstək göstərilməsi məqsədilə I Gənc Sahibkarlar Forumu keçiriləcək.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən bildirilib ki, Gənclər Fondu, KOBİA yanında İctimai Şura və “Gənc Sahibkarlar Şəbəkəsi” İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçiriləcək forumda yaşı 29-dək olan gənclər iştirak edəcəklər.

## Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının ümumi yığıncağı olub

Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının üzv şirkəti olan “ASPI AGRO”nun dəstəyi ilə ümumi yığıncaq keçirilib.

Tədbirdə Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının idarə heyətinin sədri Teybə Quliyeva yığıncaq sədrliyinə namizədi irəli sürüb. “Ekvita” şirkətinin təsisçisi və direktoru, eləcə də palatanın idarə heyətinin üzvü İlqar Mehti ümumi yığıncağın sədri seçilib.

Yığıncaqda bir neçə məsələ müzakirə edilib. Üzv şirkətlərin nümayəndələri tərəfindən palatanın idarəedici direktoru vəzifəsinə Zibər Hüseynovanın namizədliyi təsdiqlənib və idarə heyətinə iki yeni üzv seçilib. Bundan əlavə, palatanın davranış qaydaları və komitələrin yaradılması qaydaları təsdiq edilib.

## Əlillər onlara göstərilən diqqətdən razıdırlar

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən növbəti səyyar xidmət Astara, Lənkəran, Masallı rayonlarında təşkil edilib.

Üç rayon üzrə 22 nəfər əlilliyi olan şəxsə əlil arabaları həmin rayonlara, onlardan bir hissəsinə isə evlərinə aparılaraq verilib. Əlilliyi olan şəxslər səyyar xidmətdən, əliliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təminatı istiqamətində aparılan işlərdən razı qaldıqlarını bildiriblər.

Məlumat üçün bildirək ki, cari ilin ötən dövründə ölkəmizin bütün rayon və şəhərlərində bu cür səyyar xidmətlər təşkil edilib. 858 nəfər əlilliyi olan şəxsə və sağlamlıq imkanları məhdud uşağa ümumilikdə 4 minə yaxın reabilitasiya vasitəsi yaşadıqları rayonlara, bəzi hallarda yaşayış ünvanlarına aparılaraq verilib.

## Pilot layihə çərçivəsində məktəblilərə süd paylanılmasına başlanılıb

“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nin Tədbirlər Planının 1.3.6-cı yarımbəndində sağlam qidalanmanın təşviq edilməsi nəzərdə tutulmuşdur.

Həmin yarımbəndin icrasının təmin edilməsi məqsədilə Qida Təhlükəsizliyi Agentliyinin, Təhsil, Kənd Təsərrüfatı, Səhiyyə, İqtisadiyyat nazirliklərinin nümayəndələrindən ibarət işçi qrup yaradılmış və həmin işçi qrup tərəfindən “Məktəblilər üçün süd” pilot layihəsi hazırlanmışdır. Layihənin əsas hədəf dairəsi ibtidai siniflərdə təhsil alan şagirdlərdir.

Layihənin həyata keçirilməsi üçün pilot ərazi olaraq Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi 305 nömrəli, Qaradağ rayonu Qobu-1 yaşayış massivində yerləşən məcburi köçkünlər üçün tikilmiş 29 və 32 nömrəli məktəblər seçilmişdir.

Şagirdlərə Azərbaycanda qüvvədə olan texniki normativ hüquqi aktların tələblərinə cavab verən, ölkə daxilində istehsal edilən çiy süddən termiki emal edilərək hazırlanmış süd verilməsi nəzərdə tutulmuşdur.

Südə qarşı həssaslığı olan şagirdlərin layihədən kənar tutulması məqsədilə sorğu anketləri hazırlanmış və doldurulması məqsədilə valideynlərə təqdim edilmişdir. Sorğu anketlərinin nəticələrinə əsasən valideynlər tərəfindən razılıq verilən şagirdlərə süd paylanılmışdır.

## Çindən Azərbaycana 1 milyon tut tingi gətirilib

Azərbaycanda baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illəri əhatə edən Dövlət Proqramı çərçivəsində həyata keçirilən tədbirlər davam etdirilir. Dövlət Proqramında 2025-ci ilə qədər yaş barama istehsalı həcminin 6 min tona çatdırılması nəzərdə tutulur.



Proqramın tədbirlər planına əsasən, yaxın illərdə baramaçılıq və ipəkçilik sahəsində klaster yanaşmanın tətbiqinin dəstəklənməsi, yeni məhsuldar ipəkqurdu cinsləri və hibridlərinin yaradılması, ilkin toxumçuluğun təşkili istiqamətində elmi-tədqiqat işlərinin genişləndirilməsi, baramaçılıqla məşğul olan təsərrüfat subyektlərini sənaye tut ipəkqurdu toxumu ilə təmin edəcək toxumçuluq (qren) zavodlarının yaradılmasının dəstəklənməsi nəzərdə tutulub.

Dövlət Proqramına əsasən, baramaçılığın yem bazasının genişləndirilməsi, yeni tut (çəkil) bağlarının salınması üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Çin Xalq Respublikasından calaq olunmuş yüksək yarpaq çıxımına malik, iqlim şərtlərinə davamlı tinglərin gətirilməsi prosesi həyata keçirilir.

Bu məqsədlə Çin Xalq Respublikasından Azərbaycana növbəti 1 milyon ədəd tut tingi gətirilib. Tut tingləri müəyyən olunmuş bölgülər üzrə rayonlarda baramaçılıq sahəsində fəaliyyət göstərən fermerlərə pulsuz paylanacaq. Tinglər calaq olunduğu üçün iqlimin əlverişsiz amillərinə qarşı dözümlüdür, yaşıl kütlə çıxımının keyfiyyətli olması səbəbindən barama qurdundan əldə olunan məhsul da bazar rəqabətinə davamlıdır.

Xatırladaq ki, indiyə qədər ölkəyə 3,5 milyon ədəd tut tingi gətirilmişdir.





# Ədəbiyyat





● Mənəviyyat xəzinəmiz



# "Məndə sığar iki cahan..." misrasının sirri

**Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin yaradıcılığı başdan-başa hələ də açılmamış sirlərlə doludur. Bu zəngin yaradıcılıq öyrənildikcə öyrənməyə, araşdırıldıqca araşdırılmağa maraq oyadır. Ona görə də şairin şeirlərindən danışanda qarşıya istər-istəməz suallar çıxır. Bu sualların da cavabını tapmaq çox zaman ona görə çətin olur ki, onların doğrusunu yalnız Nəsiminin özü bilirdi.**

Nəsiminin ən çox mübahisə doğuran şeirlərindən biri "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" misrası ilə başlayan qəzəlidir. Bu qəzəllə, hətta yalnız ondakı iki cahanla bağlı ötən əsrin 70-ci illərində qızğın mübahisələr başlandı. Lakin bu mübahisəyə qoşulanların heç biri ağlabatan nəticəyə gəlib çıxa bilmədi. Bu iki cahan çoxlarını düşündürdü. Onlardan birinin bizim bu cahan olduğu heç kimdə mübahisə doğurmurdu və onunla bağlı mübahisələr getmirdi. Bunu hamı birmənalı şəkildə qəbul edirdi. Bütün söz-söhbətlər, mübahisələr, dartışmalar ikinci cahanın başındaydı. Nə idi bu iki cahan?

Bir çox alimlər Nəsimini Allahsız sayır, guya Tanrını tanımadığını, hətta ona asi çıxdığını düşünür və ikinci cahan deyəndə onun gedər-gəlməzlər dünyasını, yeraltı dünyanı nəzərdə tutmadığı fikrinin üstündə dururdular. Onlar ikinci cahan deyəndə Nəsiminin bu cahan boyda başqa bir cahanı xəyalında canlandırıb hər iki cahanı varlığında, canında, bədənində sığdırmaqla özünün böyüklüyünü göstərdiyini vurğulayırdılar. Digər alimlər isə bu fikirlərlə razılaşmır, daha inandırıcı mülahizələr söyləyirdilər. Onlardan bəziləri Nəsiminin gedər-gəlməzlər dünyasına inanmadığını şübhə ilə də olsa qəbul etmir, onun şairin şeirindəki ikinci cahan olduğunu düşünürdülər. Bunu da ağlabatan saymayan üçüncülər tamam başqa yol tutaraq şeirdə heç iki cahandan söhbət getmədiyini düşünür və misranın "Məndə sığar ikən cahan, mən bu cahana sığmazam" şəklində olduğunu qəbul edib onu məhz bu cür açmağa çalışırdılar. Onlara görə, şeirdə iki cahandan söhbət getmir. Nəsimi bir cahandan danışır ki, o da bizim yaşadığımız bu dünyadır. Dördüncülər isə ikinci cahan deyəndə Nəsiminin özünü, öz varlığını, canını, bədənini nəzərdə tutduğunu bir fikir kimi ortaya atırdılar. Əvvəlkilərə baxanda sonuncu fikrin heç bir məntiqi əsası yox idi.

Bəs bu misranın sirrinin açılmağının çətinliyi nədədir?

Bu sirri açmağın çətinliyinin iki səbəbi var: Birincisi, o sirrin doğru cavabını yalnız Nəsiminin özü bilirdi. İkincisi isə, Nəsimi o sirrin açarını özü ilə aparmayıb. Onun digər şeirlərində bu misranın sirrini, daha doğrusu, şairin dediyi ikinci cahanın nə olduğunu tapmaq üçün çoxlu ipucları, açarlar, yönləndirici işarələr saxlanmışdır.

Nəsimi bir şeirində deyirdi:

Həq mənə söylə dedi, əmr etdi, mən də söylədim,
Sözümü dastan edib aləmdə təkrar etdilər.

Əgər Tanrı Nəsimiyə əmr edirdisə, söylə deyirdisə, deməli, Nəsimi Tanrı ilə danışırdı. Başqa sözlə desək, Tanrı əmr edirdi, Nəsimi də onun səsini eşidirdi. Bəs Tanrı hansı dildə danışırdı ki, Nəsimi onun dediklərini başa düşürdü?! İndi Şumer qaynaqları ilə yaxından tanışlıq bu sualların cavabını tapmağı xeyli asanlaşdırır. Nəsimi Tanrı ilə danışdığı dil haqqında bir şeirində belə deyir:

Sən bu Nəsiminin dilini anla, bil sözün,
Kim, var bu dildən özgə bizim bir lisanımız.

"Bu dildən özgə bizim bir dilimiz də var" deyəndə Nəsimi nəyi nəzərdə tuturdu? Sözsüz ki, burada ərəb və fars dillərindən söhbət gedə bilməz, çünki onların olduğunu hamı bilir. Nəsimi isə heç kimin bilmədiyi ikinci bir dilin adını çəkir. Əgər söhbət Nəsiminin Tanrı ilə danışmağından gedirsə, onda burada Tanrı dilinin nəzərdə tutulduğu şübhə doğurmamalıdır. Bu fikri söyləməyə şeirin digər misraları daha çox əsas verir. Şeirin ilk iki misrası belədir:

Var bu cahandan özgə bizim bir cahanımız,
Surət bu aləm oldu bizə, ol məkanımız.

Nəsimi bu dünyanı o biri cahanın surəti adlandırır. Həm də oranı özünün əsl məkanı hesab edir. Onda Nəsiminin aşağıdakı misralarının sirri də çox asanlıqla açılır:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü-məkanə sığmazam.

Deməli, bu iki cahanın biri Nəsiminin öz məkanı hesab etdiyi dünya, ikincisi isə, onun surəti olan bu dünyadır. Bəs onda bu dünyanın əsli olan dünya hansıdır? Buna da Nəsiminin özü çox aydın cavab verir:

Ey dəvət eyləyən bizi firdövsə, eylə bil,
Cənnətdən özgə vardurur əla məkanımız.

"Cənnətdən özgə əla məkan" deyən kimi Adəmlə Həvvanın cənnətdən qovulmaları haqqındakı əfsanə yada düşür. Onlar da sözsüz ki, o dünyadan bu dünyaya qovulmamışdılar. Deməli, cənnət heç vaxt o dünyada ola bilməzdi. Bu dünyadan sonra insanların cənnətə gedəcəkləri fikri din adamlarının uydurmalarıdır. Bəs onda görəsən Nəsiminin cənnətdən əla dediyi o məkan haradır? Bu sualın cavabını tapmaq üçün Şumer mətnlərini bilmək lazımdır. Şumer mətnlərinə görə, bu dünyanı Tanrılar yaratdılar. Onlar bu gün də tapılmamış Nabur planetində yaşayırlar. Nəsimi bu dünyanı Nabur planetindəki dünyanın surəti hesab edir ki, buna yox demək çətindir. Nəsimi Tanrı ilə danışırdısa, deməli, həmin dünyadan xəbəri var idi. Ona görə də oranı cənnətdən daha gözəl məkan adlandırırdı. Nəsimi bu dünyanı o dünyanın surəti adlandıranda da insanın Tanrının surəti olduğu haqqında söylədiklərinə möhür vurmuşdur. Nəsimi özünü artıq həmin dünyada görürdü. Onun dediyi ikinci dil də Tanrıların yaşadıqları dünyadakı dildir.

Bunlar şübhə doğurmasın deyə, xatırlatmaq istəyirəm ki, Şumer qəhrəmanı Bilqamıs Humbabanı öldürməyə gedərkən Günəş Tanrısı Utuya üz tutur, ona qahmar durmağını istəyir. Utu onun səsini eşidir, qahmar duracağını bildirir. Bilqamısla Utu açıq danışırlar.

Bilqamıs türk dilində danışırdı. Bu dili ona anası Tanrı Ninsun öyrətmişdi. Ninsun həm də Tanrılarla danışırdı. Burada ikidillilikdən söhbət açmağa belə dəyməz. Ninsun oğluna öz dilindən başqa dil öyrədə bilməzdi. Nəsimi "Var bu dildən özgə bizim bir lisanımız" deyəndə Ninsunla Bilqamısın danışdığı dili nəzərdə tutduğuna heç bir şübhə yoxdur. Nəsiminin burada Tanrı dilini nəzərdə tutduğunu onun "Həq mənə söylə dedi, əmr etdi, mən də söylədim" misrası da təsdiqləyir. Tanrı həmin dildə Nəsimiyə əmr etmişdir. Onda insan Tanrının, bu dünya Tanrıların dünyasının, dilimiz də Tanrıların dilinin surətidir.

Deyilənlərdən aydın olur ki, Nəsiminin "Məndə sığar iki cahan..." misrasındakı cahanın biri bizim yaşadığımız bu dünya, digəri Tanrıların yaşadığı dünyadır. Nəsimi həmin dünyanı yaxşı görür və dərk edirdi. Artıq özünü həmin dünyada hiss edirdi. "Həq mənəm, həq məndədi, həq söylərəm" sözlərini də məhz özünü həmin dünyada hiss etdiyinə görə söyləyirdi.

***İslam SADIQ,***
***filologiya elmləri doktoru***

● Yeni nəşrlər

## "İmadəddin Nəsiminin leksikası oğuz dilləri kontekstində"



**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin Məmmədovun "İmadəddin Nəsiminin leksikası oğuz dilləri kontekstində" monoqrafiyası nəşr olunub.**

Müəllif monoqrafiyanın I fəslində Nəsiminin dilində işlənmiş türk mənşəli ümumi isimləri, II fəslində isə feilləri müxtəlif leksik-semantik qruplara bölərək oğuz qrupu türk dilləri ilə müqayisə edib.

## Nəsimi haqqında növbəti kitab İtaliyada işıq üzü görüb



**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu türkdilli xalqların zəngin mədəni irsinin dünyada nümayişi və təbliği istiqamətində müxtəlif layihələr həyata keçirir.**

Bu çərçivədə fondun dəstəyi ilə növbəti kitab İtaliyada işıq üzü görüb.

Prezident İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında sərəncamlarına uyğun olaraq nəinki ölkəmizdə, həm də dünyanın bir çox yerlərində silsilə tədbirlər və təqdimatlar keçirilir, kitablar çap edilir və şairin yaradıcılığına yenidən nəzər salınır. Türk xalqlarının bir-birinə yaxınlaşması və onların ortaq mədəniyyətinin təbliği missiyasını üzərinə götürən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun yeni nəşrini də yubileyə töhfə adlandırmaq olar. Belə ki, fondun İtaliyanın "Sandro Teti" nəşriyyat evi ilə əməkdaşlığı çərçivəsində "Nəsimi poeziyası" kitabı italyan dilində çap olunub. Kitaba şairin 100-dən çox qəzəli və rübaisi daxil edilib.

Azərbaycan poeziyasının ən önəmli şəxsiyyətlərindən olan İmadəddin Nəsiminin əsərlər toplusu, Türk Dünyasının zəngin mədəni irsinin təbliği ilə yanaşı, italyan oxucusunun dahi şairin yaradıcılığı ilə daha yaxından tanış olmasına imkan yaradır. Kitabın təqdimatının bu ay ərzində İtaliyanın müxtəlif şəhərlərində keçirilməsi nəzərdə tutulub.

## Xarkovda ustad şairin qəzəllər toplusu çap olunub



**Xarkov şəhərində dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Azərbaycanın Ukraynadakı səfirliyinin İnformasiya və Mədəniyyət Mərkəzində keçirilən tədbirdə şairin Ukraynada işıq üzü görmüş "Haqq yolu mən özüm oldum" kitabı ictimaiyyətə təqdim edilib. Tədbiri giriş sözü ilə açan Ukrayna "Dostluq" cəmiyyətinin rəhbəri Murad Ömərov böyük şairin yaradıcılığı barədə fikirlərini bölüşüb, Nəsimi poeziyasının dünya söz xəzinəsinə bəxş etdiyi əsərlərinin əhəmiyyətindən danışıb. Tədbirdə Q.Skovoroda adına Xarkov Pedaqoji Universitetinin "Dünya ədəbiyyatı" kafedrasının dosenti Antonina Yakovlevanın Nəsiminin həyatı və yaradıcılığı haqqında məruzəsi dinlənilib.

Məşhur heykəltəraş Seyfəddin Qurbanov səfirliyin dəstəyi ilə Nəsiminin Kiyev şəhərində ucaldılan büstünün açılış mərasimindən və Ukraynada "Nəsimi ili"ndə baş tutan digər tədbirlərdən bəhs edib. Tədbirin sonunda "Dostluq" cəmiyyətinin yetirmələri Nəsiminin qəzəlləri əsasında hazırlanmış musiqili kompozisiyaları iştirakçılara təqdim ediblər.

● Məhəmməd Hadi -140

# "...Unutma bizləri yad et"

**Qısa ömürlü böyük romantik... Həyatın iztirablarında qəhr olmuş şair... Ədəbiyyat aləmində onu Məhəmməd Hadi kimi tanıdılar. Əsl adı Ağaməhəmmədiydi. Dünyaya 1879-cu ildə Şamaxı şəhərinin Sarıtorpaq məhəlləsində göz açdı. Şamaxının sayılıb-seçilən tacirlərindən birinin - Hacı Əbdussəlimin oğluydu. Əvvəlcə məhəllə mədrəsəsində Molla Abbasdan dərs aldı, sonra təhsilini Abbas Səhhətin atası Hacı Ələbbasın məktəbində davam etdirdi...**



Həyat yoluna qəm, qüssə qoşulanda o, hələ uşaq idi. Atası vəfat edəndə Ağaməhəmmədin doqquz yaşı vardı. Körpə bacıları Sahibə və Əsma ilə birlikdə anasına sığınacaqdı. Ancaq o da övladlarını taleyin ümidinə qoydu. Anaları İsmayıllının Sulut kəndindən olan varlı bir adama ərə gedəndən sonra üç uşağa nənələri Teyyibə xanım həyan oldu. Dindar, xeyirxah, cəfakeş, qayğıkeş nənə nəvələrinin yolunda hər əziyyətə razı idi. Ümid edirdi ki, yeganə oğlan nəvəsi Ağaməhəmməd oxuyub ruhani olacaq.

Üç uşaq valideyn sevgisini nənələrində tapmışdı. Amma 1894-cü ildə Teyyibə xanımın ölümü onları bu səadətdən də məhrum etdi. On beş yaşlı, azad ruhlu Ağaməhəmməd qohumu Mustafa Lütfinin himayəsində yaşamaq məcburiyyətində qaldı. Mustafa Lütfidən ərəb və fars dillərini öyrəndi. Mükəmməl təhsil almaq arzusu istedadlı, mütaliə sevdalı yeniyetmənin qəlbini çuğlamışdı. Kasıblıq, yetimlik qarşısını kəsdi. Varlı qohumlarının da heç biri bu zəkalı yeniyetməyə kömək əli uzatmadı.

Ard-arda gələn dərdlər, yaşından böyük qayğılar onu sarsıdırdı. Dalğın, kədərli düşüncələr ruhunu sarır, ümidlərini tükəndirirdi. Yaralı könlünə ilk məhəbbəti də məlhəm olmadı. Sevgilisini yetim oğlana yox, varlı bir tacirə ərə verdilər. Bu hicran qəlbini elə yandırıb qovurdu ki, ora bir daha sevgi yol tapa bilmədi. Hadi ömrünün sonunadək evlənmədi. Deyəsən, şair ruhu da məhəbbətdən həmişəlik küsdü. Ona görə sevgiyə, gözəllərə əsərlərində yer vermədi. Bəşəri məsələlər, ictimai-siyasi problemlər, vətən dərdi, xalqın taleyindən nigaranlıq onun yaradıcılığının başlıca istiqamətləri oldu. Gözündə qalan arzularını isə beləcə qəlbinin fəryadı kimi qələmə aldı:

Oxumaqçün nə qədər dadu-fəğan etdim isə,
Olmadı zərrə əsərbəxş şu istimdadım.
Dağa dersəm eşidir, sonra verir əks-səda,
Daşa dönmüşlərə əks eyləmədi fəryadım.

Maddi sıxıntılar içərisində çırpınan Hadi əmisi oğlu ilə şərikli baqqal dükanı açaraq xırda alış-verişə başladı. Bacarmadığı işə girişmişdi. Çox keçmədi ki, böyük zərərlə bu işdən ayrıldı.

1902-ci ildə Şamaxıda baş verən zəlzələ çoxu kimi onu da evindən, yurdundan uzaq saldı. Kürdəmirə getdi. Orada müəllim işlədi. Maddi vəziyyəti nisbətən yaxşılaşdı. Yenə böyük həvəslə mütaliə ilə məşğul olur, oxumaq üçün Bakıdan "Həyat", Kəlküttədən "Həblül-mətin", İstanbuldan "Sabah", Bağçasaraydan "Tərcüman" qəzetlərini gətirdirdi. Sonralar da Quranı əzbərdən bilən, oxuya-oxuya mənasını söyləyən, tərcümə edən, Firdovsi, Nizami, Xəyyam, Hafiz, Sədi və başqa dahi şairlərin bir sıra şeirlərini dilimizə çevirən, Avropa alimlərinin, şairlərinin yaradıcılığına bələd olan Məhəmməd Hadi biliyi, geniş məlumatı ilə tanıyanları heyran qoyurdu.

1905-ci ilin ortalarından şeirləri mətbuatda dərc olunmağa, gənc şair kimi rəğbət qazanmağa başladı. Həmin il Həştərxanda "Bürhani-tərəqqi" qəzetini nəşr etdirən Mustafa Lütfi onu yanına çağırdı. Müəllimlik işi ilə vidalaşan Hadi Həştərxana getdi və "Bürhani-tərəqqi"nin səhifələrində onun da imzası göründü.

Bakıya 1906-cı ildə Əli bəy Hüseynzadənin dəvəti ilə gəldi. "Füyuzat" jurnalının redaksiyasında çalışdı. "Füyuzat" bağlandıqdan sonra o, "İrşad", "Təzə həyat" və "İttifaq" qəzetlərində işlədi. Mətbuatda Məhəmməd Hadinin elmə, təhsilə səsləyən şeirləri, intibah məsələlərindən bəhs edən məqalələri dərc olundu.

1908-ci ildə milyonçu Hacı Zeynalabidin Tağıyevin dəstəyilə Məhəmməd Hadinin "Firdövsi-ilhamat" adlı ilk şeirlər kitabı çapdan çıxdı.

1910-cu ilin yazında İstanbula yollandı. Orada fəaliyyət göstərən "Tənin"



**Məhəmməd Hadi,**
**Mirzə Ələkbər Sabir,**
**Əfəndizadə Əbdürrəhman Tofiq**

qəzetinin redaksiyasında Şərq dilləri mütərcimi işlədi. "Rübab", "Sərvəti-fünun", "Sabah" qəzetlərində fəal çıxış etdi. 1913-cü ildə Türkiyənin hərbi naziri Mahmud Şövkət paşanın qətlə yetirilməsi ilə həbslər, sürgünlər artdı. Hadi də Rusiyadan göndərilmiş təxribatçı adı ilə o zamanlar Osmanlı imperiyasının ucqarları sayılan Salonikiyə sürgün edildi. Salonikidə məşəqqətlər çəkir, günlərlə ac qalırdı. Bazarlıq etmiş yerli qadınların ağır zənbillərini evlərinə daşıyan şair qazandığı pulla ölüm-zülüm dolanırdı.

Balkan müharibələri (1912-1913) nəticəsində Saloniki şəhəri Yunanıstanın nəzarətinə keçdi. Bu dəfə də Hadinin nəzakətli rəftarı, incə və ağ əlləri yunan polislərini şübhəyə saldı. Onu Türkiyənin casusu saydılar və limandan yola düşən ilk gəmiyə mindirib Yunanıstandan çıxardılar. Gəmidə də bəla şairdən yan keçmədi. Hadini dənizə atmaq istədilər. Onu ölümün pəncəsindən bir yunan keşişi aldı. Çətinliklə İstanbula, oradan Batuma yetişdi. 1914-cü ilin fevralında Bakıya gəldi. Mübtəla olduğu içki düşkünlüyündən, ruhi sarsıntılardan xilas olmaq üçün xəstəxanaya düşdü. Müalicə olunub xəstəxanadan çıxdığı vaxt Birinci Dünya müharibəsi başladı. Məhəmməd Hadi cənub-qərb cəbhəsinə könüllü xidmətə yollandı. 1915-ci ildə Qafqaz ordusunun feldşeri kimi Avstriya cəbhəsinə, Karpata getdi. Müsəlman əsgərləri arasında alay mollası vəzifəsində çalışdı. Müharibədə şahidi olduğu dəhşət hadisələr onu heyrətə salırdı. Qələmdən əl çəkməyən Hadi şeirlərini "Meydani-hərb xatirələrindən" başlığı ilə Bakıya göndərirdi.

1917-ci ildə ruhani vəzifəsini yerinə yetirdiyi ordu ilə cəbhədən Sankt-Peterburqa getdi. 1918-ci ildə Gəncəyə gəldi. Bir müddət orada qaldıqdan sonra Bakıya döndü. Yenə mənəvi rahatlıq tapa bilmədi. Müharibə xatirələrinin bədbin əhvali-ruhiyyəsi onu tərk etmirdi. Vətəninin tərəqqi etməməsi, soydaşları arasında oxuyub-yazmağı, haqq və hüququnu bilənlərin az olması Məhəmməd Hadini kədərləndirirdi. Bir tərəfdən də maddi sıxıntılar içərisində çırpınırdı. Mətbuatda çıxan şeirlərinin qonorarı ilə dolanması mümkünsüz idi. Şair öz əsərlərini satırdı...

Dostu, görkəmli ədib Abdulla Şaiq Məhəmməd Hadinin o ağır, böhranlı günlərindən birini xatirələrində belə canlandırırdı: "Bir gün küçədə sərxoş halda mənə təsadüf etdi. "Hərarətli şeirlərim" sərlövhəli mənzuməsini mənə uzadaraq: "Al, beş manat ver!" dedi. Mən cibimdə olan on manatımın hamısını ona verdim. O, diqqətlə üzümə baxdıqda məni tanıdı və pulu ovcuma qoyub məni qucaqladı. Çox mütəəssir idi. "Şaiqciyim, bağışla, tanımadım" dedi. Nə qədər israr etdim, pulu almadı".

Rusiya imperiyasının süqutu, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması şairin ürəyindən xəbər verdi. Müstəqil Azərbaycan dövlətinə şeirlər həsr edir, cümhuriyyət hökumətinin rəsmi orqanında - "Azərbaycan" qəzetində yazıları dərc olunurdu. 1918-1919-cu illərdə "İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" poeması kiçik kitablar halında Bakıda çapdan çıxdı.

...Son günləri Gəncədə keçdi. Şairin sonu da müəmmalı oldu. Abdulla Şaiq xatirələrində yazırdı: "Hadi təxminən 1919-cu ilin axırları, 20-ci illərin əvvəllərində Gəncədə birdən-birə qeyb oldu. Şairin "yox olmasını" o zaman ancaq dostları, qələm yoldaşları hiss edə bildi, onu çox axtardılar, gördüm deyən olmadı".

Şairin 1920-ci il, Gəncə qiyamından bir neçə gün sonra kiçik bir xəstəxanada yatdığını, orada dünyadan köçdüyünü, "Səbzkar qəbiristanlığı"nda dəfn edildiyini söyləyənlər oldu. Uzun illər harada dəfn edildiyi bilinmədi. Şairin məzarı 1966-cı ilin aprel ayının sonlarında aşkar edildi. Həmin ilin yayında nəşinin qalıqları Gəncə çayının sağ sahilindəki bağa köçürüldü, məzarı üzərində büstü ucaldıldı...

Bu dünyada ömür payının bütün səhifələrinə kədər qarışmış şair Məhəmməd Hadi Əbdülsəlimzadənin 140 illiyidir. Şair sanki uzun illərin o üzündən məzhun-məzhun deyir:

Ey ol vəqti görən məsud, unutma bizləri yad et!
Ey yoldu həsrət ilə can verən əhvalı tedad et!
Məzarım üsdə gəl dur, qəmli-qəmli ağla, fəryad et!
Oxu bu şeiri qəbrimdə ələt təkrar evrad et:
Dur, ey zindani nisyanda yatan, azad olub aləm!
Sürurabadi-hürriyyət gəlib, dilşad olub aləm!

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Görkəmli elm və ədəbiyyat xadimləri Məhəmməd Hadi irsi haqqında

**Abdulla Şaiq:** "Hadi qədər hürriyyətə həvəs göstərən bir şair olmamışdır... hər bir əsərində hürriyyəti oxşamadan keçməmişdir".

❖❖❖

**Seyid Hüseyn:** "O, oxuduğu elmlərin kəndisinə heç bir nəticə verməyəcəyini, olsa-olsa mömin bir molla əfəndidən fəzlə bir şey olmayacağına hissi-qəbləl-vüqu ilə anladığından İstambul və Əl-Qahirə kimi islam mədəniyyəti mərkəzlərinə gedib orada təhsil almaq fikrinə düşmüşdü. Mustafa Lütfi... Hadini xarici məmləkətlərə göndərəcək iqtidarı olmadığından Hadi bir neçə zəngin əqrəbasını müraciətdə bulunmuş, təhsil arzusunda olduğunu söyləyib müavinət istəmişsə də, sözünü dinləyən və yardımda bulunan olmamışdı".

❖❖❖

**Ömər Faiq Nemanzadə:** "1902-ci il yanvarın 31-də cümə axşamı gündüz saat 12-də Şamaxıda indiyə qədər görünməmiş yer tərpənişi oldu. Bu gün Şamaxı üçün ən böyük fəlakət, eşidilməmiş bir dəhşət və qiyamət günü idi. Baş vermiş dağıdıcı zəlzələdən sonra bir çox şamaxılılar kimi M.Hadi də doğma şəhərini tərk etməyə məcbur olmuş, evlərinin ənqazını (tör-töküntü) 200 manata sataraq Kürdəmirə getmiş, ibtidaən bir əttar dükanı açmış isə də, ondan da bir şey çıxmadığını görüncə, ikincikərə olaraq zərər ilə dükanı qapamışdır".

❖❖❖

**Yaşar Qarayev:** "XX əsr Azərbaycan şeirində romantizm cərəyanının ən qüdrətli nümayəndələrindən biri Məhəmməd Hadidir. ...Keşməkeşli və faciəvi sonluqla bitən bir ömür sürmüş Hadi türk, Şərq və Avropa ədəbiyyatlarını, fəlsəfəsini dərindən mənimsəmiş və bütün bu təsirləri şeirlərində yaradıcı şəkildə əks etdirərək, orijinal şair kimi ədəbiyyat tariximizdə özünə yer tutmuşdur".

❖❖❖

**Anar:** "Hadinin taleyindəki dəhşətli paradoks bundadır ki, nəhayət, sanki arzusu gerçəkləşdiyi, Azərbaycan öz müstəqilliyini bəyan edib, "xətti imzalar içində" yer aldığı zaman artıq qırx yaşı haqlayan Hadi bu sevinci sonadək duya bilmədi".

❖❖❖

**Elçin:** "XX əsr Azərbaycan klassik poeziyasında Hadi qədər birbaşa, müstəqim surətdə "vətən" və "millət" ifadələrini işlədən ikinci şair yoxdur və bu ifadələr onun poeziyasını tam, bütöv şəkildə müəyyənləşdirən obrazlara çevrilib".





# Mədəniyyət





● Mətbuat tariximizdən

**Xalqımızın tarixi və taleyi kimi, onun milli mətbuatı da keşməkeşli yollardan keçərək bugünümüzə gəlib çatıb. Müstəqilliyin bərpasından sonra məlum oldu ki, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) qurulmasında böyük rol oynayan milli ruhlu, demokratik mətbuatımızın tarixi uzun illər xalqımızdan gizli saxlanıb. Daha doğrusu, bu irs tədqiqata birtərəfli, qərəzli şəkildə cəlb edilib. Milli mətbuatımızın bu qürurlu səhifəsi tənqid edilib, qınaq obyektinə də çevrilib.**



# Yüzillik sənədin tarixi əhəmiyyəti

## 1919-cu ildə mətbuat haqqında qanun qəbul edilmişdi

Ancaq milli müstəqilliyin bərpasından sonra Cümhuriyyət dövrünün zəngin mətbuatı tədqiq edilməyə başlandı. Araşdırmalar göstərir ki, AXC dövrünün mətbuatı milli jurnalistika tarixində həm özündən əvvəlki, həm də sonrakı dövrlərə nisbətən daha yüksək inkişaf mərhələsini yaşayıb.

Milli istiqlal elan edildikdən sonra, təbii ki, mətbuatın da qarşısında yeni vəzifələr dururdu. Ən əsası isə Xalq Cümhuriyyətini qoruyub saxlamaq üçün daxili və xarici təhlükələrə qarşı ideoloji mübarizə mühüm yer tuturdu. Yeni tarixi vəzifələri həyata keçirmək üçün AXC 1918-ci ilin sentyabrında "Azərbaycan" qəzetini nəşr etməyə başladı. Müxtəlif vaxtlarda qəzetin redaktorları Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim olmuşlar.

Cümhuriyyət hərəkatı sözün əsl mənasında milli fikir intibahına yol açdı. Çarizmin devrilməsindən sonra Azərbaycanda yaranmağa başlayan müxtəlif siyasi partiya və təşkilatların azad fəaliyyətinə meydan verildi. Milli demokratiyanın müstəqil mətbuatı təşəkkül tapdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə iki dəfə hökumət başçısı seçilmiş Nəsib bəy Yusifbəylinin rəhbərliyi və təşəbbüsü ilə 1919-cu ilin oktyabrında mətbuat haqqında qanun qəbul edildi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə mətbuat məsələlərini tənzimləyən sənəd - Mətbuat Haqqında Nizamnamə 1919-cu il oktyabrın 30-da parlament tərəfindən qəbul olundu. Hökumətin 1919-cu il 30 aprel tarixli qərarına əsasən, Nizamnamə layihəsini hazırlamaq Ədliyyə Nazirliyinə tapşırılmışdı. 1919-cu il iyunun 20-də hökumət Daxili İşlər Nazirliyinin təqdim etdiyi qanun layihəsini bəyəndi və onu parlamentin müzakirəsinə çıxardı. Nizamnamə söz və mətbuat azadlığı prinsiplərinə əsaslanırdı. Sənəddə deyilirdi ki, insan fəaliyyətinin hər bir sahəsi kimi, mətbuat da azadlıqla anarxiya arasında sərhədi müəyyən edən qanunlara tabe olmalıdır.

Mətbuat azadlığına yekdilliklə tərəfdar olan parlament üzvləri bu qanun layihəsini ən ciddi sənədlərdən biri hesab edirdilər. Bununla belə, layihənin parlamentdə hər üç oxunuşu qızğın müzakirələrlə keçirdi. "Hümmət" partiyası və sosialist fraksiyası layihənin əleyhinə çıxırdılar. Onlar iddia edirdilər ki, mətbuatı heç bir qanunla məhdudlaşdırmaq olmaz, Nizamnamə demokratiya və müstəqil dövlətçilik prinsiplərinə ziddir.

Maddələrin ayrı-ayrılıqda müzakirəsi zamanı mətbuata ümumi nəzarət və rəhbərlik haqqında, redaktorun təbəəliyi, təhsili, yaş senzi, mətbəə yaradılmasına icazə verilməsi barədə bəzi bəndlərin qəbul olunması ilə razılaşmayan sosialistlər salonu nümayişkaranə tərk etmişdilər.

Mətbuat Haqqında Nizamnamə oktyabrın 23-dən 30-dək parlamentin iclaslarında müzakirə edildi. Nizamnamə layihəsi üçüncü oxunuşda, bir deputat bitərəf qalmaqla, 21 səsə qarşı 28 səslə qəbul olundu.

Nizamnaməyə əsasən, mətbəə açmaq, çap məhsullarını nəşr etmək, buraxmaq və satmaq üçün hökumətin heç bir icazəsi tələb edilmirdi. Yetkinlik yaşına çatmış hər bir vətəndaş mətbu nəşrin məsul redaktoru ola bilərdi. Mətbəə açmaq və ya mətbu nəşr buraxmaq istəyənlər mətbuat işləri üzrə baş müfəttişə bu barədə müəyyən edilmiş formada ərizə verməli idilər.

Nizamnamənin bir sıra maddələrini pozmaqda təqsirli bilinən naşir, mətbəə sahibi və redaktor pulla cərimə ödəməli və ya həbs cəzasına məhkum edilməli idi. Nizamnaməyə eyni zamanda mətbuat işləri üzrə baş müfəttiş ştatı da əlavə olunmuşdu.

Həmin illərdə Azərbaycanda 80-dən çox qəzet və jurnal var idi. Onlardan ən öndə, Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin başlıca məramı milli hökuməti müdafiə etmək idi. Cümhuriyyətin bütün siyasi-ictimai, iqtisadi və mədəni təsisatlarının tarixi mənzərəsi bu qəzetdə öz əksini tapırdı. Qəzetin ilk 4 sayı Gəncədə çıxmış, sonralar isə Bakıda Azərbaycan və rus dillərində nəşr olunmuşdur. Qəzetin ilk nömrəsində 1918-ci il sentyabrın 15-də Bakının azad edilməsi ilə bağlı xəbərlər, Məhəmməd Hadinin türk əsgərinin şücaətini vəsf edən "Türk nəğməsi" şeiri də dərc edilmişdir.

Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Xəlil İbrahim, Fərhad Ağazadə, Hacı İbrahim Qasımov, Məhəmməd ağa Şahtaxtlı, Adil xan Ziyadxanov, Ələbbas Müzhib, Şəfiqə Əfəndizadə, İstanbulda təhsil alan Əmin Abid və başqalarının qəzetin ayrı-ayrı saylarında dərc olunan məqalələri Azərbaycan tarixinin, mədəniyyətinin, maarifinin inkişafına, milli şüurun oyanmasına, özünüdərkin təşəkkülünə yardım etmiş azərbaycançılıq, istiqlalçılıq, türkçülük, islamçılıq, müasirlik məfkurəsinin təbliğində mühüm rol oynamışdır.

Üzeyir bəy Hacıbəyli öz yazılarında erməni-daşnak quldurlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımlarının, Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmaq istəməmələrinin siyasi mahiyyətini açır, bütün bunların əsl səbəbkarı olan rus-bolşevik-daşnak qüvvələrini ifşa edirdi.

Əlbəttə, AXC dövründə nəşr edilən, ilk nömrəsi 1920-ci ilin əvvəlində çıxmış "Qurtuluş" jurnalı da ədəbi-mədəni sahədə xeyli iş görmüş, xalqımızın milli mədəniyyətinin təbliğinə çalışmışdır. Vətənpərvər və milliyyətçi ziyalılardan Abdulla Şaiq, Hüseyn Cavid, Salman Mümtaz, Feyzulla Sacid, Əli Yusif, Əbdürrəhman Dai və başqaları topluda əməkdaşlıq etmişlər.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə müxalifətdə olan mətbuat da az deyildi. Onların içərisində ən fəalı bolşevik mətbuatı idi. O, həmin illərdə Şimali Azərbaycanın sovet Rusiyası tərkibinə qatılması uğrunda mübarizə aparırdı. Bolşeviklər 1917-1920 illərdə Azərbaycanda 40-dan artıq adda qəzet və jurnal çıxarmışlar.

Həmin illərdə milli ideyalı "Şeypur" və "Zənbur" adlı satirik jurnallar işıq üzü görmüşdü. İlk nömrəsi 1918-ci il oktyabrın 5-də çap olunmuş "Şeypur"un naşiri Səməd Mənsur, redaktoru Məmmədəli Sidqi idi. 1919-cu ilin aprelindən nəşr edilən "Zənbur"da Məmmədəli Sidqi, Əli Nəzmi, Səməd Mənsur, Balaqardaş Səttaroğlu və başqa müəlliflərin gizli imzalarla şeir və publisist yazıları dərc olunurdu. Jurnaldakı rəngli karikaturalar rəssam Əzim Əzimzadəyə məxsus idi. Həftədə bir dəfə çıxan "Zənbur"un cəmi 24 nömrəsi nəşr edildi. 1918-1920-ci illərin satirik mətbuatı mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" ədəbi məktəbinin satira ənənələrindən faydalanaraq, azadlıq və istiqlal düşmənlərini, imperializmin müstəmləkəçilik siyasətini, geriliyi, cəhaləti və xurafatı satira atəşinə tutur, xalqı biliklərə yiyələnməyə, müasirləşməyə səsləyirdi. Ümumiyyətlə, 1918-1920-ci illərin mətbuatında Azərbaycanın milli, ictimai-siyasi fikri, 1905-ci il inqilabından sonra çarizmin müstəmləkəçilik siyasətinə qarşı xalqın etirazı, milli muxtariyyət ideyası, Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra isə milli istiqlal idealları öz əksini tapmışdır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Mühacir yazar

# Alazan Baycan



**Alazan Baycan! Bu imza ilə ilk tanışlığım uzun illər bundan öncə istiqlal şairimiz Əhməd Cavadın həyat və yaradıcılığını araşdırarkən olmuşdur. Ədəbi aləmdə Alazan Baycan kimi tanıdığımız bu şəxsin əsl soyadı Hacı Həsənzadədir. 1929-cu ildə Qazax Müəllimlər Seminariyasını bitirən Hacı Həsənzadə azadlıq carçısı Əhməd Cavad şeirlərinin pərəstişkarı olub. Əhməd Cavad şeirlərinin təsiri altında gözəl poeziya nümunələri yaradıb. Onlardan biri də mühacirətdə olarkən Əhməd Cavadın "Göy-göl" şeirinə yazdığı eyni adlı nəzirədir.**

Mühacir yazarın "Könül sazından" (1983) və "Dağ çiçəkləri" (1987) şeir kitabları Azərbaycan Kultur Dərnəyinin dəstəyi ilə işıq üzü görüb. İkinci kitaba ön sözü Əhməd Qaraca yazıb. Mühacir yazar Almaniyada Freyburq şəhəri, Höte küçəsində yaşayarkən Baycan Hötedən və Nitşedən türk dilinə tərcümələr edib. "Dağ çiçəkləri" şeir kitabına şairin Hötedən tərcümə etdiyi 8, Nitşedən isə 5 əsəri daxil edilib.

Ömrünün böyük hissəsini Almaniyada keçirən mühacir şair, həkim Alazan Baycan 12 may 1913-cü ildə Yelizavetpol quberniyasının Qazax nahiyəsində doğulub, ibtidai və orta təhsilini Qazax şəhərində alıb. Qazax Müəllimlər Seminariyasını bitirdikdən sonra bir il Balakəndə müəllim işləyib. 1931-ci ildə Bakı Dövlət Universitetinin Tibb fakültəsinə daxil olub.

Əsl ad-soyadı Hacı Həsənzadə olan Alazan Baycan dəmir pərdənin endiyi 1930-cu illərdə ölkəni tərk edib. 1933-cü ildə oxuduğu fakültədən ayrılaraq İrana, oradan da Türkiyəyə keçib.

1934-cü ildə İstanbul Universitetinin Tibb fakültəsinə daxil olub, 1939-cu ildə isə bitirib. Həkimlik fəaliyyətinə başlayan Baycan İstanbulda bir il Gülhanə Tətbiqi Məktəb və Klinikasında, daha sonra Gemlik Hərbi Xəstəxanasında çalışıb.

Baycan 1942-ci ildə mühacir həmyerlisi Fuad Əmircanla birlikdə Almaniyaya gedib, bir il Berlin Universitetində çalışıb. 1943-cü ildən etibarən Freyburq Universitetində fəaliyyətə başlayıb. 1948-ci ildə daxili xəstəliklər üzrə mütəxəssis adına layiq görülüb. Baycan həmin ildən etibarən özəl müayinəxana açaraq fərdi qaydada fəaliyyət göstərib.

Alazan Baycan mühacirətdə olduğu ilk günlərdən ömrünün sonuna kimi Azərbaycanla, əqidə yoldaşları və doğmaları ilə əlaqə saxlayıb. Bu barədə mərhum professor Abbas Zamanov "Ədəbiyyat" qəzetinin 1990-cı il 4 may tarixli sayında yazır: "Doktor A.Baycan qürbətdə didərgin həyatı sürsə də, vətənlə əlaqələrini kəsməmişdir. Həmişə doğma Azərbaycandan müxtəlif yollarla qəzet, jurnal, kitab əldə etmiş, Azərbaycanla birgə yaşamış, birgə nəfəs almışdır. Mühacirətdə yaşayan bir çoxları onun kitabxanasından istifadə edirdilər. Mən şəxsən 20 ilə yaxın onunla məktublaşmış, kitab mübadiləsi etmişəm. A.Baycanın şeirlərinin yeganə leytmotivi vətən həsrətidir.

O, mənə göndərdiyi məktubların birində yazırdı: "Dünyada yeganə arzum ana vətəni ziyarət etməkdir. Heç bilmirəm bu istək mənə qismət olacaqdırmı?"

Çox təəssüf ki, vətənindən didərgin düşən qərib oğlunun arzusu həqiqətə çevrilmədi. O, ömrü boyu vətən həsrəti ilə yaşadı, vətən həsrəti ilə də öldü. Qərbi Almaniyanın Freyburq şəhərində 1989-cu il noyabrın 9-da gözlərini həyata yumdu. Doktor A.Baycanın həyat yoldaşı İnqa xanım mənə göndərdiyi kədərli məktubda yazmışdı. Alazan ömrünün son dəqiqələrində bu sözləri dedi: "Azərbaycan... Qazax... Səməd. O, bu sözləri deyəndən sonra keçindi".

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Xəbər

# Qobustan qayaüstü təsvirləri İspaniya və İtaliya alimləri ilə birlikdə öyrəniləcək

**Qobustan Milli Tarix-Bədii Qoruğunda qayaüstü təsvirlərin yeni metodlarla qeydiyyatı layihəsinin uğurlu nəticələri beynəlxalq elmi ictimaiyyətin diqqət mərkəzindədir.**

Qoruqdan redaksiyamıza daxil olan məlumatda bildirilir ki, layihənin növbəti mərhələsində iştirak etmək üçün müraciət etmiş İspaniyanın Madrid Compultense Universitetinin professoru Marcos Garcia Diez, Rovira və Virgili Universitetinin professoru Manuel Vaquero Rodrigez, Pais Vasco Universitetinin fəlsəfə doktoru Blanca Ochoa Fraile və İtaliyanın Ferrara Universitetinin fəlsəfə doktoru Dario Sigari qoruq rəhbərliyinin dəvəti ilə Qobustan Milli Tarix-Bədii Qoruğunda olublar.

Xarici mütəxəssislər Qobustan abidələrinin tədqiqatçısı Firuzə Muradova ilə qoruqda aparılan elmi tədqiqatlarla tanış olduqdan sonra buradakı qayaüstü təsvirlərinin və arxeoloji qazıntıların nəticələrinin xüsusilə Avropanın Üst Paleolit və Mezolit dövrünün öyrənilməsi üçün mühüm mənbə olduğunu bildiriblər.




Tədqiqatlarda Qobustan abidələrinin Avropanın həmin dövr abidələri ilə müqayisəli şəkildə öyrənilməsinin vacibliyi vurğulanıb.

Qobustan qoruğunun arxeoloji abidələri, qayaüstü təsvirləri və ekspozisiyada sərgilənən artefaktlarla tanış olan tədqiqatçılar abidələrin qorunması və sərgilənməsini yüksək qiymətləndiriblər.

***"Azərbaycan"***

● Xalçaçı rəssam

# Bir ömrü naxışlayan "ilmələr"




**Bahar Ələkbər qızı Şıxıyeva nənələrimizin sevə-sevə öz qızlarına, gəlinlərinə, qohum-qonşularına öyrətdiyi xalçaçılığa elə-belə meyil salmayıb. 1974-cü ildə Hacıqabul rayonunda dünyaya göz açanda ağlına haradan gələrdi ki, iki ayaq yox, "iki təkər üstündə gəzəcək". Bu, həyatdır! Hər şey ola bilir. Kimsə qəzavü-qədərdən sığortalanmayıb...**

O, buna alışdı, öyrəşdi və əlil arabası ilə doğmalaşdı, dostlaşdı. 2014-cü ildə Peşə Reabilitasiya Mərkəzində xalçaçılığın sirlərinə bələd olan Bahar Şıxıyeva görkəmli şəxsiyyətlərin portretini rənglərlə deyil, iplərlə işləmək həvəsinə düşdü. Keçirdiyi qəzadan sonra hərəkətdən qalan Bahar bununla sanki ilmələrlə, əriş-arğacla həmsöhbət olur, dərdini unudur, toxuduğu xalçalara gənclik duyğuları ilə döyünən qəlbinin hərarətini verirdi.

Bahar xanım milli-mədəni irsin nadir incilərinin qorunması və təbliğinə dair bir sıra nümunələr müəllifi kimi tanınır. Xalçaçı rəssam kimi artıq öz sözünü demiş B. Şıxıyeva "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" misrası ilə 650 ildir ki, tanınan və sevilən, Şərqin poeziya kəhkəşanında daha çox bərq vuran İmadəddin Nəsiminin xalça üzərində portretini yaratmaqla, ölməz şairimizə sonsuz vurğunluğunu əks etdirib. Bununla o, həm də özünün daxili dünyasının istək və arzularını "dil açdırıb".

Bir sıra sərgilərdə öz əsərləri ilə iştirak edən Bahar Şıxıyeva eyni zamanda respublikanın tədris mərkəzlərində sevimli sənətinin sirlərini digər əlil arabasına sığınanlara da öyrətməkdən yorulmur.

***"Azərbaycan"***

● El sənətkarlığı

# "...Yaradan əllər"

**Sənət dünyasında qurub-yaradan əllər öz bədii boyasını sözlə ala bilirmi görəsən? Zaman-zaman bu sual çoxlarını düşündürüb. Elə ona görə də "zər barmaqlar" haqqında kifayət qədər atalar sözü, zərb-məsəllər yaradılıb, aforizmə çevrilib: "Zər qədrini zərgər bilər".**

Qabar əllərin sığalı ilə neçə-neçə daş "canlanıb", ağac "dil açıb"-musiqi ifa edilib, ilmələr xalı-xalçada zər barmaqlı sənətkarların sənət əsərlərinə çevrilib. Dilindən, dinindən, irqindən, mənşəyindən, yaşından asılı olmayaraq sənət inciləri yaradanların bir adı var: sənətkar...

Adicə qamışdan yaradılan neçə-neçə sənətkarlıq nümunəsi xalqımızın mədəniyyət tarixinə yazılıb. Dulusçunun palçıqlı əllərindən "cana gələn" kuzələr, badyalar, çini qablar dünyanın ən məşhur incəsənət muzeylərinin sərgi salonlarını bəzəyir. Minillik yaşıdı olan sənət nümunələri yaradan əllərin məhsuludur. Məhz buna görə də söz qoşub, saz çalan sənətkarlarımız onların qabarlı əllərini vəsf ediblər. Nəğməkar şair Ramiz Heydərin sözlərinə Oqtay Kazıminin bəstələdiyi "Qoy var olsun yaradan əllər..." mahnısı da illərdir ki, dilləri və elləri dolaşır...

***M.NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***







# Beynəlxalq aləm

## Fransada ümumxalq tətili



Dünən Fransada ümumxalq tətili keçirilmişdir. Vətəndaşlar hökumətin təklif etdiyi pensiya islahatı layihəsinə etiraz etmişlər. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Parisdə ictimai nəqliyyat işləməmişdir. Dəmir yolu nəqliyyatı iflic vəziyyətinə düşmüş, aviasiya reysləri ləğv olunmuş, məktəblər və bağçalar bağlanmışdır. Poçt şöbələri işləməmişdir. Dövlət qulluqçularına vəkillər və həkimlər də qoşulmuşlar. Ümumxalq tətilinə qoşulmaq çağırışı ilə polis və jandarma əməkdaşlarını birləşdirən iki iri həmkarlar ittifaqı çıxış etmişdi. Əhali pensiya islahatını qarət kimi qiymətləndirir. Belə ki, layihə vətəndaşları pensiya gəlirlərinin əhəmiyyətli hissəsindən və digər bonuslardan məhrum edir.

24 il əvvəl Jak Şirakın prezidentliyi dövründə də hökumət pensiya islahatı keçirmək qərarına gəlmişdi. Lakin bir neçə həftəlik etirazlardan sonra hökumət qərarından əl çəkmişdi.

## Mavritaniya sahillərinin yaxınlığında 57 miqrant batdı



Mavritaniyanın ərazi sularında qeyri-leqal miqrantları daşıyan qayıq batmışdır. Bu barədə yerli KİV xəbər verir.

Hakimiyyət orqanlarının verdiyi məlumata görə, qəzadan sonra 74 nəfər xilas edilmiş, 57 nəfər həlak olmuşdur. İspaniyaya istiqamət götürmüş qayıq Mavritaniyanın şimal-qərbində yerləşən Nuadibu liman şəhərinin 25 kilometrliyində batmışdır. Xilas edilmiş miqrantlar qaçqınların müvəqqəti yerləşdirmə mərkəzlərinə çatdırılmışdır. Onlara tibbi yardım göstərilmişdir.

Mavritaniya Avropaya can atan qeyri-leqal miqrantlar üçün Afrikada əsas marşrutlardan biri hesab olunur.

## Moskvada terrorizmdə şübhəli bilinən 9 nəfər tutuldu

Rusiyanın paytaxtı Moskvada məhkəmənin qərarı ilə MDB ölkələrindən olan 9 nəfər həbs edilmişdir. Onlar terrorizmdə şübhəli bilinirlər. Tutulanlardan 8-i kişi, biri qadındır. Bu barədə vesti.ru saytı xəbər verir.

Məlumata görə, şübhəli şəxsləri 10 ildən 20 ilədək həbs cəzası gözləyir. Şübhəlilər Rusiyada fəaliyyəti qadağan edilmiş "İslam azadlığı partiyası"nın ("Hizb ut-Təhrir əl-İslami") üzvləridir.

Bundan əvvəl Rusiya Federal Təhlükəsiz Xidməti və Daxili İşlər Nazirliyinin əməkdaşları Moskva və Çelyabinskdə sözügedən terrorçu təşkilatın iki başçısını və yeddi fəal üzvünü saxlamışlar. Onlar Rusiya və Mərkəzi Asiya ölkələrinin vətəndaşlarıdır.

## Amerikalı hərbçi Perl-Harbor bazasında qətl törətdi



ABŞ hərbi dəniz qüvvələri və hərbi hava qüvvələrinin Perl-Harbor-Hikem birləşmiş bazasında açılmış atəş nəticəsində Müdafiə Nazirliyinin iki mülki əməkdaşı həlak olmuşdur. Bu barədə kontr-admiral Robert Çedvikə istinadən NBC News telekanalı xəbər verir. Çevdikin dediyinə görə, atəş zamanı xəsarət almış üçüncü əməkdaşın vəziyyəti sabitdir. Yaralıların hamısı tərsanə işçiləridir.

Məlumata görə, atəşi ABŞ hərbi dəniz qüvvələrinin hərbi qulluqçusu törətmişdir.

Bazaya giriş müvəqqəti olaraq bağlanmışdır.


## Azərbaycan Dövlət Pedaqoji Universiteti 2020-ci il üçün mühafizə xidmətinin satın alınması məqsədilə açıq tender elan edir

**LOT 1 - Mühafizə xidməti**

İddiaçılara təklif edilir ki, dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumat əldə etsinlər. eTenderdə iştirak etmək istəyən iddiaçılar müəyyən edilmiş məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1 - 200 manat**

**Hesab: AZ92AIIB38090019441105141104**
**VÖEN:1700495231**
**Bank: Kapital Bank ASC Cəfər Cabbarlı filialı**
**Kodu: 200048**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəllsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 dekabr 2019-cu il saat 17:00-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 09 yanvar 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər. İddiaçıların təklifləri 13 yanvar 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

**QEYD:** eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*



## BİLDİRİŞ

Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri idarəsi dərmanların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan şəxslər 4925306 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka prosedurunda iştirak etmək üçün sənədlər 10 dekabr 2019-cu il tarixinə qədər qəbul olunur.

*Tender komissiyası*



## Azərbaycan Dövlət Pedaqoji Universiteti dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə açıq tender elan edir

LOT 1 - Dəftərxana və təsərrüfat mallarının alınması

İddiaçılara təklif edilir ki, dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumat əldə etsinlər. eTenderdə iştirak etmək istəyən iddiaçılar müəyyən edilmiş məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1 - 200 manat**

**Hesab: AZ92AIIB38090019441105141104**
**VÖEN:1700495231**
**Bank: Kapital Bank ASC Cəfər Cabbarlı filialı**
**Kodu: 200048**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəllsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13 dekabr 2019-cu il saat 10:00-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 24 dekabr 2019-cu il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər. İddiaçıların təklifləri 25 dekabr 2019-cu il saat 10:00-da vahid satınalma Portalında açılacaqdır.

**QEYD:** eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*



## BİLDİRİŞ

Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun "Azərbaycan" qəzetində və www.etender gov.az saytında 03 dekabr 2019-cu il tarixdə fondun Sabirabad rayon şöbəsinin inzibati binasının birinci mərtəbəsinin cari təmir işlərinin satın alınması üzrə elan etmiş olduğu təkliflər sorğusu predmetinin maliyyələşdirilməsi dayandırıldığından baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

*Tender komissiyası*



## BİLDİRİŞ

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Əlillik altsisteminin təkmilləşdirilməsi xidmətinin, mühasibat uçotu və hesabat işləri üzrə mühasibat uçotunun avtomatlaşdırılması proqramının satın alınması məqsədilə 25 oktyabr 2019-cu il tarixdə elan etdiyi açıq tenderdə Tender komissiyasının qərarına əsasən "AİSTGROUP" MMC tenderin qalibi elan edilmiş və qalib müəssisə ilə müvafiq müqavilə bağlanmışdır.

*Tender komissiyası*



## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşlarının tibbi sığortalanması məqsədilə elan edilmiş açıq tender üzrə Tender komissiyasının 25 noyabr 2019-cu il tarixli qərarı ilə "AzSığorta" ASC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq sığorta müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*



## BİLDİRİŞ

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti tərəfindən yaşıllaşdırma işləri üçün mal-materialların satın alınması ilə bağlı 19 oktyabr 2019-cu il tarixdə dövlət satınalmalarının vahid internet Portalında və 20 oktyabr 2019-cu il tarixdə "Azərbaycan" qəzetində elan olunmuş açıq tender prosedurunun "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.1-ci maddəsinə əsasən davamından imtina edilir.

*Tender komissiyası*



## BİLDİRİŞ

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti tərəfindən **İçərişəhər ərazisində fasad və eyvanların təmiri və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mənzil fondunun əsaslı təmiri işlərinin** satın alınması ilə bağlı 18 oktyabr 2019-cu il tarixdə dövlət satınalmalarının vahid internet Portalında və 19 oktyabr 2019-cu il tarixdə "Azərbaycan" qəzetində elan olunmuş açıq tender prosedurunun "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.1-ci maddəsinə əsasən davamından imtina edilir.

*Tender komissiyası*


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi Ağcabədi rayon prokuroru Salman Səməndərova atası

**SƏMƏNDƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Vüsalə Qulamovaya anası

**TƏRANƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova, Rəyasət Heyətinin üzvləri və aparat işçiləri Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Lətifə Mövsümovaya bacısı

**SƏLTƏNƏT BAĞIROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8906
Sifariş 4054
Qiyməti 40 qəpik